# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*H.Əliyev*

*12 may 2017-ci il №17(8733)* www.muallim.edu.az **Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı** *muallim@edu.gov.az*


# İslamiadanın könüllüləri

## Onlar peşəkarlıqları ilə IV İslam Həmrəyliyi Oyunlarında da uğura imza atmağa hazırdırlar



Böyük maraqla gözlənilən və yüksək səviyyədə keçirilməsi üçün ciddi hazırlıq işləri aparılan IV İslam Həmrəyliyi Oyunlarına bu gün rəsmi start verilir. İslam aləminin Azərbaycana, onun inkişafına verdiyi yüksək dəyər kimi qiymətləndirilən "Bakı-2017"-də İslam dünyasının 54 ölkəsindən 3 mindən çox idmançı iştirak edir. Onlar 21 idman növü üzrə 269 medal uğrunda mübarizə aparacaqlar.

### 8 min könüllü

Oyunların statistikasında kifayət qədər samballı daha bir rəqəm də diqqəti cəlb edir. Bu mötəbər yarışlara 8 mindən çox könüllü qatılıb. Onlar "Bakı-2015"-də tarix yazan, İslamiadada isə bu tarixi daha da zənginləşdirmək niyyətində və iqtidarında olan böyük könüllülər ordusunun əsgərləridir. O könüllülər ki, "Bakı-2017"-nin Təşkilat Komitəsinin sədri, Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva iki il öncə onların "Bakı-2015" I Avropa Oyunlarındakı böyük rolunu yüksək qiymətləndirərək "Siz olmadan biz bu tədbiri keçirə bilməzdik. Sizin həvəsiniz və peşəkarlığınız "Bakı-2015" ruhunu canlandırmaqda bizə yardımçı oldu" - demişdi.

### Könüllülük nədir, könüllü kimdir?

2009-cu ildə qəbul olunmuş "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununa görə, könüllülük qanunvericiliklə qadağan edilməyən işlərin görülməsi və xidmətlərin göstərilməsi ilə bağlı ictimai faydalı, gəlirsiz, yəni əvəzi ödənilməyən fəaliyyətdir.

Könüllü isə öz iradəsi və sərbəst seçimi əsasında əvəzi ödənilməyən fəaliyyəti həyata keçirən şəxsdir.

⇨Ardı səh.4

# Dərslik siyasətində yeni keyfiyyət mərhələsi

Azərbaycan Respublikasının Təhsil İnstitutu Tədris Resursları Mərkəzi ibtidai (I-IV) siniflər üçün Azərbaycan dili və riyaziyyat fənləri üzrə dərslik müəllifi olmaq arzusunda olan müəllim, doktorant, metodist və mütəxəssisləri əməkdaşlığa dəvət edib.

Müsabiqədə iştirak etmək arzusunda olan namizədlər Azərbaycan dili və riyaziyyat fənləri üzrə dərin biliyə, araşdırmaçılıq (tədqiqatçılıq) keyfiyyətlərinə, yüksək özünüifadə vərdişlərinə, xarici dil (ən azı rus, yaxud ingilis dilləri) və kompüter biliklərinə malik olmalıdır. Namizədləri seçərkən onların pedaqoji təcrübəsi, müasir pedaqogika ilə tanışlığı (hazırkı kurikulum, müasir təlim texnologiyaları və s.), fikirlərini yazılı formada şərh etmək və tədris resurslarının hazırlanması layihələrində iştirak təcrübələri də nəzərə alınacaq.

Zəruri keyfiyyətlərə malik olan şəxslər müsabiqəyə dəvət olunacaq və müsabiqə nəticəsində namizədlərlə tam ödənişli əsaslarla əməkdaşlıq haqqında müqavilə bağlanacaq.

Sadalanan keyfiyyətlərə malik müəllimlərə yönəlik bu çağırış Azərbaycan təhsili üçün tamamilə yeni olacaq ehtiyat dərsliklərin hazırlanması ilə bağlıdır. Göründüyü kimi, keyfiyyətli, müasir tələblərə cavab verən dərsliklərin hazırlanması prosesinə bütün təhsil ictimaiyyətinin ən fəal üzvləri cəlb ediləcək.

Ümumiyyətlə, qeyd etməliyik ki, son illər ərzində dərsliklərin hazırlanmasında keyfiyyəti yüksəltmək məqsədilə ardıcıl tədbirlər görülür. Artıq bu sahədə bir sıra dəyişikliklər müşahidə edilməkdədir. Məsələn, dərsliklərin qiymətləndirilməsinin obyektivliyini artırmaq məqsədilə Təhsil Nazirliyi bu işə başqa qurumları da cəlb edib. Hazırlanma prosesində olan layihələr, həmçinin artıq istifadə olunan dərsliklər ictimai müzakirəyə çıxarılıb. Bu məqsədlə trims.edu.az adlı xüsusi portal da yaradılıb. Qeyd edək ki, müəllim, valideyn, alim və mütəxəssislərin dərsliklərlə bağlı həmin portal vasitəsi ilə bildirdikləri irad, rəy və təkliflər nəşriyyat-müəllif heyətinin diqqətinə çatdırılır və müvafiq düzəlişlər edilir. Ehtiyat dərsliklərin hazırlanması bu sahədə növbəti yeniliklərdən olacaq.

⇨Ardı səh.5

# 12 mindən çox müəllimin diaqnostik qiymətləndirilməsinə start verilib

Mayın 11-də növbəti diaqnostik qiymətləndirməyə start verilib. Qiymətləndirmə Qax Olimpiya İdman Kompleksində keçirilir.

5 gün ərzində Qax, Qəbələ, Şəki, Zaqatala, Balakən, Oğuz, həmçinin bu rayonlarda yerləşən Ağdam, Laçın, Kəlbəcər və Xocalı rayonlarının ümumi təhsil müəssisələrində çalışan müəllimlərinin diaqnostik qiymətləndirilməsi aparılacaq. Qiymətləndirmədə 12 mindən çox müəllim iştirak edəcək.

Diaqnostik qiymətləndirməyə ilk peşə-ixtisas təhsili müəssisələrində ümumtəhsil fənlərini tədris edən müəllimlər də qatılacaq.

Diaqnostik qiymətləndirmənin nəticələrinə əsasən müəllimlərin bilik və bacarıq səviyyələri müəyyənləşdiriləcək, onların dərs yükü norması və əməkhaqqı artırılmaqla maddi rifahı yaxşılaşdırılacaq. Həmçinin həmin müəllimlər inkişafyönümlü təlimlərə cəlb ediləcəklər.

# Qloballaşmadan doğan təhsil sistemi

Son illər ən çox eşitdiyimiz və işlətdiyimiz deyimlərdən biri budur: "Təhsil insanın əsas kapitalıdır". Qlobal iqtisadi və maliyyə böhranı şəraitində bu sözlərin anlamını xüsusilə hiss etməyə başlamışıq. Əvvəl sovetlər dönəminin diqtə etdiyi sosial-iqtisadi formasiya, sonra isə bir sistemdən digərinə keçid mərhələsində bu reallığı dərk etməyimizə ya ehtiyac, ya şərait yox idi, ya da vaxt. Ancaq Qərb dünyası, daha dəqiq desək, Qərbin iqtisadi-maliyyə orbitində olan ölkələr bu gerçəkliyi az qala yarım əsr bundan əvvəl öz üzərlərində hiss və dərk etmişdilər. Bu gün onların sürətlə dünyanın digər hissəsini qabaqlamaları göstərir ki, həmin ölkələr bu reallığı nəinki dərk edib, eyni zamanda nəticə də çıxarıblar.

Bu prosesin ən bariz təmsilçisi bugünkü Sinqapurdur. Ərazisini xaricdən valyuta ilə gətirilmiş torpaqla okean suyunu "zəbt" edib genişləndirən kiçik şəhər-dövlətin "Cənub-Şərqi Asiyanın pələngləri" birliyində təmsil olunmasının ən başlıca səbəbi yarım əsr bundan əvvəl həyata keçirilmiş mükəmməl təhsil islahatlarıdır. Sinqapurun təhsil sistemi dünyada Çin, Cənubi Koreya, Yaponiyanın sistemləri ilə eyni sırada olmaqla çox sərt və tələbkar kimi qiymətləndirilir. Finlandiya təhsili barəsində ötən yazıda qeyd etdik ki, ekspertlər fin uşaqlarının təhsil sahəsindəki uğurlarını sistemin rahat və yüngül olması ilə əlaqələndirirlər. Sinqapur təhsil sistemində isə tam əks bir mənzərədir. Di gəl ki, bu sistem də dünyada öz uğuru ilə məşhurdur. Nədir səbəb?

50 il əvvəl Sinqapurun təhsil sistemi yenidən qurularkən hökumət mövcud ictimai-siyasi, habelə iqtisadi amillərdən çıxış etməli oldu. Ölkənin hazırda mövcud olan təhsil modelində Britaniya təhsil ənənələrinin dərin izləri var və bu, tarixi-siyasi nöqteyi-nəzərdən anlaşılandır. Bu ərazi uzun müddət müstəmləkə olub.

⇨Ardı səh.9

# "Məktəb bağları" layihəsi başa çatıb



IDEA İctimai Birliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və Təhsil Nazirliyinin birgə həyata keçirdiyi "Məktəb bağları" layihəsi başa çatıb.

Layihənin yekunu olaraq Təhsil Nazirliyinin tabeliyində olan Kimya-biologiya təmayüllü Respublika Liseyində və A.S.Makarenko adına Respublika Humanitar Fənlər təmayüllü Gimnaziyada ağac əkilib.

Qeyd edək ki, "Məktəb bağları" layihəsinə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının xoşməramlı səfiri Leyla Əliyevanın təşəbbüsü ilə start verilib. Layihənin ilk aksiyası zamanı Leyla Əliyevanın iştirakı ilə Bakı şəhəri 234 nömrəli tam orta məktəbdə şagirdlərlə birgə 100 ədəd badam, nar və gavalı ağacları əkilib.

"Məktəb bağları" layihəsi çərçivəsində respublikanın 54 rayon və şəhərinin 270 ümumtəhsil məktəbində pedaqoji kollektivin iştirakı ilə meyvə ağacları əkilib.

Layihə çərçivəsində hər bir rayonun iqliminə və torpaq örtüyünə uyğun olaraq 40-dan çox məktəbdə 5000-ə yaxın alma, armud, gilas, gavalı, qoz, fındıq, nar, xurma, badam, heyva kimi meyvə ağacları əkilib.

Layihənin həyata keçirilməsində məqsəd şagirdlər arasında ekoloji sağlam qidadan istifadəni təşviq etmək, həmçinin məktəblərin həyətyanı sahələrinin səmərəli istifadəsi və yaşıllaşdırılmasıdır.

Ekoloji təhsil və maarifləndirmə işlərini fəaliyyətində prioritet edən IDEA İctimai Birliyi gənc nəsli təbiətin mühafizəsi üzrə səylərə cəlb etmək, təhsil müəssisələrinin ekoloji vəziyyətinə və təhsil alanların ətraf mühitlə bağlı biliklərinin artırılmasına müsbət təsir göstərmək məqsədilə Təhsil Nazirliyi ilə birgə artıq bir sıra layihələr həyata keçirib.

Layihənin yekun tədbirində Təhsil Nazirliyinin "BİR" Tələbə Könüllüləri də fəal iştirak ediblər.

## Bu sayımızda


**Yüksək təhsil ekstremizmlə mübarizədə bir çox prosesin qarşısını ala bilər** ⇨səh.3

**Müəllimin psixologiyası...** ⇨səh.5

**Olimpiada ruhu məktəbə qayıdır** ⇨səh.7

**İngilisdilli tədrisin artması qaçılmazdır** ⇨səh.9

**Hidayət Heydərov: "İslam Həmrəyliyi oyunlarında qızıl medala sahib olacağam"** ⇨səh.14

## RƏSMİ XRONİKA



- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Bülbülün 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.
- Mayın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərində keçirilən IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında sərəncam imzalayıb.
- Mayın 11-də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün ən yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında sərəncam imzalayıb.
- Mayın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Pirallahı rayonunda yeni körpünün və Pirallahı qəsəbəsindəki Səməd Vurğun küçəsinin yenidənqurmadan sonra açılışlarında iştirak edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Nəriman Həsənzadəyə Heydər Əliyev Mükafatının verilməsi haqqında sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və Heydər Əliyev Fondunun fəaliyyətinin 13 illiyinə həsr olunan təntənəli mərasimdə iştirak edib.
- Prezident İlham Əliyev mayın 10-da ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə aksiyasında iştirak edib.
- Prezident İlham Əliyev mayın 10-da Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da İordaniya Haşimilər Krallığı parlamentinin Nümayəndələr Palatasının sədri Atef Yusif Saleh əl-Taravnehin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Azərbaycan Prezidenti İlham Əliyev mayın 10-da Koreya Respublikasının Prezidenti Mun Ce-inə prezident seçkilərində qazandığı qələbə münasibətilə təbrik məktubu göndərib.
- Mayın 9-da Prezident İlham Əliyev 9 May - Qələbə Günü münasibətilə Bakıda keçirilən mərasimdə iştirak edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 8-də BMT-nin Dünya Turizm Təşkilatının Baş katibi Talib Rifainin “Dostluq” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.
- Dövlət başçısı İlham Əliyev mayın 8-də Fransa Respublikasının yeni seçilmiş Prezidenti Emmanuel Makrona təbrik məktubu göndərib.
- Mayın 7-də Azərbaycan Prezidenti İlham Əliyev tanınmış kimyaçı alim, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, kimya elmləri doktoru, professor, əməkdar elm xadimi Rəfiqə Əliyeva ilə vida mərasimində iştirak edib.
- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Türkiyə Respublikasının mədəniyyət və turizm naziri Nabi Avcının başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

# “Azərbaycanda təhsil sahəsi ən prioritet istiqamətlərdən biridir”

## “Qızlara təhsil verməklə zorakı ekstremizmə qarşı mübarizə” mövzusu müzakirə edilib

Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə mayın 5-də “Qızlara təhsil verməklə zorakı ekstremizmə qarşı mübarizə” mövzusunda “dəyirmi masa” təşkil olunub.

“Dəyirmi masa”da çıxış edən Mehriban ƏLİYEVA dedi:

- Sizi Azərbaycanda salamlayıram, ölkəmizə, paytaxtımıza xoş gəlmisiniz. Böyük və vacib toplantıda iştirakınıza görə sizə dərin minnətdarlığımı bildirirəm. IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti haqqında bu gün çox sözlər söyləndi. Biz çox şadıq ki, bu Forum artıq hər dəfə daha da genişlənir. Forumda 100-dən çox ölkənin nümayəndəsi iştirak edir. Mövzu bütün dünya üçün çox vacibdir. Mən çox şadam ki, biz Forum çərçivəsində digər vacib görüşlər də keçiririk. Bu gün xanım İrina Bokovanın təşəbbüsü ilə biz qızlar üçün təhsil məsələsindən danışırıq. Əlbəttə, təhsil sisteminin inkişafı hər bir dövlət üçün, hər bir ölkənin gələcəyi üçün ən vacib məsələdir. Azərbaycanda müstəqillik bərpa olunandan sonra təhsil sahəsinə diqqət ən vacib, ən prioritet istiqamətlərdən biridir. Yəni, bu gün biz fəxr hissi ilə deyirik ki, ölkəmizdə savadlılıq 100 faizə yaxındır. Bizim bu sahədə böyük təcrübəmiz və tariximiz var. Eyni zamanda, biz dünyanın aparıcı ölkələrinin təcrübəsini öyrənirik və beynəlxalq təşkilatlarla bu sahədə fəal işləməyə hazırıq.



***

“Dəyirmi masa”da iştirak edən UNESCO-nun baş direktoru xanım İrina Bokova, Efiopiyanın birinci xanımı Roman Tesfaye, Malinin birinci xanımı Keita Aminata Maiqa, İordaniya şahzadəsi Dana Firas qızlara təhsil verilməsinin əhəmiyyətini qeyd edərək, mayın 6-da IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində bununla bağlı keçiriləcək sessiyada bu mövzu ətrafında fəal müzakirələrin aparılacağını bildirdilər.

Görüşdə qaçqın və məcburi köçkün ailələrindən olan qızların təhsilə cəlb edilməsi ilə bağlı Azərbaycanın müsbət təcrübəsi vurğulandı. “Dəyirmi masa” iştirakçıları bildirdilər ki, ölkəmizin bu sahədə təcrübəsi digər ölkələr üçün maraqlı ola bilər. Görüş zamanı xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlərdən söhbət açıldı, Fond tərəfindən Pakistanda qızlar üçün məktəbin yenidən qurulması yüksək dəyərləndirildi.

**AZƏRTAC**

# Məktəb rəhbərləri üçün təlim kursu

Təhsil İnstitutunun təşəbbüsü və YUNİSEF-in Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə Sinqapurun Milli Təhsil İnstitutu tərəfindən Təhsil İşçilərinin Peşəkar İnkisafi İnstitutunda “Məktəb idarəçiliyi proqramı” adlı təlim kursu keçirilir.

Təlim kursunun əsas məqsədi məktəb direktorlarına qabaqcıl təhsil sistemi və effektiv məktəb idarəetməsi haqqında məlumat vermək, onların liderlik potensialını inkişaf etdirməkdir.

Təlim kursu xüsusi dəvət olunmuş Sinqapurun Milli Təhsil İnstitutunun nümayəndəsi Cumaat Bin Masdavud tərəfindən keçirilir. Kurs çərçivəsində liderlik, vaxtın idarəolunması, ünsiyyət bacarıqlarının inkişafı və digər mövzularda interaktiv sessiyalar da təşkil olunur.

Təlim kursunda iştirak etmək məqsədilə 28 nəfər məktəb direktoru seçilib.

Qeyd edək ki, Sinqapurun Milli Təhsil İnstitutu məktəb rəhbərlərinin və müəllimlərin hazırlığı, ixtisasartırma fəaliyyətinin inkişafı ilə məşğul olan təhsil qurumudur. Təhsildə geniş tədqiqat fəaliyyəti həyata keçirən bu qurum Sinqapurun regional təhsil mərkəzinə çevrilməsində əhəmiyyətli rol oynayıb. Milli Təhsil İnstitutunun fəaliyyətinin əsas nailiyyətlərindən biri Sinqapurun 2015-ci ildə keçirilmiş PİSA (Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı) tədqiqatında dünya üzrə ilk pillədə qərarlaşmasıdır.

# “Uşaqlar gələcəyimizin sığortasıdır” adlı sosial layihəyə start verilib

Təhsil Nazirliyinin və Community.az portalının dəstəyi, AXA MBASK sığorta şirkətinin təşəbbüsü ilə “Məktəb icmaları” layihəsi çərçivəsində Gəncə, Quba, Lənkəran və Şəki şəhərlərində “Uşaqlar gələcəyimizin sığortasıdır” adlı sosial layihəyə növbəti dəfə start verilib.

Layihə çərçivəsində valideyn, şagird və müəllimlər üçün “Keçid dövründə yeniyetmə psixologiyası” adlı aktual mövzu üzrə təlimlərin keçirilməsi planlaşdırılır.

Cari ildə keçirilən təlimlərdə 1000-dən çox valideyn, şagird və müəllimin iştirakı nəzərdə tutulub. Ötən il isə layihə üzrə 46 seminar təşkil olunub.

Layihə və təlimlərin əsas məqsədi valideynlərin yeniyetmələrlə düzgün ünsiyyətinin qurulması, qarşılıqlı münasibətlərin tənzimlənməsi və keçid dövrünün problemlərinin aşkar edilərək həll yolunun müəyyən olunmasıdır.

Layihə çərçivəsində professional psixoloqlar tərəfindən 23 təlim keçiriləcək.

Qeyd edək ki, “Məktəb icmaları”nın əsas məqsədi şagirdlər, valideynlər və müəllimlər arasında ünsiyyətin qurulmasından, hər bir uşağın hərtərəfli inkişafı üçün şərait yaratmaqla tədrisin səmərəliyinin artırılmasından ibarətdir. Layihə çərçivəsində təlim və görüşlər zamanı aktual mövzular seçilib müzakirə olunur, peşəkarlar tərəfindən faydalı və vacib məsləhətlər verilir.

AXA MBASK sığorta üzrə dünya lideri AXA Qrupunun bir hissəsi olaraq, daima öz fəaliyyətini cəmiyyət qarşısında ictimai məsuliyyətinin bir hissəsi kimi vurğulayır. Şirkət belə layihələrin uşaq və gənclərin hərtərəfli dünyagörüşə malik vətəndaş kimi yetişdirilməsinə xidmət edəcəyinə ümid bəsləyir.

# Leyla Əliyeva sağlamlıq imkanları məhdud uşaqlar üçün məktəbdə olub

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva paytaxtın Nəsimi rayonundakı sağlamlıq imkanları məhdud uşaqlar üçün 11 saylı xüsusi məktəbin şagirdləri ilə görüşüb.

Bu məktəbdə təhsil alan sağlamlıq imkanları məhdud, daun və autizm sindromlu uşaqların şəraiti ilə tanış olan Leyla Əliyeva tədris prosesi ilə maraqlanıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti sinif otaqlarına baş çəkib və dərslərin gedişini izləyib. Məlumat verilib ki, hazırda məktəbdə 109 nəfər, ev şəraitində isə 749 nəfər fərdi təhsil alır.

Leyla Əliyeva uşaqların təhsil ilə yanaşı, yaradıcılığa maraq göstərməsini təqdirəlayiq hal kimi qiymətləndirib, onların istedad imkanlarının daha da genişləndirilməsini vacib sayıb, həmçinin təhsil ocağının şəraitinin yaxşılaşdırılmasının diqqətdə saxlanılmalı olduğunu bildirib.

Daha sonra Leyla Əliyeva Nəsimi rayonundakı sağlamlıq imkanları məhdud uşaqlar üçün 268 saylı xüsusi məktəbdə yaradılan şəraitlə tanış olub. Bildirilib ki, hazırda burada 160 uşaq təhsil alır. Bununla yanaşı, uşaqlara ev şəraitində fərdi dərslər də keçirilir.

Uşaqlar hazırladıqları bədii proqram və rəqs nömrələrini təqdim edib və Leyla Əliyeva ilə xatirə şəkli çəkdiriblər.

**AZƏRTAC**

# II İngilis dili Olimpiadası başa çatıb

“ADA” Universiteti, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Təhsildə İnnovativ Texnologiyalar Əlavə Təhsil Mərkəzi və “British Council” təşkilatının birgə əməkdaşlığı çərçivəsində həyata keçirilən II İngilis dili Olimpiadasının nəticələri məlum olub.

Mayın 8-də “ADA” Universitetində mükafatlandırma mərasimi keçirilib.

Bakı şəhəri üzrə ümumi təhsil məktəblərində təhsil alan 1132 şagirdin iştirak etdiyi olimpiadanın final turunda 108 şagird mübarizə aparıb. Olimpiada zamanı şagirdlərin ingilis dilinin qrammatikası üzrə bilikləri və mətni oxuyub anlama, dinləmə və esse yazma qabiliyyətləri yoxlanılıb.

Olimpiadanın qalibi olmuş paytaxtdakı 212 nömrəli tam orta məktəbin şagirdi Fikrət Əmirbəyli Böyük Britaniyada yay kursunda ödənişsiz iştirak haqqı qazanıb.

Qeyd edək ki, olimpiadanın keçirilməsində əsas məqsəd şagirdlərdə xarici dilin öyrənilməsinə marağı artırmaq, şagirdlərin müvafiq bilik və bacarıqlarını sınaqdan keçirmək, istedadlı şagirdləri aşkar etmək və onların əldə etdikləri xarici dil biliklərini möhkəmləndirməkdən ibarətdir.

# SDU-da magistrantların XVII Respublika elmi konfransı keçirilib

Mayın 11-də Sumqayıt Dövlət Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş magistrantların XVII Respublika elmi konfransı keçirilib. Konfransda respublikamızın qabaqcıl ali təhsil müəssisələrinin rektorları, prorektorlar, struktur rəhbərləri və professor-müəllim heyəti iştirak ediblər.

Əvvəlcə konfrans iştirakçıları universitetin foyesindəki ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək ona dərin ehtiramlarını bildiriblər.

Konfransa sədrlik edən SDU-nun rektoru, professor Elxan Hüseynov ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş, hər il ənənəvi olaraq Təhsil Nazirliyinin xətti ilə keçirilən magistrantların respublika elmi konfransının xüsusi əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb. Bildirilib ki, ulu öndər ölkənin və xalqın taleyində, hərtərəfli tərəqqisində, uğurlar qazanmasında təhsilin xüsusi rolunu, əhəmiyyətini həmişə nəzərə almış, yüksək dəyərləndirmişdir. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin yeganə yolu məhz xalqın yüksək təhsil almasında, maariflənməsindədir. Heydər Əliyevin rəhbərliyi dövrü Azərbaycan tarixinə elmin və təhsilin tərəqqi dövrü kimi daxil olub. Dahi şəxsiyyətin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycanın milli sərvəti olan elmi potensialın qorunması, inkişaf etdirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi “Azərbaycan - 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında intellektual inkişaf modelinə əsaslanan biliklər cəmiyyətinin formalaşdırılması əsas strateji inkişaf xətti kimi qəbul edilmişdir. Bu baxımdan respublikamızın ali təhsil müəssisələrinin üzərinə böyük vəzifələr düşür. Belə konfransların keçirilməsində də əsas məqsəd gəncləri elmi tədqiqat işlərinə cəlb etməklə yanaşı gələcək mütəxəssislərin hazırlıq səviyyəsini yüksəltməkdir. Rektor onu da vurğulayıb ki, konfransda iştirak edənlərin sayı ildən-ilə artır. Əgər 2014-cü ildə XIV Respublika elmi konfransında 15 ali məktəbdən 770 nəfərdən çox magistrant iştirak etmişdirsə, bu il keçirilən konfransa 16 ali məktəbdən 1400-ə yaxın məruzə materialları daxil olub. Konfransın gedişinə uğurlar arzulayan rektor onu da qeyd edib ki, belə konfranslar həmçinin magistrantların bir-birlərini yaxından tanımasında, ünsiyyət qurmasında bir körpü rolunu oynayır.

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işlər üzrə prorektoru, professor Asəf Zamanov, SDU-nun doktorantura və magistratura şöbəsinin müdiri, dosent Sabir Xəlilov çıxış edərək konfransın əhəmiyyətindən söz açıblar. Gənc tədqiqatçıların elmi fəaliyyətinin stimullaşdırılmasına böyük təkan olduğunu və onların elmə, elmi tədqiqat işlərinə marağını daha da artırdığını qeyd ediblər.

Konfransda magistrantlardan Azərbaycan Dövlət İqtisad Universitetindən Səidə Mirzəli, Azərbaycan Dövlət Pedaqoji Universitetindən Mircəlal Əbdülov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetindən Elşad Şahnəzərov, Bakı Slavyan Universitetindən Rüfət Həşimov, Sumqayıt Dövlət Universitetindən Vüsalə Vahabova hazırladıqları mövzular və təmsil etdikləri ali təhsil ocaqlarının elmi fəaliyyəti ilə bağlı məruzələrlə çıxış ediblər, gənclər üçün yaradılmış şəraitə görə SDU rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Öz işini on doqquz bölmə üzrə iki gün ərzində davam etdirəcək konfransın sonunda maraqlı mövzularla çıxış edən və fəallıq nümayiş etdirən magistrantlar Sumqayıt Dövlət Universitetinin diplom və hədiyyələri ilə təltif olunacaqlar.

# Yüksək təhsil ekstremizmlə mübarizədə bir çox prosesin qarşısını ala bilər

Mayın 6-da IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Qızlara təhsil verməklə zorakı ekstremizmə qarşı mübarizə” mövzusunda yüksək səviyyəli görüş keçirilib.

UNESCO-nun gender bərabərliyi sektorunun direktoru Saniye Gülser Coratın moderatorluğu ilə keçirilən görüşdə dünyada baş verən zorakı ekstremizmə qarşı mübarizədə qızların təhsilinin rolu müzakirə edilib.

Saniye Corat Azərbaycan hökumətinə və tədbirin təşkilatçılarına dəvətə görə minnətdarlığını bildirib.

UNESCO-nun baş direktoru İrina Bokova Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident xanım Mehriban Əliyevaya Forumun yüksək səviyyədə təşkilinə və xüsusi qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Təhsilin cəmiyyətdəki mühüm rolundan danışan İ.Bokova bildirib ki, qızların təhsil almaları və cəmiyyətdəki fəaliyyətləri gender bərabərliyinin əsas məqsədlərindəndir. Dünyanın bir çox ölkəsində qadınlar və qızlar zorakı ekstremizmin qurbanı olurlar. Hüquqları pozulan qadınlar cinsi istismara məruz qalır, təhsildən uzaq düşürlər. Biz ekstremizmə qarşı mübarizədə bütün səylərimizi birləşdirməli, bu bəlanın aradan qaldırılması üçün birgə mübarizə aparmalıyıq. Cəmiyyətlərin inkişafında qadınların və təhsilin rolunu xüsusi vurğulayan baş direktor bəzi müsəlman ölkələrində qızların təhsilə cəlb olunmasında birgə addımların atılmasının vacibliyini vurğulayaraq deyib: “Bu bizim qlobal şəkildə mübarizəmizin əsas tərkib hissəsidir. Təhsil ekstremizmlə mübarizədə bir çox prosesin qarşısını ala bilər”.

Azərbaycanın təhsil naziri Mikayıl Cabbarov ölkəmizdə təhsil sahəsində görülən işlər və həyata keçirilən islahatlardan danışıb. Azərbaycanda qadınların və qızların cəmiyyətdəki rolundan danışan təhsil naziri müsəlman Şərqində ilk dəfə olaraq qızlar məktəbinin məhz Bakıda açıldığını və ilk dəfə olaraq səsvermə hüququnun da azərbaycanlı xanımlara verildiyini qeyd edib.

Təhsil naziri deyib: “Ölkəmizin ali məktəblərində təhsil alanların 50 faizini qızlar təşkil edir, orta və ali təhsil müəssisələrində çalışan müəllimlərin 70 faizdən çoxu qadınlardır. Bir sıra ali məktəblərimizdə gender sahəsində tədqiqatlar aparılır. Respublikamızda qaçqın, köçkün və dünyadakı çoxsaylı miqrasiyalara baxmayaraq, ölkəmizdə bir çox sahədə olduğu kimi, təhsildə də təqdirəlayiq nəticələr əldə olunub”.

Təhsilin qızların həyatındakı vacib rolundan danışan Efiopiyanın birinci xanımı Roman Tesfaye cəmiyyətdə qadınların hüquqlarının qorunmasının vacibliyini qeyd edib. Bildirilib ki, təhsil vasitəsilə cəmiyyətə inteqrasiya olunan qadınlar bir çox qlobal problemin həllində xüsusi yer tuturlar. Təhsil onların yoxsulluqdan azad olunmasında, həmçinin maliyyə sahəsində bir sıra məsələlərin həllində də böyük rol oynayır. Erkən nikahlar, müxtəlif dini və ekstremizm qruplarının tərəfindən zorakılıqlar qızların təhsil almasına mane olur. Biz bu cür xoşagəlməz halların qarşısının alınmasında birgə mübarizə aparmalıyıq. Efiopiya hökuməti bu sahədə bir sıra uğurlar əldə edib. Uşaqların və qızların məktəbə cəlb olunmasında maarifləndirmə tədbirləri davam edir.

Foruma dəvətə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya öz minnətdarlığını bildirən Malinin birinci xanımı Keita Aminata Maiga görüşün yüksək səviyyədə təşkil olunduğunu qeyd edib. O, terrorizm və zorakı ekstremizmə qarşı mübarizədə qadınlara dəstək göstərilməsinin vacibliyini qeyd edib. Qadın və qızların cəmiyyətin inkişafında mühüm rolunu vurğulayan Malinin birinci xanımı ölkəsində bu sahədə aparılan islahatlar barədə məlumat verib. Qeyd edib ki, Malidə qızların təhsilə cəlb olunması ölkə siyasətinin əsas istiqamətlərindən biridir. Çox vaxt zorakı ekstremizmin qurbanına çevrilən qızlar hətta ibtidai təhsil ala bilmirlər. Qızlardan müxtəlif terrorçu qruplaşmalar tərəfindən sui-istifadə edilməsi cəmiyyətin əsas problemlərindən biridir. K.Maiga qeyd edib ki, yoxsul ailələrdən olan qız uşaqlarının təhsilinə ayrılan sərmayə ekstremizmlə mübarizədə ən öndə gedən məsələlərdəndir.



Ruandanın birinci xanımı Janet Kagame bir çox ölkələrdə qadınlara qarşı törədilən zorakılıq hallarından danışıb, bunun qızların təhsil almasına əks təsirini vurğulayıb. O deyib: “Biz dünyada, xüsusilə müsəlman ölkələrində qadın və uşaqların hüquqlarının pozulmasının şahidi oluruq. Onlara qarşı törədilən cinayətlərlə mübarizədə birləşməli, bu istiqamətdə birgə tədbirlər həyat keçirməliyik”. Ölkəsinin tarixi barədə məlumat verən birinci xanım bildirib ki, qızların təhsilə cəlb olunması gender bərabərliyinin təminatıdır.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova müzakirə olunan mövzunun vacibliyini qeyd edib. Bildirilib ki, radikalizm, zorakılıq, ksenofobiya, ayrı-seçkilik bəşəriyyətin ən böyük bəlasıdır və bunlar insanlığa ciddi ziyan vurur. Zorakı ekstremizmdən daha çox qadınlar və uşaqlar, xüsusilə qızlar əziyyət çəkirlər. Hər il milyonlarla uşaq məcburi əməyə cəlb edilir, qızlar cinsi istismara məruz qalır və insan alverinin qurbanına çevrilirlər. Elə ölkələr vardır ki, orada qızlara, qadınlara qarşı fərqli yanaşmalar, ayrı-seçkilik mövcuddur. Qızların təhsil almasına, qadınların işləməsinə, onların sahibkarlıqla məşğul olmasına bir çox maneə olur. Bunlar əsasən yoxsulluq, erkən nikahlar, gender əsaslı zorakılıq, cəmiyyətdə qadınların, qızların statusu ilə bağlı yanlış təsəvvürlərdir. Hər bir ölkə uşaqları qorumağı və onları müdafiə etməyi özünün əsas vəzifəsi hesab edir. Bu müdafiənin daha möhkəm olması üçün müxtəlif beynəlxalq təşkilatlar yaradılır, qlobal səviyyəli sənədlər qəbul olunur.

Komitə sədri bildirib ki, Azərbaycanda uşaqların hərtərəfli inkişafı, onların keyfiyyətli təhsil alması, sağlam və savadlı mühitdə böyüməsi, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması və hüquqlarının qorunması sahəsində mühüm işlər görülüb. Milli strategiya kimi formalaşan dövlət uşaq siyasəti Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən daha da gücləndirilib. Ölkəmizdə təhsilin inkişafında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın xidmətlərini xüsusi qeyd edən komitə sədri bu sahədə Heydər Əliyev Fondu tərəfindən görülən işlərdən, həyata keçirilən layihələrdən söz açıb. Qeyd edilib ki, uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası, bir sıra qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Uşaq hüquqlarının müdafiəsi, həmçinin konkret tədbirlərin həyata keçirilməsi ilə də reallaşdırılır. Bu layihələr qaçqın və məcburi köçkün, valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün xidmətlərin təminatına, böyüməkdə olan nəslin sağlamlığına, təhsilin inkişafına, hüquqlarının müdafiəsinə yönəlib.

Bildirilib ki, hazırda bəşəriyyəti düşündürən məsələ isə davamlı inkişaf və sülhə, əmin-amanlığa, rifaha mane olan problemlərin, məhdudiyyətlərin aradan qaldırılması və bu istiqamətdə mexanizmlərin tapılmasıdır. Təhsil radikalizmə, ortodoksal baxışlara, terrorizmə qarşı ən yaxşı vasitədir. Elm və mədəniyyət bütün problemlərin həllində böyük əhəmiyyətə malikdir.

Yüksək səviyyəli görüşün iştirakçıları birgə qlobal humanitar çağırış qəbul ediblər. Çağırış tədbirdə oxunub.

**AZƏRTAC**

## Məntiqi təfəkkürü qiymətləndirən olimpiada



Mayın 6-da Lütfi Zadə adına Məktəblərarası II Məntiq Olimpiadasının final mərhələsi keçirilib.

Finalda olimpiadanın məktəbdaxili mərhələsinin nəticələrinə əsasən, ümumi təhsil məktəblərinin hər iki (Azərbaycan və rus) bölməsinin V-VI sinifləri üzrə uğur qazanan 2041 şagird iştirak edib.

İlk turda olduğu kimi, final mərhələsində də şagirdlərə 30 test sualı təqdim olunub.

Final mərhələsinin nəticələrinə əsasən Bakı şəhəri üzrə ən yüksək məntiqi təfəkkür nümayiş etdirən məktəblilər mükafatlandırılacaq.

Qeyd edək ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsi və “İstək” liseyinin birgə təşkilatçılığı ilə keçirilən olimpiada zamanı şagirdlərə xas olan bədii, mücərrəd və verbal məntiqi təfəkkür növləri qiymətləndirilir.

Olimpiadanın əsas məqsədi şagirdlərin məntiqi biliklərinin artmasına təkan vermək, onlara beynəlxalq, yerli olimpiadalar və bu kimi digər bilik yarışlarında iştirak təcrübəsi qazandırmaq, istedadlı, xüsusilə məntiqi təfəkkürü daha yaxşı inkişaf etmiş şagirdləri aşkara çıxarmaq, onların həvəsləndirilməsi və elmə olan marağının artırılmasından ibarətdir.

## AzTU-da distant təhsil üzrə texnoloji platforma hazırlanır

Azərbaycan Texniki Universitetində (AzTU) Erasmus+ layihəsi üzrə İtaliyanın Uninetuno Telematuka Universiteti ilə layihənin Azərbaycandan olan tərəfdaş universitetləri arasında skayp konfrans keçirilib.

Erasmus+ layihəsinin Azərbaycandan olan tərəfdaş universitetləri-Azərbaycan Texniki Universiteti (Erasmus+ layihəsinin regional koordinatoru), Azərbaycan Memarlıq və İnşaat Universiteti, Turizm və Menecment Universitetinin hər birindən 2 tyutor və 2 texniki işçinin qatıldığı skayp konfransda görülən işlər müzakirə olunub.

Konfransda layihənin regional koordinatoru, professor Həsən Hüseynov bildirib ki, Azərbaycanda distant təhsillə bağlı artıq xeyli məsələ həll olunmaq üzrədi. Qeyd olunub ki, Uninetuno Telematuka Universiteti ilə Texniki Universitet arasında AzTU-nun nəzdində Distant Təhsil Mərkəzinin yaradılması ilə bağlı memorandum imzalanıb. Bundan əlavə, layihənin Azərbaycandakı tərəfdaş universitetlərindən olan tyutor və texniki işçilərindən ibarət qrupun Uninetuno Telematuka Universitetinə bu ilin iyul ayında təcrübəyə göndərilməsi də nəzərdə tutulub.

## Təhsil naziri Şamaxıda vətəndaşları qəbul edib

Mayın 8-də təhsil naziri Mikayıl Cabbarov Şamaxı şəhərindəki Heydər Əliyev Mərkəzində Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayon sakinlərini qəbul edib.

Qəbuldan əvvəl təhsil naziri Mikayıl Cabbarov və Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev Heydər Əliyev Mərkəzində ümummilli liderin büstünün önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2017-ci ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Qəbulda vətəndaşlar əsasən, müəllimlərin işə qəbulu və ya iş yerinin bir məktəbdən, həmçinin bir rayondan digərinə dəyişdirilməsi, gənc müəllimlər üçün həvəsləndirmə tədbirlərinin tətbiqi, diaqnostik qiymətləndirmədə iştirak və digər məsələlərlə əlaqədar müraciət ediblər.

Qəbulda bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib, əksər məsələlər isə yerindəcə həllini tapıb.

## Ufa Dövlət Neft Texniki Universitetinin rektoru ADNSU-da olub

Mayın 10-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Ufa Dövlət Neft Texniki Universitetinin (UDNTU) rektoru Ramil Baxtizinlə görüş keçirilib. Görüşdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı, universitetin professor-müəllim heyəti və tələbələr iştirak edib.

Qonağı universitetdə görməkdən məmnun olduğunu bildirən ADNSU-nun rektoru, professor M.Babanlı bir vaxtlar aspirant kimi elmi fəaliyyətlə məşğul olduğu universitet üçün R.Baxtizinin hər zaman fəxri qonaq hesab olunduğunu qeyd edib. Rektor deyib: “Burada ali təhsil aldığınız və elmi fəaliyyətlə məşğul olduğunuz üçün ADNSU sizə doğmadır. Bizim ali təhsildə əməkdaşlığımız da qürurvericidir. Əminəm ki, bundan sonra da universitetlərimiz arasındakı tərəfdaşlıq yüksələn xətlə inkişaf edəcək və əlaqələrimiz daha da genişlənəcək”.

Ufa Dövlət Neft Texniki Universitetinin rektoru R.Baxtizin 30 ildən çox müddət keçməsinə baxmayaraq yenidən doğma ali təhsil ocağında eyni hissləri yaşadığını bildirib. Bakının və ADNSU-nun onun həyatında olduqca mühüm rolu olduğunu qeyd edən rektor Azərbaycanın həm də onun ikinci vətəni olduğunu diqqətə çatdırıb.

Azərbaycanın görkəmli alimi, texniki elmlər doktoru Azad Mirzəcanzadənin UDNTU-da fəaliyyəti haqqında danışan rektor R.Baxtizin onunla bağlı xatirələrini bölüşüb, akademikin bu ali təhsil müəssisəsindəki professor yoldaşları ilə çəkilmiş fotoları nümayiş olunub.

Daha sonra UDNTU-nun fəaliyyəti barədə məlumat verən rektor ötən semestr təhsillərini Ufada davam etdirən tələbələrin imtahanlarda göstərdikləri yüksək nəticələrdən danışıb, iki ali təhsil müəssisəsi arasında tələbə mübadiləsi sahəsindəki əməkdaşlığa yüksək önəm verildiyini qeyd edib.

Tədbirin sonunda qonağa universitet adından xatirə hədiyyəsi təqdim edilib.

# İslamiadanın könüllüləri

## Onlar peşəkarlıqları ilə IV İslam Həmrəyliyi Oyunlarında da uğura imza atmağa hazırdırlar



⇦ Əvvəli səh.1

**Yusif ƏLİYEV**

Könüllülüyün məqsədi tapşırıqları yerinə yetirmək, maliyyə dəstəyi olmadan fərdlərə və ictimai təşkilatlara xidmət göstərmək, insanların rifahını yaxşılaşdırmaq üçün fədakarcasına çalışmaqdır. Könüllü olmaq, ümumiyyətlə, xoş niyyətdən irəli gəlir. İnsanlar bu işləri öz asudə vaxtlarının hesabına təmənnasız olaraq kiməsə kömək etmək, ümumi işə töhfə vermək üçün görürlər. Bu mənada könüllülük fəaliyyəti gözəl bir niyyətin təzahürüdür.

Könüllülük həm də bacarıqların inkişafı, sosiallaşma və əyləncə növüdür. Könüllülər öz maraqları, şəxsi bacarıq və qabiliyyətləri vasitəsilə ayrı-ayrı fərdlərə, qurumlara, bütövlükdə isə cəmiyyətə xidmət göstərir, bunun müqabilində isə maddi və mənəvi qazanc ummurlar. Onların qazancı özlərinə dəyər və hörmət qazanmaqdır.

Könüllülük eyni zamanda yaxşı təcrübə imkanıdır. Könüllülər fəaliyyət müddəti ərzində intizamlılıq, xoşrəftarlılıq, operativlik, kollektivdə işləmək bacarığı, təşkilatçılıq, təşəbbüskarlıq kimi keyfiyyətlərə yiyələnirlər ki, bunun da həyat və karyeralarında onlara böyük köməyi olur.

Qeyd edək ki, son illər ölkəmizdə könüllülük hərəkatı getdikcə güclənir. Hazırda gənclərin fəaliyyətində könüllülük xüsusi yer tutur və onlar arasında bu işə maraq getdikcə artır. Könüllülər hərəkatının genişlənməsini cəmiyyət üçün çox lazımlı hesab edən Prezident İlham Əliyev gənclərin bu hərəkatda iştirakını yüksək dəyərləndirir: "Şadam ki, Azərbaycanda könüllülər sinfi formalaşıb və onların mütləq əksəriyyəti gənclərdir. Yəni, gənc nəsil bu ab-havada yetişir ki, ümumi işimizə töhfə versin, dövlətimizi möhkəmləndirsin və köməyə ehtiyacı olan insanlara yardım göstərsin".

### Ölkəmizdə könüllülər sinfi formalaşıb

Xalqımıza məxsus milli-mənəvi sərvətlərdən olan bu xeyirxahlıq nümunəsi "Bakı-2015" I Avropa Oyunları dövründə könüllülərin fəaliyyətində özünü daha qabarıq formada göstərdi. Məhz bu mötəbər yarışlarda qazanılan təcrübə nəticəsində könüllülük hərəkatı ölkəmizdə institusional səviyyəyə yüksəlib, Prezident İlham Əliyevin dediyi kimi, könüllülər sinfi formalaşıb. Eyni zamanda, son bir neçə il ərzində könüllülük fəaliyyətinin mexanizmləri də təkmilləşib. İndi artıq nəinki Bakıda, regionlarda da könüllülərin əməyindən geniş istifadə edilir. Bu prosesdə sözsüz ki, Təhsil Nazirliyinin "SABAH" qruplarının, "Bir" Tələbə Könüllü Proqramının, "ASAN xidmət" mərkəzləri və onların nəzdindəki "ASAN könüllülər" təşkilatının xüsusi rolu var.

Azərbaycanın könüllülər ordusu IV İslam Həmrəyliyi Oyunlarına da yüksək hazırlıqla gəlib. IV İslam Həmrəyliyi Oyunları nəzdində fəaliyyət göstərən "Bakı-2017" Könüllülük Proqramında qeydiyyatdan keçən namizədlər üçün Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının könüllülər mərkəzində müsahibələr təşkil olunub. Müsahibədən keçənlər IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin dəstəyi ilə müxtəlif təlimlərə cəlb edilib və şəxsi bacarıqlarını artırıblar. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri xanım Mehriban Əliyeva könüllülərin bu dəfə də öz işlərinin öhdəsindən layiqincə gələcəklərinə əmindir. Mehriban Əliyeva aprelin 21-də keçirilən IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin yekun iclası zamanı bildirib: "Oyunların uğurla keçirilməsində könüllülərin rolu xüsusi yer tutur. Hamımız yaxşı xatırlayırıq ki, I Avropa Oyunları zamanı bizim gənclər çox gözəl, çox bacarıqlı, peşəkar iş nümayiş etdirdilər. Oyunlar zamanı onların xidməti bir çox qurumlar - həm beynəlxalq, həm də yerli qurumlar tərəfindən xüsusi vurğulandı. İslam Həmrəyliyi Oyunlarının keçirilməsində 8 mindən çox könüllü iştirak edir və əminəm ki, bu dəfə də gənclərimiz öz vətənpərvərliyini, peşəkarlığını, qonaqpərvərliyini, bacarıq və zəkalarını nümayiş etdirəcəklər".

### "Biz həm tarix yazdıq, həm də tarixə yazıldıq"

Bu günlərdə bir neçə könüllü ilə söhbətləşmək imkanımız oldu. Onlar indiyədək iştirak etdikləri bütün təlimlərin çox maraqlı və məlumat yüklü olduğunu deyirlər.

İlk dəfə 2015-ci ildə I Avropa Oyunları zamanı könüllü olan Humay Hüseynova bildirir ki, ilk gün hamı üçün gərgin olub: "Çünki tanımadığımız məkanda, tanımadığımız insanlarla bir yerdə idik. Amma əksəriyyət gənclər olduğu üçün çox asan şəkildə bir-birimizlə dil tapdıq. Düzünü deyim ki, ilk gündən axırıncı günədək fəaliyyətimiz çox həyəcanlı və maraqlı oldu. Ona görə də sonralar həm "Formula-1"-ə, həm 42-ci Şahmat Olimpiadasına, həm də "Bakı-2017"-yə qatıldım. Bundan sonra da həm Azərbaycanda, həm də xaricdə keçiriləcək beynəlxalq tədbirlərdə könüllü kimi iştirak etmək istərdim".

Vüqar Abdullayev Avropa Oyunlarına qoşulanda əsas məqsədinin dost və təcrübə qazanmaq olduğunu vurğulayır. Sonradan hiss edib ki, bu fəaliyyət onun karyerasında da dəyişiklik edə bilər: "Belə ki, ilk Avropa Oyunları zamanı adi bir könüllü idim. Amma sonradan məni "mobilitel" seçdilər. Çünki sürücülük vəsiqəm vardı. Mən əsasən fiziki cəhətdən sağlam olmayan insanlara kömək edirdim. Bu, tamamilə fərqli bir hiss idi. Nə qədər xoş hiss keçirirdimsə, gün ərzində iki növbədə işləyirdim. Biz orada bir ailə kimi idik. Bütün könüllülər bir-biri ilə tanış olmuşdu". V.Abdullayev IV İslam Həmrəyliyi Oyunlarında da daha çox dost qazanacağına, təcrübə əldə edəcəyinə inanır.

"Müxtəlif situasiyalarda insanlarla necə davranmağı, ünsiyyət zamanı fərqli dindən, dünyagörüşdən olan adamları tanımağı öyrəndim. Gələcək karyeram üçün çox yaxşı təcrübə topladım, dil bilgimi artırdım və ən nəhayət, gənc olduğumu hiss etdim". Bu fikirlər isə həm "Bakı-2015" I Avropa Oyunları, həm "Formula-1" yarışları, həm də 42-ci Şahmat Olimpiadası zamanı könüllü kimi fəaliyyət göstərən Naidə Pirverdiyevaya məxsusdur. O, Azərbaycan Dillər Universitetinin "SABAH" qruplarında 3-cü kurs tələbəsidir. Yenidən həmin hissləri yaşamaq, əlavə təcrübə qazanmaq üçün IV İslam Həmrəyliyi Oyunlarında da könüllü kimi çalışacaq.

### Təcrübə, yeni dostlar və özünəinam

Könüllülərin hamısı bu fikirdədir ki, könüllülük həm qürurverici, həm də məsuliyyətli bir işdir. Könüllülərin hər biri IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçməsi üçün işini maksimum dərəcədə yaxşı görməyə köklənib. Bunun üçün gənclərimiz üzərlərindəki məsuliyyəti dərk edirlər. Həmçinin könüllülük fəaliyyəti gənclərə ilk olaraq təcrübə, yeni dostlar, özünəinam qazandırır. Könüllü olmuş gənc özünə şərait yaradıldığı təqdirdə nələrə qadir ola biləcəyini öyrənir və bu onun gələcək həyatı üçün stimul rolunu oynayır.

### Yeri gəlmişkən

Bakıda keçirilmiş I Avropa Oyunlarında 15 min, "Formula 1" Avropa Qran Prisinin təşkilinə 42 ali təhsil müəssisəsi və 28 kolleci təmsil edən 3500-dən artıq tələbə-könüllü cəlb olunub.

Təhsil Nazirliyinin təşəbbüsü ilə tələbələrin könüllü fəaliyyətinin stimullaşdırılması məqsədilə "BİR" Tələbə-Könüllü Proqramı yaradılıb. Tələbələrin asudə vaxtının səmərəli təşkilini, müxtəlif tədbir və təlimlərdə iştirakını təmin edən, yardıma ehtiyac duyan şəxslərə köməklik göstərilməsində fəal olan bu Proqram 6 müxtəlif istiqamətdə (Öyrən, Öyrət, Yaşa, Yaşat, Kəşf Et, Zövq Al) fəaliyyət göstərir. "BİR" Tələbə-Könüllü Proqramı Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şəki və Lənkəran şəhərlərində fəaliyyət göstərən 18 ali təhsil müəssisəsini əhatə etməklə, tələbə-könüllülərlə işin sistemləşdirilməsi və tələbə-könüllülərin dövlət əhəmiyyətli tədbirlərdə iştirakını təmin etmək məqsədi ilə fəaliyyət göstərən uzunmüddətli proqramdır. İndiyə qədər tələbə könüllüləri vahid məlumat bazasında birləşdirən proqram onların fəaliyyətinin yönəldilməsinə kömək edir. Hazırda proqram 7 mindən ibarət baza formalaşdırıb.

# "Şahin" hərbi-idman oyununun Respublika final yarışı keçirilib



**Rəşad ZİYADOV**

Mayın 10-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Şahin" hərbi-idman oyununun Respublika finalı keçirilib. Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Dövlət himni səsləndirildikdən sonra Müdafiə Nazirliyi tərəfindən hazırlanan ümummilli lider Heydər Əliyevin ordu quruculuğunda gördüyü işlər, həyata keçirdiyi layihələrdən bəhs edən xüsusi sənədli film nümayiş olunub.

Tədbirdə iştirak edən təhsil nazirinin müavini Firudin Qurbanov, gənclər və idman nazirinin müavini İntiqam Babayev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, general-mayor Novruzəli Orucov, Cəmşid Naxçıvanski adına hərbi liseyin rəis əvəzi, polkovnik Elman Namazov ümummilli liderin Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasında və milli dövlətçiliyin formalaşdırılması sahəsində xidmətlərindən danışıblar. Natiqlər ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və inkişaf yoluna qədəm qoyan Azərbaycan Silahlı Qüvvələrindən, hərbçi kadrların yetişdirilməsi işinə xüsusi əhəmiyyət verməsindən və bu missiyanın Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilməsindən söz açıblar. Onlar gənclərin vətənpərvər, xalqa və dövlətə sədaqət ruhunda tərbiyə olunmasında, hərbi xidmətə hazırlanmasında "Şahin" hərbi-idman oyunlarının keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Respublika Veteranlar Şurasının birgə qərarı ilə keçirilən yarışda ümumtəhsil məktəblərinin VIII və X sinif şagirdləri mübarizə aparıblar.

"Şahin" hərbi-idman oyununun Respublika final yarışında 18 komanda bir neçə mərhələdə qüvvələrini sınayıb. Qeyd edək ki, komandaların hər biri 14 nəfərdən ibarətdir. Yarışda komandalar təntənəli marşla mahnı sədaları altında tribuna önündən keçib və onların sıra hazırlığının səviyyəsi yoxlanılıb, müxtəlif sədlərdən keçərək maneələri dəf etməklə öz fərdi bacarıqlarını nümayiş etdiriblər.

Oyunların keçirilməsində əsas məqsəd yeniyetmə və gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsi işinin gücləndirilməsi, məktəblilərin hərbi xidmətə hazırlıq səviyyəsinin yüksəldilməsi, onların ordu sıralarında xidmətə hazırlanmasıdır. Qeyd edək ki, yarışlara mart ayında start verilib. Zonaların hər birindən I və II yerləri tutmuş komandalar respublika final yarışında iştirak etmək hüququ qazanıblar.

Əsasnaməyə uyğun olaraq Cəmşid Naxçıvanski adına hərbi liseyin zabitlərindən ibarət hakimlər heyətinin qərarı ilə Bakının Nizami rayonu I yerə layiq görülüb. Kürdəmir rayonunun komandası II, Zərdab rayonunun komandası isə III yerə çıxıblar. Qaliblər və komandanın tərkibində fərqlənənlər təşkilatçılar tərəfindən mükafatlandırılıb.

# NDU-nun müəllimləri Türkiyə Universitetində mühazirə oxuyublar

Erasmus+ Beynəlxalq mobillik layihəsi çərçivəsində Naxçıvan Dövlət Universitetinin 10 nəfərlik müəllim və işçi heyəti Türkiyə Cümhuriyyətinin Çankırı şəhərində yerləşən Çankırı Karatekin Universitetində olub. Səfərin ilk günü qonaqlar Çankırı şəhərinin tarixi-mədəni abidələri, gəzməli-görməli yerləri və Çankırı Karatekin Universiteti ilə tanış olublar. Növbəti gün dərs və treninqlərə start verilib. Qeyd edək ki, dərslər və treninqlər elmin müxtəlif sahələrini əhatə edib. Naxçıvan Dövlət Universitetinin tədris şöbəsinin müdiri, dosent Rafiq Rəhimovun və dosent Elçin Zamanovun dərsləri böyük maraqla qarşılanıb. Elçin Zamanov XX əsrin əvvəllərində Türkiyə -Azərbaycan cumhuriyyəti tarixi və hər iki dövlətin ortaq tarixi dövrlərindən bəhs edən mühazirələr oxuyub.

İncəsənət fakültəsinin tədris işləri üzrə dekan müavini Mobil Hacıyev Azərbaycan bəstəkarlıq məktəbinin yaranması və inkişafı tarixi, Azərbaycan muğamları, xalq mahnıları və rəqsləri mövzularında mühazirələr deyib, musiqilər ifa edib.

İqtisad fakültəsinin tədris işləri üzrə dekan müavini, dosent Əşrəf Ələkbərovun iqtisadiyyat və onun cəmiyyət həyatındakı rolu, bazar və bazar infrastrukturu, sovet dönəmində Azərbaycan iqtisadiyyatı, müstəqillikdən sonra Azərbaycan iqtisadiyyatı, təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı, dosent Şəmil Mahmudovun kimyəvi rabitə və onun növləri, kvant ədədləri və onun növləri, Sexiometrik qanunlar, elektronların kvant xanalarının doldurulması qaydası mövzularında mühazirələri dinlənilib.

İngilis dili və metodika kafedrasının müəllimi Cavid Babayev sayıla bilən və sayıla bilməyən isimlər, sifət və onun dərəcələri mövzularında dərslər keçib.

Treninqlərdə həmçinin bədən tərbiyəsi və idman kafedrasının müəllimi Nicat Allahverdiyevin idman zallarının yarışlara hazırlanması, yarışların təşkili, Universitet Televiziyasının əməkdaşı Aqşin Məhərrəmovun videoçəkiliş və montaj mövzularında dərsləri dinlənilib. NDU-nun müəllimləri Şahin Əliyev və Anar Tarverdiyev Çankırı Karatekin Universitetinin tələbələrlə iş üzrə şöbəsində olaraq tələbə qəbulu qaydaları, qeydiyyat və sənədləşmə prosesi haqqında məlumat toplayıblar.

Layihə çərçivəsində keçirilən görüşlərdə Naxçıvan Dövlət Universitetinin, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Düşənbə şəhərindəki filialının və Sudan Alzaim Alazhari Universitetinin nümayəndələri təmsil etdikləri ali təhsil ocaqları barədə videoçarx vasitəsilə ətraflı məlumat veriblər. Sonda sertifikatların təqdimatı olub.

Treninq və dərslər başa çatdıqdan sonra Çankırı Karatekin Universitetinin rektoru, professor Həsən Ayrancı layihə iştirakçıları ilə görüşüb. Rektor Həsən Ayrancı Erasmus+ layihəsinə ev sahibliyi etməkdən şad olduğunu deyərək bu kimi layihələrin dünya universitetləri ilə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi baxımından əhəmiyyətli olduğunu vurğulayıb.

Qonaqlar Çankırı Karatekin Universitetinin rektoru, professor Həsən Ayrancıya öz yerli mədəniyyətlərinin izlərini daşıyan xatirə hədiyyələri təqdim ediblər.

# Azərbaycan universitetlərinin nümayəndə heyəti ABŞ-da

Aprelin 29-da Azərbaycan universitetlərinin nümayəndə heyəti ABŞ-a səfər edib. Nümayəndə heyətinin tərkibinə Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Azərbaycan Texniki Universitetinin (AzTU) professor-müəllim heyəti daxildir. Nümayəndə heyətinə AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova başçılıq edib.

Azərbaycan universitetlərinin nümayəndə heyətini ABŞ Dövlət Departamentinin məsul şəxsləri qarşılayıb. Səfərin ilk günü Dövlət Departamentində görüş olub, səfərin məqsəd və proqramı barədə müzakirələr aparılıb.

Səfərin birinci günü nümayəndə heyəti həm də Nyu-York Texniki Universitetində olub. Universitetin prezidenti dr. Rahmat Şaruhi başda olmaqla dekanlar və professor-müəllim heyəti ilə görüş zamanı universitetlə tanışlıq, qarşılıqlı mübadilə və əməkdaşlıq məsələləri müzakirə edilib. Daha sonra heyət Nyu-York Phantom Opera Teatrında tamaşada olub. Səfərin ikinci günü Nyu-York Memarlıq Məktəbində görüş keçirilib. Burada qarşılıqlı fikir mübadiləsindən sonra nümayəndə heyəti tədris prosesi və laboratoriyalarla tanış olub. Günün ikinci yarısında Nyu-Cersi ştatında yerləşən Nyu-Cersi Texnologiya Universitetində görüş təşkil edilib. Burada heyəti universitetin vitse-prezidenti başda olmaqla məsul şəxslər qarşılayıblar. Nyu-Cersi Texnologiya Universiteti ilə tanışlıqdan sonra qarşılıqlı maraq doğuran məsələlər barədə müzakirələr aparılıb.

Azərbaycanlı qonaqlar Miçiqanın Kalamazu şəhərində yerləşən Kimya Kollecinin innovasiya mərkəzinə, Mühəndislik Kollecinə, Kalamazu Kommuniti Kollecinə və Miçiqan Universitetinə də baş çəkiblər. Səfər zamanı universitetlərlə tanışlıq, qarşılıqlı əlaqə və fikir mübadiləsi aparılıb.

## Təhsil Nazirliyinin əməkdaşları Heydər Əliyev Mərkəzini ziyarət edib

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibəti ilə keçirilən silsilə tədbirlər çərçivəsində Təhsil Nazirliyinin əməkdaşları Heydər Əliyev Mərkəzini ziyarət edib.

Tədbirdə YAP Nərimanov rayon təşkilatı idarə heyətinin üzvü, təhsil nazirinin müavini Firudin Qurbanov, Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri Təmraz Tağıyev və nazirliyin əməkdaşları iştirak edib.

Ziyarət zamanı əməkdaşlar Heydər Əliyev Mərkəzinin Muzeyi ilə tanış olublar. İştirakçılara ulu öndərin zəngin həyat yolu və siyasi fəaliyyətinin müxtəlif dövrləri haqqında məlumat verilib.

Ulu öndərin xatirəsinin böyük ehtiramla anıldığını diqqətə çatdıran təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, artıq üçüncü ildir ki, ənənəvi olaraq Heydər Əliyev Mərkəzi ziyarət edilir. Nazir müavini ümummilli lider Heydər Əliyevin Azərbaycanda dövlət quruculuğu, ölkəmizin dünya miqyasında tanınması, azərbaycançılıq məfkurəsinin formalaşması, milli dövlətçilik arzularının reallaşması baxımından misilsiz xidmətlərindən danışıb.

Firudin Qurbanov ulu öndərin əsasını qoyduğu siyasi və iqtisadi kursun, onun müəyyən etdiyi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyib, bu gün Azərbaycanın regionun ən qabaqcıl ölkəsinə çevrildiyini vurğulayıb. Dövlətimizin davamlı tərəqqisindən danışan nazir müavini bildirib ki, son illərdə ölkəmizdə mötəbər tədbirlərin, eləcə də bu günlərdə İslam Həmrəyliyi Oyunlarının keçirilməsi Azərbaycanın dünyada nüfuzunun artdığını bir daha nümayiş etdirir.

Çıxış edənlər ümummilli liderin Azərbaycan xalqı qarşısındakı xidmətlərindən, elm, təhsil və mədəniyyətin inkişafı istiqamətindəki zəngin fəaliyyətindən danışıblar.

Sonra Təhsil Nazirliyinin YAP-a üzv olmaq istəyən 5 nəfər əməkdaşının ərizəsinə baxılıb və onların müraciəti müsbət cavablandırılıb.

## Bakı Mühəndislik Universitetində yeni ixtisaslar üzrə kadrlar hazırlanacaq

Bakı Mühəndislik Universiteti (BMU) universitet-iş dünyası əlaqələrinin inkişafına xüsusi diqqət yetirir. Universitet yarandığı qısa müddət ərzində 20-dək şirkətlə əlaqə qurub, əməkdaşlıq edir. Mütəxəssis hazırlığında nəzəri biliklərlə yanaşı təcrübəvi biliklərin də xüsusi əhəmiyyəti var.

Ölkəmizdə tanınmış, dünyanın 20-dən artıq ölkəsindən 100-dən çox fabrikindən məhsul idxal edən, eyni zamanda istehsal sahələri ilə məşğul olan və pərakəndə sektorda əhaliyə xidmət göstərən Veysəloğlu şirkətilə də əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən tərəflər birgə tədbirlər, treninqlər keçirəcək, universitet tələbələri şirkətdə ixtisaslarına uyğun təcrübə keçəcək, istehsalat prosesi ilə tanış olacaqlar.

Universitetin rektoru, professor Havar Məmmədov ali məktəbin maddi-texniki bazasının, müəllim heyətinin yüksək səviyyədə olduğunu, mühəndislik fakültəsi ilə yanaşı iqtisadiyyat fakültəsinin də yüksək ixtisaslı kadr hazırladığını şirkət rəhbərliyinin diqqətinə çatdırıb. Rektor həmçinin hazırda universitetdə yüksək balla qəbul olunmuş tələbələrin və çox sayda Prezident təqaüdçülərinin təhsil aldığını da bildirib. Gələcək planlardan danışan rektor ölkəmiz üçün ehtiyac olan yeni ixtisaslar üzrə də kadr hazırlığının aparılacağını qeyd edib.

Şirkətin fəaliyyəti haqqında geniş məlumat verən Veysəloğlu Şirkətlər Qrupunun nümayəndələri əsas məqsədlərinin ölkəmizin milli iqtisadiyyatının inkişafına töhfə vermək olduğunu söyləyiblər. Görüşdə bildirilib ki, bunun üçün maliyyə və texnologiyadan öncə savadlı və bacarıqlı kadrlara ehtiyac var. Kadrların hazırlanması üçün isə universitetlərlə yanaşı inkişaf etmək istəyən şirkətlərin də üzərinə məsuliyyət düşür. Veysəloğlu şirkəti bu istiqamətdə üzərinə düşən missiyanı əməli fəaliyyəti ilə yerinə yetirməyə hazırdır.

## SABAH tələbələri qalib oldular

"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Seedstars World" müsabiqəsinin qalibi bəlli olub.

"PAŞA Bank" və ABŞ səfirliyinin dəstəyi ilə "ADA" Universitetində azərbaycanlı startaplar arasında "Seedstars World" müsabiqəsinin yerli seçimləri baş tutub. Azərbaycanın 10 ən yaxşı startapının mübarizə apardığı müsabiqədə Baramanın "Wake me up" layihəsi qalib gəlib. Layihənin iştirakçıları SABAH qruplarının tələbələridir. Yerli seçim mərhələsində 2-ci və 3-cü yerin qalibləri "TechSos" və "Buglance" komandaları olub.

"Wake me up" 2018-ci ilin aprel ayında İsveçrədə keçiriləcək "Seedstars" Sammitində ölkəni təmsil etmək və 1 milyon ABŞ dolları həcmində investisiya qazanmaq uğrunda mübarizə aparacaq.

Qeyd edək ki, "Seedstars" inkişaf etməkdə olan ölkələrdə texnologiya və sahibkarlıq vasitəsilə insanların həyatına təsir etmək məqsədi daşıyan İsçevrənin şirkətlər qrupudur. Müxtəlif startap axtarışları, şirkətlərin qurulması və sürətləndirmə proqramları vasitəsilə hazırda bu komandanın 60-dan çox ölkədə sahibkarlara, investorlara, korporasiyalara və dövlət rəsmilərinə çıxış imkanı var.

"Azercell Telekom" MMC Ümumdünya Startap Müsabiqəsinin keçirilməsində İsveçrənin "Seedstars" şirkəti ilə tərəfdaşlıq edir.

## Rəsm, inşa, şeir müsabiqəsi

Alimə BABAYEVA

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü münasibətilə Salyan rayonunun ümumtəhsil məktəblərinin şagirdləri arasında "Heydər Əliyev və müstəqil Azərbaycan" mövzusunda rəsm, inşa və şeir müsabiqəsi keçirilib. XX əsrin ən böyük şəxsiyyətlərindən olan ulu öndər Heydər Əliyevin ömür yolu və zəngin ictimai, siyasi, dövlətçilik fəaliyyəti ölkəmizin bütün vətəndaşları, xüsusilə də gənclər üçün əsl həyat məktəbi, vətənə, xalqa, dövlətçilik ideyalarına sədaqət və məhəbbətin parlaq nümunəsidir.

Şeir müsabiqəsinin mövzusu "Heydər Əliyev və müstəqil Azərbaycan", rəsm müsabiqəsinin mövzusu isə "Çiçəklənən Azərbaycan" olub. İnşalar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunub. Müsabiqənin keçirilməsində əsas məqsəd uşaq və gəncləri ümummilli lider Heydər Əliyev nümunəsində tərbiyə etmək, istedadlı, yaradıcı gəncləri üzə çıxarmaq, onların bilik səviyyəsinin, istedadlarının aşkar edilməsi və əsudə vaxtlarının səmərəli təşkilidir.

# "Azərbaycan tarixində parlayan günəş" adlı tədbir keçirilib

Sifai SƏFƏROVA

Mayın 10-da Bakı şəhəri 20 nömrəli məktəb-liseydə ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Azərbaycan tarixində parlayan günəş" adlı tədbir keçirilib. İlk öncə Azərbaycanın Dövlət himni səsləndirilib. Sonra tədbirin təşkilatçısı Mehparə Həbibli giriş sözü söyləyib və meydanı uşaqlara verib.

Şagirdlərin ifasında Heydər Əliyevə həsr olunmuş şeirlər, mahnılar səsləndirilib və kompozisiya nümayiş etdirilib. Üçüncülərdən Türkan, Nəzrin, Fərhad, Mələk, Mehriban, Fidan, Əhməd, İlkin, Abbas, Fizuli, Nigar, Elcan, Orxan, Sadiq və başqalarının çıxışları hamını kövrəldib. Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan ulu öndər Heydər Əliyev haqqında balaca fidanların dilindən səslənən ümummilli liderə məhəbbət dolu fikirlər hamıda qürur hissi yaradıb. Onlar bildiriblər ki, bu torpaq Heydər Əliyev kimi şəxsiyyət yetişdirib. Əməli işləri ilə o, Azərbaycanın layiqli adını, millətin şərəf və ləyaqətini özünə qaytararaq öz mənalı ömrünü qızıl hərflərlə nəsillərin yaddaşına həkk edib. Hər bir xalqın tarixində elə parlaq, taleyüklü hadisələr var ki, nəinki aylar, illər, hətta bir neçə onilliklər, yüzilliklər keçdikdən sonra da o hadisələr unudulmur və xalqın yaddaşında, tarixində ən şərəfli, ən müqəddəs məqam kimi əbədiləşir. Xalqımız üçün, dövlətimizin taleyi üçün ağır məqamda dünya şöhrətli siyasətçi, uzun illər dövlət idarəçiliyində zəngin təcrübə toplayan Heydər Əliyevin öz xilaskarlıq missiyasını yerinə yetirərək xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı tarixin məhz bu cür məqamlarındandır. Dahi şəxsiyyət 1993-cü ildə Azərbaycanda xaos və anarxiyaya son qoydu, vətəndaş müharibəsinin qarşısını aldı və ölkədə sabitliyi bərpa etdi. Məhz ulu öndərin siyasi iradəsi və qətiyyəti sayəsində



xalq rahat və firavan həyata qədəm qoydu, dövlət müstəqilliyimiz və suverenliyimiz məhv olmaq təhlükəsindən qurtuldu.

Məktəbin direktor əvəzi Yaqut Məmmədova çıxışında bu önəmli tədbirin mahiyyətindən bəhs etdi. Bildirdi ki, ulu öndər öz xilaskarlıq missiyasını layiqincə yerinə yetirdi və həmin siyasəti bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Direktor daha sonra söylədi ki, ümummilli lider dövlət quruculuğu, xarici siyasət, iqtisadiyyatın inkişafı kimi ən zəruri məsələlərdən tutmuş, elm, mədəniyyət, təhsil, idman kimi sahələrin inkişafına, gənclərin və veteranların, əlillərin, məcburi köçkünlərin, uşaqların -bir sözlə, cəmiyyətin bütün sahələri və bütün təbəqələrinin problemlərinə eyni həssaslıq, eyni diqqətlə yanaşıb.

# ISESCO-nun baş direktoru Bakı Ali Neft Məktəbində

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) baş direktoru və İslam Dünyası Universitetləri Federasiyasının (FUIW) prezidenti Əbdüləziz bin Osman əl-Tüveycri Bakı Ali Neft Məktəbinin yeni kampusunun qonağı olub. Görüşdə BANM-in rəhbərliyi, professor-müəllim heyəti, əməkdaşları və tələbələri iştirak ediblər. ISESCO-nun baş direktoru ali məktəbin kampusunda yaradılan şəraitlə tanış olub. BANM-in şəhərciyi haqqında qonağa ətraflı məlumat verən ali məktəbin rektoru Elmar Qasımov bildirib ki, şəhərcik ən müasir tələblərə cavab verir.

Rektor vurğulayıb ki, BANM tədrisin keyfiyyətini yüksəltmək və mütəxəssis hazırlığı sahəsində beynəlxalq əlaqələrinin genişləndirilməsinə böyük önəm verir. Bu məqsədlə bir çox ölkələrin müvafiq qurumları və iri şirkətlərlə əməkdaşlıq müqavilələri imzalanıb. Onların sırasında İslam Dünyası Universitetləri Federasiyasının adı da var. Ali məktəbin rektoru ölkəmizdəki mövcud tolerant mühit barədə qonağa ətraflı məlumat verib. Bildirilib ki, bu gün Azərbaycanda dinlərarası münasibətlərdə tolerantlığın ən yüksək səviyyəsi mövcuddur.

ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri dəvət üçün minnətdarlığını bildirərək, Azərbaycanda təhsilə dövlət qayğısından məmnunluğunu ifadə edib. Qeyd edib ki, ali təhsil müəssisəsi təkcə müasir korpus və yeni avadanlıqlardan ibarət deyil, burada hər şeydən əvvəl pedaqoji və elmi mütəxəssisləri ilə fərqlənmək lazımdır. Bu baxımdan BANM Azərbaycanın ən yaxşı professor və alim heyətinə malik olduğuna görə fəxr edə bilər.

"Biz İslam Dünyası Universitetləri Federasiyasının neft sektoruna həsr olunmuş növbəti beynəlxalq konfransını ali məktəbin yeni kampusunda keçirəcəyimizə dair rektor Elmar Qasımovla razılığa gəldik", - deyə Əbdüləziz bin Osman əl-Tüveycri bildirib. ISESCO-nun baş direktoru vurğulayıb ki, İslam ölkələrini təmsil edən tələbələrə BANM-də tədrisə cəlb olunmaları üçün dəstək göstərəcək.

# Xəzər Universitetində Jan Monne konfransı

Niyazi RƏHİMOV

Mayın 10-da Xəzər Universitetində bu ali təhsil ocağının siyasi elm və beynəlxalq münasibətlər kafedrası və Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə Avropa Günü ərəfəsində Avropa Birliyi və Azərbaycan münasibətlərinə həsr olunmuş "Jan Monne" adlı konfrans keçirilib.

Azərbaycan Respublikasının Dövlət himni səsləndikdən sonra konfransı giriş sözü ilə açan Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı tədbir iştirakçılarını salamladı və universitetin beynəlxalq əməkdaşlığı haqqında danışdı. Avropa Birliyi və digər təşkilatlarla universitet arasındakı əməkdaşlığın və münasibətlərin önəmini vurğuladı.

Konfransda çıxış edən Avropa Birliyinin Azərbaycandakı nümayəndəliyinin birinci müşaviri Denis Daniilidis Prezident İlham Əliyevin 2017-ci ilin fevral ayındakı Brüssel səfərindən sonra Avropa Birliyi ilə Azərbaycanın ikitərəfli münasibətlərində irəliləyişin baş verdiyini və Yeni Hərtərəfli Saziş üzrə danışıqlar aparılacağını söylədi.

Tədbirdə Xarici İşlər Nazirliyinin Avropa Birliyi üzrə əməkdaşlıq şöbəsinin müdiri Orxan Zeynalov, Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin aparıcı məsləhətçisi Vüsalə Qurbanova çıxış edərək Avropa Birliyi ilə ikitərəfli əməkdaşlığın əhəmiyyətindən danışdılar.

Sonra universitetin siyasi elm və beynəlxalq münasibətlər kafedrasının müdiri, Jan Monne Kürsüsü mükafatı laureatı, siyasi elmlər üzrə fəlsəfə doktoru Muxtar Hacızadə Avropa inteqrasiyasını əhatə edən fənlər və elmi işlər barədə iştirakçıları məlumatlandırdı.

Konfransdan sonra politologiya, beynəlxalq münasibətlər və avropaşünaslıq ixtisasları üzrə təhsil alan tələbələrin iştirakı ilə Trans Adriatik Boru Xətti üzrə əməkdaşlığın müzakirə edildiyi "Avropa Birliyinin Nazirlər Şurasının simulyasiyası" təşkil olundu.



# "Yanar həyatın işığında"

Niyazi RƏHİMOV

Mayın 11-də Abşeron rayonunun Müşfiq qəsəbəsində yerləşən Füzuli rayon 50 nömrəli tam orta məktəbdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunan "Yanar həyatın işığında" adlı kimya gecəsi keçirildi. Tədbirdə məktəbin müəllim-şagird kollektivi ilə yanaşı Füzuli Rayon Təhsil Şöbəsinin əməkdaşları, məktəb direktorları, KİV nümayəndələri və valideynlər iştirak edirdilər.

Dövlət himni səsləndirildikdən sonra ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirildi.

Tədbiri giriş sözü ilə açan məktəbin direktoru Günel Kazımova xalqımızın müdrik oğlu, dahi şəxsiyyət Heydər Əliyev haqqında söz açdı, ümummilli liderin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərindən danışdı. Bildirdi ki, ulu öndər Heydər Əliyev daim təhsilə, təhsil işçilərinə xüsusi diqqət və qayğı ilə yanaşmışdır. G.Kazımova diqqətə çatdırdı ki, 1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi xilaskarlıq missiyası nəticəsində Azərbaycan məhv olmaq təhlükəsindən xilas oldu, inkişaf edən bir dövlətə çevrildi. Qısa müddət ərzində ölkədə vətəndaş müharibəsinin qarşısı alındı. Ölkənin xarici siyasəti milli maraqlarımıza uyğun quruldu, uğurlu neft strategiyası müəyyən edilib həyata keçirilməyə başlandı, ictimai həyatımızın bütün sahələrində hərtərəfli demokratik islahatlar aparıldı.

Sonra tədbirin aparıcısı Fizzə Əliyeva məktəbin yuxarı sinif şagirdlərini səhnəyə dəvət etdi. Şagirdlər kimya elminin əhəmiyyətini, müasir dünyamızda nə qədər vacib olduğunu öz çıxışlarında bildirdilər. Azərbaycanın tanınmış kimyaçı alimləri haqqında iştirakçılara ətraflı məlumat verildi. Dünya şöhrətli alim Yusif Məmmədəliyevin fəaliyyətini əks etdirən videoçarx nümayiş olundu. Bir-birindən maraqlı səhnəciklər, şagirdlərin ifasındakı musiqilər iştirakçılarda xoş ovqat yaratdı. Kimya müəllimi Münəvvər Əzimova, şagirdlərdən Ayşən Əliyeva, Günel Məmmədli və Günel Bədirovanın apardığı kimyəvi təcrübələr maraqla izlənildi.

# Olimpiada ruhu məktəbə qayıdır

**Etibar ƏLİYEV,**
*"XXI Əsr Təhsil Mərkəzi" İctimai Birliyinin sədri, fəlsəfə üzrə fəlsəfə doktoru*



Təhsil ekspertləri özünün fəaliyyətində daha çox problemlərə köklənir, tənqidi fikirlər səsləndirirlər. Buna təbii baxmalıyıq və qəbul etməliyik ki, tənqidçi mövqeyini qorumaq faydalı və ədalətli ola bilməyin ən vacib göstəricisidir. Bəlkə yersiz də səslənə bilər, bir təhsil eksperti və vətəndaş cəmiyyəti təmsilçisi kimi tənqidi mövqeyimi bütün forma və səviyyələrdə, bütün zamanlarda saxlaya bildiyimi alnıaçıqlıqla deyə bilərəm. Bununla belə, müsbət dəyişiklikləri də qeyd etməkdən heç vaxt çəkinməmişəm. Hər şeydən öncə ona görə ki, uzun illər təhsil sahəsində elə dərin problemlər kök atıb ki, yaxşıya doğru dəyişiklik imkanları görəndə azı vətəndaş kimi sevinməyə bilmirəm. Əminliklə deyirəm, son bir neçə ildə görülən işlər nəticəsində orta məktəblərdəki fənn olimpiadaları sahəsində müsbətə doğru çox ciddi dəyişikliklər baş verib. Kimdən soruşsanız, öyrənə bilərsiniz ki, bu dəyişikliklər ötəri və görüntü xarakteri daşımır. Uzunmüddətli dönəmdə bu sahə çökmüş və çirklənmiş, heç olmasa bu sahədə obyektivlik və şəffaflıq qorunmamışdı. İntellektual olimpizm ruhu yoxa çıxmış və ləkələnmişdi. Olimpiada işinin əsas mərkəzlərindən olan təmayüllü liseylər, sadəcə, yataqxanası və yeməkxanası olan məktəblərə çevrilmişdi.

## Durumu dəyişən ciddi addımlar

Sərt dəyişiklik üçün iki addım əsas təşkil etdi. Qiymətləndirmə bütün mərhələlərdə obyektiv aparıldı, ədalətli nəticəyə inam və yarış ruhu qayıtdı. Olimpiadaların təşkili və qiymətləndirilməsi üçün ən müasir qayda və metodlar seçildi, şagirdlərə apelyasiya imkanları yaradıldı. Təşkilatçılarla iştirakçılar arasında dürüst və xoş münasibətlərə söykənən mühit yaranmış oldu.

İkinci amil olaraq, olimpiada mərkəzləri və bu mərkəzlərin yerləşdiyi liseylər köklü dəyişikliyə uğradı. Məsələn, Fizika, riyaziyyat və informatika təmayüllü liseyi əvvəllər ölkənin örnək məktəbi olub. Məktəbə qəbul sistemi nazirlik tərəfindən mərkəzləşdirildi və obyektivləşdirildi. Sağ olsunlar, kollektiv də köhnə ənənələrin bərpa olunması üçün dərhal toparlanmış oldu. Rüşvətdən, tərəfkeşlikdən, mənfi tendensiyalardan uzaq olan, çalışqan lisey bu il olimpiada qaliblərinin sayına görə öz yerini qaytarmağa nail oldu. Ciddi müşahidələrim əsasında deyə bilərəm ki, təhsilin buradakı səviyyəsi hələ tam arzuolunan deyil, amma böyük irəliləyiş qət olunub.

Olimpiada işinə rəhbərlik edənlər Azərbaycanın hər yerindən xüsusi istedadları axtarıb tapır, olimpiada mərkəzlərinə cəlb edir, olimpiada sinifləri təşkil edirlər. Nüfuzlu Balkan olimpiadasından bu il dörd şagirdimiz medalla qayıdıb.

Bu yazı üzərində işləyərkən adını çəkə bilməyəcəyim bir professor təsadüfi zəngləşmədə heyrətlə bir məsələni danışdı. İnformatika üzrə (proqram yazılımı) ən yaxşı universitet komandalarının olimpiadasına qatılan iki şagird yalnız Bakı Mühəndislik Universitetindən, BDU və ADA- dan geri qalaraq 4-cü yeri tutub. Onlar Bakı Ali Neft Məktəbi, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (köhnə AZİ) və bütün digər universitetlərə qalib gəliblər. Görülən işlər faydasını verir.

## Fənn olimpiadalarının təhsildə rolu nədir?

Böyük yazıçı Frans Kafkanın bir hekayəsi var. Mərhum akademik Azad Mirzəcanzadə də onu özünün "İxtisasa giriş" kitabında xatırlayıb. Hekayədə deyilir ki, yaxşı bir insan vəfat etdikdə mələklər dərhal ona ismarış gətirir: "Siz yaxşı əməllərinizə görə Tanrıya bir sual vermək şansı ilə mükafatlandırılırsınız".

Adam xeyli düşündükdən sonra Tanrıya sual verir ki, onun tarix boyu ən böyük sərkərdə kimi yaratdığı kim olub.

Tanrı da deyir ki, sən filan şəhərdən deyilsənmi, filan küçədə yaşamırdınmı. "Bəli" söyləyən adam onu şoka salan bir cavab alır.

Tanrı deyir: "Yaşadığın küçənin başında pinəçi köşkü vardı, o qamətli pinəçini tanıyırdın sən də, bax, o, bütün gəlmiş-getmişlər arasında mənim ən yüksək sərkərdə qabiliyyəti verdiyim insan olub. Lakin bunu nə özü, nə də başqaları bilib".

Bu ibrətamiz hekayədə işarə edilən problemi çözməyin, xüsusi istedadları müəyyənləşdirməyin, onları yetişdirib ölkəyə və bəşəriyyətə bəxş etməyin vəzifəsi olimpiadaların üzərinə düşür.

Yalnız bu da deyil. Fənn olimpiadalarının şagirdlərin fərdi inkişafı üçün görə biləcəyi işləri daha ətraflı təsvir etməyə çalışaq:

- Xüsusi istedadları müəyyənləşdirmək;
- İstedadlı uşaqların hazırlığını yüksəltmək;
- Bütün iştirakçıların yaradıcılıq və sərbəst çalışmaq bacarığını artırmaq;
- Fənlərin daha dərindən öyrənilməsinə yol açmaq;
- Özünütəsdiq imkanı və şəxsiyyətyönlü formalaşma;
- Məktəblərdə yarış və rəqabət mühiti yaratmaq;
- Sosiallaşma - şagirdləri maraqlı bir yarışa daha sıx bağlamaqla onu tədrisə və məktəb toplumuna daha yaxından bağlamaq.

## İntellektual marafon

İlk olimpiada dərnəyinə qatılan şagird az zamanda özündə dəyişiklik hiss edir. Bu özünütəsdiq platforması ona böyük olimpiada uğurları gətirmədikdə belə, onda əvəzsiz müsbət izlər buraxır. Bunlardan bəzilərini qeyd edə bilərik:

- *Sürət.* Şagird çalışmaları sürətlə cavablandırmağa vərdiş qazanır və vaxtın əhəmiyyətini hiss edir, vaxta görə özünü inkişaf etdirir.

- *Konsentrasiya.* Daha çətin sual və çalışmalara bəlli zaman çərçivəsində cavab vermək konsentrasiya olmaq bacarığı formalaşdırır. Bu xüsusiyyət isə dərslərin tələblərini həll etməkdə şagirdlərə çox kömək edir.

- *Dərinləşdirmə.* Fənni daha dərindən öyrənmək dərsləri daha asan və unudulmaz mənimsəməyə imkan yaradır.

- *Tədqiqatçılıq və layihəçilik.* Gələcəyin elm adamları, yaradıcıları, istehsalçıları ilk və vacib keyfiyyətlərini qazanırlar.

- *Qeyri-standart yanaşma.* Orijinal baxışlarla problemlərə yanaşa bilmək həm çətin sualları həll etməyə kömək edir, həm də standart dərs yükünü mükəmməl anlamağa, yadda saxlamağa və izah etməyə yol açır.

## Olimpiadaların ən mühüm cəhəti

Fənn olimpiadaları sahəsində xüsusi istedadları üzə çıxarmaq və onları yetişdirmək olduqca vacib məsələdir. Lakin hədəf yalnız xüsusi istedadlar olmamalıdır.

Olimpiada işi təhsil sistemində bir hərəkata çevrilməli, təkcə xüsusi seçilən məktəbləri və olimpiadaları əhatə etməməlidir. Hazırda natamam olan cəhət budur.

Bəli, yalnız xüsusi mərkəz və liseylərdən deyil, bütün məktəblərdən, hətta ucqar məktəblərdən də olimpiadalara qatılırlar. Lakin bu, əsasən formal xarakter daşıyır, o cür məktəblərdən gələnlər istisna müəllimlərin və ya şagirdlərin hesabına uğur qazana bilirlər. Uğurlar da ardıcıl olmur. Bu məktəblərdəki uşaqların bəlkə də ən yaxşıları itib-batır, yuxarılar maraqlandıqda belə, onların istedadlarından xəbər tutmaq olmur. Eynən Kafkanın hekayəsindəki kimi. Ona görə ki, onların istedadı bəlli təcrübədən, dərnək və ilkin hazırlıqlardan sonra görünə biləcək hala gəlir. Yoxsa onların istedadı elə dərin qatda olur ki, heç cür görə bilmirsən. Məktəblərdə fənn dərnəkləri, məşğələlər, ilkin yarışlar, siniflərarası yarışlar, məktəb və rayon müsabiqələri təşkil edilməli və bunlar kifayət qədər olmalıdır ki, belə uşaqlar kəşf oluna bilsin.

Belə olduqda, yəni, olimpiada hazırlıqları və olimpizm bütün məktəbləri və hamını əhatə edə bilsə, əvvəla, daha çox xüsusi istedadlı uşaqları ortaya çıxara biləcəyik, ikincisi, intellektual olimpizm ruhu əksəriyyətə xas olacaq.

Sonuncu çox vacib amildir.

Pedaqoqun vəzifəsi uşaqlardakı qabiliyyətləri, yaxud onda ən yaxşıları açmaqdır. Məsələn, Çində uşaq riyaziyyatı bilmirsə, dil haqqında biliklərində problem varsa, onun idmanda, yaxud peşədə qabiliyyəti barədə düşünürlər. Müəllim istedadı aşkar edib, mahiyyəti başa düşdükdən sonra uşağın uğurunu sinif yoldaşlarına və məktəbə bəyan edir.

Son zamanlar fənn olimpiadalarının, "Ədəbiyyat biliciləri" müsabiqəsinin və başqa bilik yarışmalarının qaliblərinin təntənəli mükafatlandırılması rasional addımdır. Uşaqlar onların biliklərinin yüksək səviyyədə qiymətləndirilməsindən sevinirlər.

Riyaziyyatda uğur qazana bilməyən coğrafiyada, coğrafiyada nəticəsi olmayanlar biologiyada, bir başqası rəsmdə, digəri idmanda, yaxud müxtəlif layihələrdə özünü tapmış olacaq. Bu cür uşaqlar məktəb dərslərinə daha böyük maraq göstərəcək və bununla təhsil sisteminin keyfiyyəti yenilənəcək. Ən dəcəl və çətin tərbiyə olunan uşaqlar belə, bəzi proje yarışlarında özünütəsdiqə imza atmaqla, sosiallaşa və problemsiz şagirdlərə çevrilə bilərlər. Rəqabət və yarış ruhu universal xüsusiyyətdir və onun sağlam şəkildə aşılanması çox böyük uğurlara imza atır. Bunun üçün məktəb dərnəkləri və məşğələləri aşıb-daşmalı, müxtəlif miqyasda yarışlar çoxaldılmalıdır. Təkcə indi Təhsil Nazirliyinin təşkil etdiyi fənn olimpiadaları ilə kifayətlənmək olmaz.

Bu istiqamətlərdə işlər gücləndirilməlidir:

- Vəsaitlər və resurslar artırılmalıdır. Bütün miqyaslarda olimpiadaların keçmiş materialları tərcümə edilməli, olimpiadalara hazırlıq vəsaitləri hazırlanmalıdır;
- Müxtəlif adda rayon, şəhər və respublika fənn yarışları və olimpiadaları təşkil edilməlidir;
- Universitetlər məktəblilər üçün öz olimpiadalarını təşkil etməlidir;
- Onlayn resurslar və olimpiadalar üçün platformalar çoxaldılmalıdır;
- Özəl qurumların öz hesablarına olimpiada və yarışlar təşkil etməsi üçün təbliğat aparılmalı və onlara bu işdə metodik dəstək verilməlidir;
- Olimpiada hazırlığı aparacaq müəllimlər üçün gerçək və faydalı seminarlar təşkil edilməlidir. Olimpiada fəaliyyətinə və uğurlarına görə müəllimlərə əlavə əməkhaqqı ödənilməlidir;
- Xarici ölkələrin təcrübəsi öyrənilməli, xaricdən təlimçilər gətirilməlidir;
- Ölkədə və beynəlxalq miqyasda yüksək uğur qazanan olimpiadaçılara birdəfəlik və uzunmüddətli təqaüd ayrılmalı, onlara mümkün üstünlüklər verilməsinə yol açılmalıdır.

Təbii ki, qiymətləndirmə həmişə düzgün və ədalətli olacaqsa, bəhrəni tezliklə görmək olacaq. Təcrübə artacaq, məktəblərdə yeni dərəcəli müəllimlər və yeni mühit yaranacaq. İntellektual marafon bütün şagirdlərə fayda verəcək.

# Beynəlxalq Balkan Riyaziyyat Olimpiadasından daha 4 bürünc medal

## Məktəblilərimiz növbəti uğura imza atıblar

**Oruc MUSTAFAYEV**

Azərbaycan məktəbliləri 2-7 may 2017-ci il tarixlərində Makedoniyanın Oxrid şəhərində keçirilən 34-cü Beynəlxalq Balkan Riyaziyyat Olimpiadasında (JBMO) növbəti uğura imza atıblar. Bolqarıstan, Rumıniya, Serbiya, Türkiyə, Yunanıstan və s. kimi Balkan ölkələri ilə yanaşı, Böyük Britaniya, İtaliya, Qazaxıstan, Səudiyyə Ərəbistanını təmsil edən şagirdlərin iştirak etdiyi elm yarışında Azərbaycan 6 şagird və 2 rəhbər olmaqla 8 nəfərlik heyət ilə iştirak edib. Yaş həddi 15-dən kiçik olan, demək olar ki, yeni formalaşmış komandamız bu olimpiadada kifayət qədər yaxşı nəticə göstərib. Hər biri maksimum 10 bal ilə qiymətləndirilən 4 müxtəlif sualın (cəmi 40 bal) həllərini yazmaq üçün şagirdlərə 4 saat 30 dəqiqə vaxt verilib. Belə ki, Bakıdakı akademik Zərifə Əliyeva adına liseyin eksperimental pilot siniflərinin IX sinif şagirdi Ramil Cəbiyev (30 bal), həmin liseyin X sinif şagirdi Anar Abbaslı (26 bal), Gəncə şəhəri 26 nömrəli tam orta məktəbin eksperimental pilot siniflərinin XI sinif şagirdi Mirəli Əhmədli (22 bal) və Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin VIII sinif şagirdi Murad Ağazadə (21 bal) olimpiadanın bürünc medalına layiq görülüblər. Xatırladaq ki, adları çəkilən şagirdlərimizin hər biri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin nəzdində yaradılmış Beynəlxalq olimpiadalara hazırlıq mərkəzində həftədə iki dəfə olmaqla hazırlıq dərslərində işirak edirlər. Şagirdlərlə daha yaxından tanış olaq.



*Mirəli Əhmədli* 2000-ci il dekabrın 9-da Gəncə şəhərində anadan olub. İlk təhsilinə şəhər 4 nömrəli tam orta məktəbdə başlayıb. Sinifdə ən yaxşı oxuyan şagirdlərdən biri olub. İbtidai sinfi bitirdikdən sonra 27 nömrəli məktəbin xüsusi istedadlar sinfində (XİS) oxuyub. VII sinifdən Gəncə Türk Liseyinə qəbul olunub və olimpiadaya seçim üçün məntiq imtahanında iştirak edib. İmtahandan yüksək nəticə ilə keçib və riyaziyyat üzrə olimpiada komandasına qəbul olunub. VIII sinifdə imtahan verərək təhsilini, eləcə də olimpiadaya hazırlıq işlərini Bakıdakı "İstək" liseyində davam etdirməyə başlayıb. 2014-cü və 2015-ci illərdə Yeniyetmələrin Balkan Riyaziyyat Olimpiadasında müvafiq olaraq bürünc və gümüş, 2015-ci və 2016-cı illərdə isə Respublika fənn olimpiadasında müvafiq olaraq qızıl və gümüş medallara sahib çıxıb. 2015-ci ildə Balkan Riyaziyyat Olimpiadasında, 2015-ci və 2016-cı illərdə beynəlxalq riyaziyyat olimpiadalarında həvəsləndirici mükafatlara (Honourable Mention) layiq görülüb. Cari ilin yanvarında XIII Beynəlxalq Jautıkov Olimpiadasında bürünc medal qazanıb.

*Anar Abbaslı* 2001-ci il yanvarın 21-də Bakı şəhərində anadan olub. 2007-ci ildə Bakıdakı 70 nömrəli tam orta məktəbin I sinfinə gedib. 2013-cü ildə Dədə Qorqud Özəl Türk liseyinə qəbul olunub. Hazırda Bakı "İstək" liseyinin Xalqlar Dostluğu filialında təhsilini davam etdirir. 2015-ci ildə Serbiyada keçirilən Junior Balkan Riyaziyyat Olimpiadasında bürünc medala layiq görülüb. Anar artıq VII sinfin ortalarından məntiq imtahanı verərək olimpiadaya hazırlaşmağa və təhsilini Bakıdakı "İstək" liseyində davam etdirməyə başlayıb. İlk dəfə 2016-cı ilin iyununda Serbiyada keçirilən beynəlxalq səviyyəli olimpiadadan ölkəmizə bürünc medalla qayıdıb. 2017-ci ilin yanvarında Qazaxıstanda keçirilən XIII Beynəlxalq Jautıkov olimpiadasında bürünc medala layiq görülüb.

*Murad Ağazadə* 2000-ci il yanvarın 20-də anadan olub. 2009-cu ildə 220 nömrəli məktəb -liseyin I sinfinə qəbul olunub. VIII sinifdən isə Fizika, riyaziyyat və informatika təmayüllü liseydə təhsilini davam etdirir. Muradın ilk uğurları VI sinifdən başlayıb. O, məktəblilərarası fənn müsabiqəsində, VII və VIII siniflərdə isə Respublika fənn olimpiadasında I yerə layiq görülüb.

- Qarşıma Balkan Riyaziyyat Olimpiadasında ölkəmizi təmsil edəcək komandada yer almağı məqsəd qoymuşdum. Buna görə də Balkan olimpiadasında şagirdlərə təqdim olunan sual və tapşırıqların həlli ilə məşğul oldum. Olimpiadaya qatılmaq üçün var-gücümlə çalışırdım. Səylərim boşa getmədi, komandaya seçildim və Balkan Olimpiadasında iştirak etməklə bürünc medala layiq görüldüm. Qarşıdan yay ayında Braziliyada keçiriləcək Beynəlxalq Riyaziyyat Olimpiadası gəlir. Hədəfimdə bu olimpiadaya seçiləcək komanda üzvləri arasında yer almaq və bilik müsabiqəsində iştirak etməklə ölkəmizə yaxşı nəticələrlə dönməkdir.

*Ramil Cəbiyev* 2002-ci il iyunun 10-da Bakıda anadan olub. 2008-ci ildə 132-134 nömrəli təhsil kompleksinin I sinfinə qəbul olunub. Hazırda "İstək" liseyinin IX sinfində təhsil alır. Riyaziyyata 2-3 yaşlarından maraq göstərib. Bu maraq onun riyaziyyatla daha ciddi məşğul olmasına gətirib çıxarıb. Olimpiada ilə ilk tanışlığı VI sinifdə olub. Həmin il Bakı şəhərində keçirilən "İstedad axtarışında" Respublika müsabiqəsində I yeri qazanıb. 2016-cı il isə onun üçün daha uğurlu olub. Riyaziyyat üzrə Respublika fənn müsabiqəsində "Birincilərin birincisi" adına layiq görülüb və qızıl medalla təltif olunub. Ötən il Junior Balkan Riyaziyyat Olimpiadasında bürünc medala, Dünya Riyaziyyat Olimpiadasında isə həvəsləndirici mükafata layiq görülüb.

Azərbaycan Respublikası Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri, riyaziyyat fənni üzrə komandamızın rəhbəri Fuad Qarayevdən aldığımız məlumata əsasən, şagirdlərimiz bu vaxta qədər Balkan Riyaziyyat Olimpiadalarında (senior - 1 qızıl, 7 gümüş və 22 bürünc və junior - 1 qızıl, 8 gümüş və 9 bürünc), bütövlükdə 2 qızıl, 15 gümüş və 31 bürünc olmaqla cəmi 48 medal qazanıblar.

Şagirdlərimizi, onların valideynlərini, müəllimlərini təbrik edir və uğurlarının davamını arzulayırıq.

# Universitet ənənəni bərpa etdi

## Amma şagirdlərin informatika üzrə nəticələrindən razı qalmadı



**Yusif ƏLİYEV**

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) belə hesab edirlər ki, ali təhsil müəssisəsi durub orta məktəblərdən ona tələbə gəlməsini gözləməməli, özü tələbə cəlb etməyə təşəbbüs göstərməlidir. Düşünürlər ki, bunun üçün universitet üzünü məktəbə çevirməli, tədris ocaqlarına səfərlər təşkil edilməli, yuxarı sinif şagirdləri ilə müntəzəm görüşlər keçirilməlidir. Universitet, burada öyrədilən ixtisaslar haqqında potensial tələbələrə məlumatların verilməsi, eləcə də universitetin dəstəyi ilə məktəblərdə klubların, dərnəklərin, debatların təşkili və onlar vasitəsi ilə gənclər arasında peşəyönümü işlərinin aparılması da bu işə fayda verə, universitet-məktəb əlaqələrini möhkəmləndirə bilər. Və düşündüklərini gerçəkliyə çevirmək üçün addımlar atmağa başlayıblar. Son bir ildə ADNSU-da həyata keçirilən bir sıra yeniliklərin ideya müəllifi olan rektor, professor Mustafa Babanlının təşəbbüsü ilə universitetin struktur bölmələrinin rəhbərləri paytaxt məktəblərində olub, şagird-müəllim heyəti ilə görüşüblər. Ötən ay isə burada yenə də rektorun təşəbbüsü ilə vaxtilə mövcud olmuş bir ənənəyə yenidən həyat verilib. Uzun fasilədən sonra orta məktəblərin XI sinif şagirdləri arasında yenidən dəqiq fənlər üzrə olimpiada təşkil olunub.

Qeyd edək ki, belə fənn olimpiadaları universitetdə ötən əsrin 80-ci illərinin sonlarında keçirilib. Lakin 1990-cı ilə təsadüf edən sonuncu olimpiadadan sonra ölkədə yaranmış vəziyyət onun davam etdirilməsini mümkünsüz edib.

Yenidən bərpa olunan olimpiadanın keçirilməsi üçün rektorun sədrliyi ilə təşkilat komitəsi yaradılıb, müvafiq hazırlıq işləri görülüb. Təşəbbüs Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən də anlayışla qarşılanıb və olimpiadaya hazırlıq, XI sinif şagirdlərinin yarışmaya göndərilməsi istiqamətində lazımi köməkliklər göstərilib.

Məqsədi şagirdlərin dəqiq elmlərə marağının artırılması, istedadlı gənclərin aşkarlanması və onların peşəyönümünün istiqamətləndirilməsi olan olimpiadanın yekun turu aprelin 8-də universitetdə baş tutub. Sələfindən fərqli olaraq builki olimpiada 3 fənn üzrə deyil, 4 fəndən keçirilib. Ənənəvi, riyaziyyat, fizika, kimya fənlərinə informatika da əlavə olunub. Olimpiadada əsas yenilik isə I yeri tutan iştirakçılara mükafat aldıqları ixtisaslar üzrə ADNSU-ya qəbul olunacaqları təqdirdə 100 manat təqaüd verilməsinin nəzərdə tutulmasıdır.

Azərbaycan və rus dillərində keçirilən olimpiada yazılı formada aparılıb. Yekun mərhələdə riyaziyyatdan 93, (74 nəfər Azərbaycan, 19 rus bölməsi), fizikadan 84 (71 və 13), kimyadan 59 (46-13), informatikadan 17 (15 və 2) şagird mübarizə aparıb. Şagirdlərə çətinləşdirilmiş, eyni zamanda indiki orta məktəbi bitirən şagirdə hesablanmış olimpiada məsələləri təqdim olunub və onlar 3 saat ərzində bu məsələləri cavablandırıblar.

Olimpiadalar artıq başa çatıb və qaliblər mükafatlandırılıb. Bəs nəticələr nə göstərir? Universitet olimpiadanın yekun turunun iştirakçısı olmuş 253 onbirinci sinif şagirdinin simasında öz gələcək tələbələrini görə bilibmi? Olimpiada haqqında məlumat verən universitetin idarəetmə və sistemlər mühəndisliyi kafedrasının müdiri, olimpiadanın təşkilat komitəsinin məsul katibi Fərid Ağayevin dediyinə görə, uzun fasilədən sonra ilk dəfə keçirilən olimpiadanın nəticələri heç də gözləntiləri doğruldacaq səviyyədə olmayıb.

Ən zəif çıxış edənlər informatika fənninin təmsilçiləri olub. 17 şagirddən 15-i tapşırığı alandan 5 dəqiqə sonra "biz heç nə bilmirik", - deyərək zalı tərk edib. Lakin qalan 2 nəfər - akademik Zərifə Əliyeva adına liseyin şagirdləri məsələlərin öhdəsindən məharətlə gəliblər. Onların biri yarım saata, digəri isə 1 saat 10 dəqiqəyə verilən tapşırığı tam yerinə yetirirək olimpiadada I və II yerləri tutublar.

F.Ağayevin fikrincə, informatika üzrə belə acınacaqlı nəticənin yaranmasının səbəbi məktəblərdə bu fənnin tədrisinə ciddi yanaşılmamasıdır. "Biz də bilirik, şagirdlər də bilir ki, orta məktəblərdə informatika dərsində yaxşı halda şagirdlərə oyun oynadırlar", - deyə o bildirib. Müsahibimiz belə hesab edir ki, məktəblərdə ixtisaslı informatika müəllimləri azdır. Müxtəlif kursları bitirib informatika müəllimliyi edənlər isə şagirdlərə heç nə verə bilməzlər.

Digər fənlər üzrə göstəricilərə gəldikdə isə F.Ağayev bunları da qənaətbəxş hesab etmir. "Biz azsaylı çoxtalantlı övladlarımızı tanıdıq", - deyən universitet rəsmisinin sözlərinə görə, hətta məktəblərin qalibləri olmuş şagirdlərin belə olimpiadadakı ümumi göstəriciləri zəifdir. 25 mümkün baldan 9, 6, 3, 2, hətta 0 bal toplayanlar var. "Bu isə həm də onu göstərir ki, test olmayan real bilik yarışında şagirdlər zəif nəticə göstərirlər".

Bütün bunlarla yanaşı, olimpiadada 17 nəfər qalibin olduğunu deyən F.Ağayev universitet olaraq gələcəkdə belə bilik yarışlarının coğrafiyasının daha genişləndirilməsini, onun bölgələrdə də təşkil edilməsini qarşıya məqsəd qoyduqlarını bildirdi.

# "Sən elə bir zirvəsən..." adlı ədəbi-bədii gecə

**Şakir CƏFƏROV**

Bakıdakı Zaur Məmmədov adına 171 nömrəli tam orta məktəbdə ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş "Sən elə bir zirvəsən..." adlı ədəbi-bədii gecə keçirildi. Tədbirdə Xətai Rayon İcra Hakimiyyətinin, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nümayəndələri, KİV əməkdaşları, valideynlər və başqa qonaqlar iştirak edirdilər.

Tədbiri giriş sözü ilə məktəbin direktoru Zemfira Məsiyeva açaraq qonaqları salamladı. Dövlət himni səsləndirildi. Azərbaycanın vətənpərvər oğlu Ramil Səfərova söz verildi. Qonaq ulu öndərin doğum günündə məktəblilərlə görüşündən məmnun olduğunu bildirdi. Sonra Azərbaycanın müstəqillik qazanmasında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən söz açdı.

Tədbirdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov və başqaları da çıxış etdilər.

Məktəblilərin ifasında ulu öndərin həyat və fəaliyyətini tərənnüm edən şeirlər söylənildi, mahnılar oxundu və ədəbi-bədii kompozisiya nümayiş etdirildi.

Sonda tədbir iştirakçıları Ramil Səfərovla xatirə şəkli çəkdirdilər.

# "Muzeylər və İslam Həmrəyliyi" mövzusunda "Muzey ayı" proqramı

Məktəblilər üçün "Muzeylər və İslam həmrəyliyi" mövzusunda "Muzey ayı" proqramı həyata keçirilir.

Proqram Təhsil Nazirliyi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Nazirlər Kabineti Yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin birgə əməkdaşlığı çərçivəsində təşkil olunub. Proqram bu il Bakı şəhərində fəaliyyət göstərən 16 aparıcı muzeylə yanaşı, ilk dəfə olaraq 11 xatirə ev-muzeyini əhatə edəcək.

Üçüncü ildir ki, keçirilən proqramın müddəti məktəblilərin fəallığını, müəllim və valideynlərin marağını nəzərə alaraq "Muzey həftəsi"ndən "Muzey ayı"na qədər genişləndirilib.

Proqramın məqsədi məktəbliləri muzeylərin kolleksiya fondu ilə tanış etmək, Azərbaycanın, eyni zamanda İslam sivilizasiyasına mənsub olan xalqların milli və mədəni irsi, onların müxtəlif dövrlərə aid qarşılıqlı münasibətləri haqqında məlumat verməkdir.

Yeni proqram üçün Təhsil Nazirliyi Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin metodistləri tərəfindən xüsusi interaktiv marşrutlar təyin edilib və "İslam həmrəyliyi"nə uyğun olaraq mövzular seçilib.

Proqram mayın 28-dək davam edəcək.

# "Məktəblinin dostu" layihəsi çərçivəsində intellektual oyun

"Məktəblinin dostu" layihəsi çərçivəsində "Nə? Harada? Nə zaman?" intellektual oyunu keçirilir.

Yarış "Məktəblinin dostları"nın fəaliyyət göstərdiyi 30 məktəbdə VII-IX sinif şagirdləri arasında təşkil edilir.

Oyunun keçirilməsində əsas məqsəd şagirdlərin intellektual səviyyəsini, dünyagörüşünü artırmaq, zehni inkişafını gücləndirmək, eləcə də asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir.

İlk olaraq fevral, mart, aprel ayları ərzində "Məktəblinin dostu" pilot layihəsinə daxil olan təhsil müəssisələrində "Nə? Harada? Nə zaman?" intellektual oyununun məktəbdaxili mərhələsi keçirilib. İki turdan ibarət olan məktəbdaxili mərhələdə şagirdlərə 24 sual təqdim olunub.

Məktəbdaxili mərhələnin sonunda "Məktəblinin dostu" tərəfindən hər məktəbdən I, II və III yerlərin qalibi olan komandalara sertifikat verilib.

30 məktəbin qalib komandaları mayın 7-də "Nə? Harada? Nə zaman?" intellektual oyununun final mərhələsində çempion olmaq uğrunda mübarizə aparıblar. Oyun üç turdan ibarət olub. Final mərhələsində şagirdlər 36 suala cavablandırmaq üçün rəqabət aparıblar.

Sonda qalib komandaya həvəsləndirici hədiyyə, sertifikat və "Məktəblinin dostu" kuboku təqdim olunub.

# Milli filmləri kimlər xatırlayır?

"Məktəblinin dostu" layihəsi çərçivəsində "Unudulmaz filmlər" müsabiqəsi keçirilib.

Müsabiqədə "Məktəblinin dostları"nın fəaliyyət göstərdiyi hər məktəbdən 4 şagird komanda şəklində iştirak edib.

Müsabiqənin keçirilməsində əsas məqsəd şagirdlərin dünyagörüşünü inkişaf etdirmək, milli filmlərimizə, mədəniyyətimizin, tariximizin daşıyıcıları olan əsərlərə məktəblilərin marağını artırmaq və onların asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir.

İki mərhələdən ibarət olan müsabiqədə komandalar milli filmlərlə bağlı sualları cavablandırıblar.

Film müsabiqəsində 139 nömrəli tam orta məktəbin komandası I, 117 nömrəli tam orta məktəbin komandası II, 166 nömrəli tam orta məktəbin komandası isə III yerə layiq görülüb.

Qalib komandalar hədiyyə və sertifikatlarla təltif edilib.

Qaliblərin mükafatlandırılması mərasimində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, xalq artistləri Vasif Babayev, Şamil Süleymanlı, əməkdar incəsənət xadimi Əbdül Mahmudov, kinorejissor Şamil Əliyev, məktəb direktorları və şagirdlər iştirak ediblər.

Tədbirdə şagirdlərin ifasında musiqi nömrələri və rəqslər təqdim olunub.

# Tələbələr İKT biliklərini sınağa çəkdilər

## Qələbə uğrunda 16 ali məktəb komandası mübarizə apardı

**Yusif ƏLİYEV**

Mayın 6-da tələbələrin informatika olimpiadası keçirildi. Onlar günümüzdə vacibliyi heç kimdə şübhə doğurmayan bu bilik sahəsi üzrə qüvvələrini on birinci ildir ki, sınayırlar. 17 may - Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunan olimpiadanın finalı son illər bir qayda olaraq AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda baş tutur.

"Ali məktəb tələbələri arasında informatika üzrə XI Ümumrespublika Olimpiadası"nın finalı da bu baxımdan istisna deyildi. Bilik yarışmasının təşkilatçıları ənənəvi qurumlar idi: Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondu, Təhsil Nazirliyi və İnformasiya Texnologiyaları İnstitutu.

Olimpiadanın açılışını AMEA-nın akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev etdi. O, olimpiada iştirakçılarını, digər təşkilatçı qurumların nümayəndələrini salamladı. Alim bu gün dünyada informatika və proqramlaşdırmanın prioritet istiqamətlərə çevrildiyini, informasiya texnologiyaları üzrə yüksəkixtisaslı, böyük elmi-praktik təcrübəyə malik, innovativ təfəkkürlü kadrların, xüsusən də proqram mühəndislərinin hazırlanmasına tələbatın artdığını bildirdi. Söylədi ki, ölkəmizdə elm və təhsilin inkişafına daim xüsusi diqqət və qayğı göstərilir. İKT-nin bu sahələrdə tətbiqi geniş imkanlara yol açır.

R.Əliquliyev bildirdi ki, builki olimpiadada iştirak etmək üçün respublikanın 24 ali təhsil müəssisəsindən 52 komanda qeydiyyatdan keçib və olimpiadanın ilk mərhələsində iştirak edib. Qaydalara müvafiq olaraq, respublika üzrə 12 ali təhsil müəssisənin (Bakı Mühəndislik Universiteti, "ADA" Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Dövlət Universiteti, Moskva Dövlət Universitetinin Bakı filialı, Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Aqrar Universiteti, Azərbaycan Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) hər birindən 1 ən yaxşı nəticə göstərən komanda olimpiadanın ikinci (final) mərhələsinə vəsiqə qazanıb.



Azərbaycanın regionlarını təmsil edən ali təhsil müəssisələrinin komandalarını olimpiadada iştiraka təşviq etmək məqsədilə münsiflər heyətinin qərarı ilə Sumqayıt Dövlət Universitetinin "DEV-SDU", Mingəçevir Dövlət Universitetinin "MDU", Gəncə Dövlət Universitetinin "Nizami" və Azərbaycan Texnologiya Universitetinin "AzeNET" komandalarının da finalda iştirakına imkan yaradılıb.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə ali məktəb tələbələrinin informatika, proqramlaşdırma sahəsindəki bilikləri və bu sahəyə olan marağının artırılmasına, habelə seçilən tələbələrin beynəlxalq olimpiadalara cəlb edilməsinə xidmət edən bilik yarışlarının keçirilməsini təqdirəlayiq hal saydı və final iştirakçılarına uğurlar dilədi.

Təhsil Nazirliyinin Statistika və proqnozlaşdırma şöbəsinin müdir müavini İsmayıl Sadıqov diqqətə çatdırdı ki, builki müsabiqəyə ölkənin müxtəlif orta təhsil məktəblərindən Beynəlxalq İnformatika Olimpiadasında iştirakı nəzərdə tutulan 2 nəfər 8-ci sinif şagirdi də qatılıb.

Olimpiadanın münsiflər heyətinin sədri, BDU-nun dosenti Ramin Mahmudzadə isə qeyd etdi ki, başlıca hədəflərdən biri informatika fənni üzrə respublika olimpiadasının qaliblərini beynəlxalq müsabiqələrə hazırlamaqla Azərbaycanın intellektual yarışlarda yüksək səviyyədə təmsil olunmasına şərait yaratmaqdır.

Bakı Mühəndislik Universitetinin müəllimi Etibar Seyidzadə texniki məsələlər və prosedurlar haqqında məlumat verdi. Bildirdi ki, olimpiada "Ali məktəb tələbələrindən ibarət komandalar arasında proqramlaşdırma üzrə beynəlxalq olimpiada" qaydalarına əsasən keçirilir. Komandalar 1 müəllim və 3 tələbədən (bakalavr) təşkil olunur. Hər ali təhsil müəssisəsi üzrə maksimum 4 komanda olimpiadanın birinci mərhələsinə buraxılır, yalnız bir komanda isə final mərhələsinə vəsiqə qazanır. Müsabiqə zamanı hər komandaya 5 saat ərzində 10 alqoritmik məsələni həll etmək tapşırığı verilir. Finalda ən yaxşı nəticə göstərən 4 komanda qalib elan edilir.

Sonra olimpiada başlandı.

Qeyd edək ki, şəffaflığın təmin olunması üçün müsabiqənin gedişinə institutda quraşdırılmış videomüşahidə sistemi vasitəsilə müəllimlər tərəfindən nəzarət edilirdi.

Qaliblər "Nar" operatoru və "BestComp Group" şirkətinin qiymətli hədiyyələri, həmçinin Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Fəxri fərmanı və diplomlarla mükafatlandırılacaq.

# İngilisdilli tədrisin artması qaçılmazdır

**Oruc MUSTAFAYEV**

Mayın 6-7-də Azərbaycan müəllimlərinin ilk assosiasiyası kimi 20 illik şərəfli tarix yaşamış Azərbaycan İngilis Dili Müəllimləri Birliyi (AzETA) öz tərəfdarlarını Avropa Azərbaycan Məktəbinə toplamışdı. Son 20 il ərzində ölkəmizdə ingilisdilli müəllimlərin peşəkar inkişafında mühüm rol oynamış təşkilatın yubiley tədbirində 160-a yaxın ingilis dili müəllimləri, məktəb direktorları, təhsil mütəxəssisləri iştirak edirdi. Yubiley çərçivəsində keçirilən XII Beynəlxalq konfransda ABŞ, Böyük Britaniya, Gürcüstan, Yaponiya, Özbəkistan, Türkiyədən olan mütəxəssislər XXI əsr şagirdinə dərs deməyin üstünlükləri və çətinliklərindən danışdılar. Təhsil Nazirliyi və "British Council" təşkilatının dəstəyi ilə keçirilən tədbiri AzETA-nın prezidenti Rəqsanə Məmmədova açdı. O, təşkilatın əsasının 1996-cı ildən qoyulduğunu və bu günə kimi ölkəmizin ayrı-ayrı şəhərlərində 9 dayaq məntəqəsinin yaradıldığını bildirərək qurumun çətin və məsuliyyətli inkişaf tarixindən danışaraq ingilis dili müəllimlərinin hazırlanması işində aparılan işlərdən söz açdı. Qeyd olundu ki, AzETA-nın missiyası ölkəmizdə ingilisdilli müəllimlərin peşəkar inkişafında yüksək keyfiyyətli təhsilə dəstək göstərməkdir. Təşkilat artıq 10 ildən çoxdur ki, regional və beynəlxalq konfranslar təşkil edir. Məqsəd təşkilat üzvlərinin öz fikir, təcrübə və biliklərini daha geniş şəkildə paylaşmalarına və peşəkar inkişafına töhfə verməkdir.

Tədbirdə çıxış edən təhsil eksperti, professor Asif Cahangirovun AzETA-nın yaranma tarixi və ingilisdilli tədrisin ölkəmizdə aktuallığı barədə fikirləri maraqla qarşılandı: "Mən hələ 1994-cü ildə Bakı Şəhər Təhsil İdarəsinə rəhbərlik etdiyim dövrdə anlayırdım ki, təhsili inkişaf etdirən yeni qurumlar yaranmalıdır. Müəllimlər, direktorlar, direktor müavinlərinin assosiasiyaları yaranmalıdır ki, təhsili inkişaf etdirsin. Çünki tədris prosesinin, təhsilin özünün dərinliklərində olan çətinlikləri, dəyərləri müəllimdən başqa heç kim bilə bilməz. Ona görə də müəllim assosiasiyası təhsili inkişaf etdirən qüvvədir. Onların təhsilimizə töhfəsi daha çoxdur. 20 il əvvəl yaradılan bu təşkilat çox böyük əhəmiyyət kəsb edir".

Qeyd edildi ki, ölkəmizdə ingilisdilli tədrisin artması labüd məsələdir. Əhalinin böyük hissəsi bunu dərk edir. Məhz ingilis dili vasitəsilə dünyaya geniş qapı açılır. İnformasiya mənbələrinə daha böyük imkanlar yaranır. İngilis dili müəllimlərimizin fəaliyyətinə də bu baxımdan qiymət verilməlidir. Bu mənada Azərbaycanın ingilis dili müəllimlərinin böyük bir missiyası var. Biz vaxtilə rus dilində, rus məktəblərində oxumuşuq. Rus dilini mükəmməl öyrənməyə səy göstərmişik.

"Lakin tarix göstərdi ki, ingilis dili vasitəsi ilə biz daha geniş biliklər arealına daxil ola bilərik. İngilis dili vasitəsi ilə ölkənin sosial-iqtisadi inkişafına təkan verə, dəstək ola bilərik. Bizim gənclərin ingilis dilini öyrənmələri, mən deyərdim ki, strateji məsələlərdən biridir. Bu, çox həyati əhəmiyyət daşıyan məsələdir. Biz onu görürük ki, ingilis dilində təhsil alan tələbələrimiz yerli tələbələrdən daha çox bilik və bacarıqlara malikdir", - deyən təhsil eksperti bir faktı iştirakçıların diqqətinə çatdırdı: "2000-ci ildə İsveçdə olarkən bu ölkədə ingilis dilinin əhəmiyyətinə dair maraqlı bir faktla rastlaşdım. Ölkədə əhalinin ingilis dilinə marağının artmasının səbəbləri barədə tədqiqat aparılmışdı. Hansı səbəbdən bu ölkədə ingilis dili bu qədər inkişaf edib? Tədqiqatlar göstərib ki, başlanğıcda bu məsələdə nə məktəbin, nə cəmiyyətin, nə də dövlətin rolu olub. Ən böyük rolu bu ölkədə o dövrdə məşhur olan "ABBA" instrumental ansamblı oynayıb. Onların bütün mahnıları ingilis dilində olub. Onun musiqiləri o qədər cəlbedici idi ki, gənclər onların oxuduğu mahnıların mənasını öyrənməyə cəhd edirdilər. Ona görə də ingilis dilini daha dərindən öyrənməyə səy göstərirdilər. Və təhsil müəssisələri, dövlət görəndə ki, bu dilə belə böyük maraq var, ingilisdilli tədrisi, dərslikləri tam dəyişdiriblər. Onu daha təkmil ediblər. İngilis dilinin tədrisinə yanaşmalarını dəyişiblər. Nəticədə indi İsveçdə ingilis dili dövlət dili olmasa da, ana dili səviyyəsində tədris olunur. Bizdə isveçlilərin ingilis dilində oxuyan ansamblı olmasa da, müəllimlərimiz var. Əgər hər biriniz öz məktəbinizdə 100-200 şagirdə ingilis dilində sərbəst danışmağı, anlamağı, fikrini mükəmməl ifadə etməyi öyrədə bilsəniz, bu, bizim böyük uğurumuz olar".

Tədbirdə çıxış edən tərcümə professoru, 1996-cı ildə AzETA yaradılarkən təşkilatın ilk rəhbəri olmuş, sonradan isə onu gənclərə təhvil vermiş Qılıncxan Bayramov Azərbaycanın ingilisdilli müəllimlərinin fəaliyyətinə nəzər saldı. İngilis dilinin əhəmiyyətindən danışan professor qeyd etdi ki, bu dil dünyaya bir çıxışdır. İngilis dili dünyanın 60 ölkəsində dövlət dilidir. Dünya əhalisinin 45 faizi ingilis dilində danışır. Bu onu göstərir ki, biz bu dili öyrənək. İngilis dilinin tədrisi və bu sahədə peşəkar müəllim hazırlığı problemlərindən danışan Q.Bayramov qeyd edib ki, təhsili və tədris prosesini bu sahəni mükəmməl bilənlər, bilavasitə tədrislə məşğul olanlar idarə etməlidir. O, daim dərsin içində olmalıdır. Məktəbin, şagirdin qayğısına qalmalıdır. Alim ingilis dilinin tədrisindən danışarkən bu sahədə mövcud olan müxtəlif dil variantlarına toxunub: "İndi ingilis dilinin Britaniya, ABŞ, Kanada variantlarından danışırlar. Lakin biz klassik ingilis dilindən danışa bilərik. Axı biz ingilis dilinin klassik variantını öyrənmişik. Buna görə də ingilis dilini tədris edən müəllimlər bu dilin ruhunu çatdıra bilməlidirlər". Onun sözlərinə görə, yeni ingilis dili dərslikləri, vəsaitləri yaradılmalıdır. İngilis dilinin tədrisinin yüksək səviyyədə təşkili üçün savadlı ingilis dili kadrları, baza lazımdır.

Daha sonra Türkiyənin təhsil mütəxəssisi doktor Erdem Söylemezin "XXI əsr şagirdinin təhsilində müəllimin rolu", Böyük Britaniyanın ingilis dili mütəxəssisi Les Kirkhamın "İngilis dilinin tədrisində fənlərarası inteqrasiya fonunda XXI əsr şagirdi" mövzularında məruzələri dinlənilib.

Tədbir müxtəlif bölmələrdə məruzələrlə davam edib. Konfransda iştirak edən müəllimlərə sertifikatlar verilib.

# Amerikalı təhsil eksperti təlimlər keçirir

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələrində "İngilis dili mütəxəssisi" layihəsinə start verilib.

Layihənin həyata keçirilməsində əsas məqsəd xarici dilin tədrisi üzrə mövcud ehtiyaclar, tələblər əsasında müəllimlərə müvafiq dəstəyin göstərilməsi və beynəlxalq təcrübənin yerli arenada tətbiqi sahəsində müəllimlərin peşəkar inkişafı üçün səmərəli platforma yaratmaqdan ibarətdir.

Layihə Bakı Şəhəri üzrə Təhsil İdarəsi və Amerikanın Azərbaycandakı səfirliyinin birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir.

Layihə çərçivəsində amerikalı təhsil eksperti Rey Roberts mütəmadi olaraq ümumi təhsil məktəblərində fəaliyyət göstərən ingilis dili müəllimlərinə, eləcə də Təlimə Dəstək Mərkəzinin müxtəlif struktur bölmələrində fəaliyyət göstərən mentorlarına "Sinfin idarə olunması" komponenti üzrə təlimlər keçirir.

Təhsil eksperti eyni zamanda bir neçə ümumi təhsil məktəbində dil dərslərini müşahidə edir və dərslərin yekununda müəllimlərə inkişafetdirici rəy verir.

# Qloballaşmadan doğan təhsil sistemi

## Sərt Sinqapur modeli dünyanı təəccübləndirməkdə davam edir

⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Ancaq islahatlara başlamazdan əvvəlki reallıq ondan ibarət idi ki, təhsilə vahid sistem şəklində baxmaq mümkün deyildi. Britaniya təhsil sisteminin elementləri ilə yanaşı, qonşu Çinin güclü təsiri nəticəsiz ötüşmürdü, məktəblərin böyük bir qismi Çindən maliyyələşirdi, çincə dominantlıq edirdi. 1950-ci illərin sonlarında Sinqapur üçüncü dünya dövlətlərinə xas parçalanmış cəmiyyəti, tam asılı iqtisadiyyatı və inkişaf etməmiş siyasi institutları olan sıradan bir ölkə idi. Müstəmləkə sistemi nə tam mövcud idi, nə də süqut etmişdi, qonşuluqdakı kommunist rejimlər getdikcə güclənirdilər, qaçılmaz qloballaşma haqqında isə siyasətçi və iqtisadçılardan daha çox Qərbmeyilli intellektuallar danışırdılar. Məhz belə bir gerçəklikdə meydana çıxan dünyaya yeni baxışlı idarəçilər komandası başda 35 yaşlı Li Kuan Yunun rəhbərliyi ilə inanılmaz sıçrayışa nail oldu. Qısa dövr ərzində Sinqapur üçüncü dünya dövlətlərindən aralanaraq "elita"ya qədər dəyişməyə nail oldu.

### İslahatların əsas təkanverici nöqtəsi

Bu tarixi transformasiyanın başlıca uğuru tətbiq edilən islahatlarda məcburiyyət faktorunun öncül mövqeyə çıxarılması idi. İslahatlar cəmiyyətin bütün sferalarını əhatə etmişdi, iqtisadiyyatdan tutmuş siyasətədək. Bu gün iqtisadi rifahı hədsiz yüksək, demokratik təsisatların isə inkişaf etmiş olmasına baxmayaraq, həmin o dəyişikliklərin məhsulu olan təhsil sistemindəki proses müəyyən mənada sərt xarakter daşımaqdadır. Li Kuanın tək bir deyimi bu islahatların fəlsəfəsini əks etdirir: "İngilis dilini hamı bilməlidir, ana dili isə ikinci dil olmalıdır". Aydın məsələdir ki, onun bu sözləri tənqidsiz ötüşməyəcəkdi, ancaq bugünkü reallıq Yunun nə qədər gerçəkçi olduğunu sübut edir. 35 yaşlı novator yaxşı başa düşürdü ki, ingilis dilsiz tərəqqi etmiş iqtisadiyyatları olan dövlətlər birliyində təmsil olunmaq və güclənən Çinin kommunist təmayüllü cəmiyyət quruculuğu prosesinin təzyiqlərindən qurtulmaq mümkün olmayacaq.

Təsadüfi deyil ki, islahatların əsas təkanverici nöqtəsi təhsil oldu. Sinqapur təbii ehtiyatlara malik olmayan kiçik şəhər-dövlətdir. Bu səbəbdən innovasiya müəllifləri anlayırdılar ki, irəliyə getmək üçün müasir və rəqabətə dözümlü təhsil institutları formalaşdırılmalıdır. Buna görə də intellektual modernləşmənin əsas missiyası peşəkarların yetişdirilməsinə yönəlmişdi. Savad millətin sosiomədəni birliyini təmin etməli idi. Təhsil sistemi bütünlüklə ingilis dilinə əsaslanan bilinqvizm (Sinqapurun müxtəlif etnik və mədəni qrupları üçün neytral ünsiyyət dili olaraq ingilis dilinin qəbul edilməsi) prinsiplərinin üzərində quruldu. Demək olmaz ki, bu xətt cəmiyyətdə narazılıqlara səbəb olmadı. İlkin mərhələdə islahatçıları kosmopolit adlandıranlar oldu, onları milli özünüdərkə zərbə vurmaqda, milli identikliyin itirilməsində günahlandıranlar çox idi. İllər sonra isə ittihamlara tam zidd mənzərə ortaya çıxdı: məcburi ingilis dilinin tətbiqi, sonra isə ədəbi çincənin inkişafı və milli azlıqların ana dillərinin mühafizəsi şərtilə təhsilin Sinqapur modeli.

### Bilik və bacarıqları kənara qoyun. Dəyişməyə nə qədər hazırsınız?

Sinqapurun təhsil modeli qabarıq formada göstərir ki, qlobal iqtisadiyyatın məktəbdən tələb etdikləri bizim təsəvvürlərimizdən köklü şəkildə fərqlidir. Bu gün əsas tələb bilik və bacarıqlar deyil, dəyişməyə nə qədər hazır olmağımızdır. İnsanların komanda halında effektiv işləmək bacarığı olduqca mühüm amilə çevrilib.



Çağırışları düzgün dərk etmək, yeni ideyalar irəli sürmək bacarıqları bu kontekstdə prioritet amillərdir. Sinqapurda bütün bu dəyişikliklər Təhsil Nazirliyi tərəfindən mütəmadi monitorinq edilir. Nazirlik yeniliklərin başlıca təşəbbüskarıdır və hər iki ildən bir ölkənin təhsil siyasətinə yeni nəyisə əlavə, yaxud köhnə nəyisə aktuallığını itirməsi səbəbilə ixtisar edir.

Sinqapurun Təhsil Nazirliyində məmur işləmir. Nazirliyin işçilərini üç kateqoriyaya bölürlər: siyasətçilər, inzibatçılar və pedaqoq-professionallar. Nazirliyin ştatı bizlər üçün böyük görünə bilər: 3 min nəfər! Bu kontingentin tən yarısı məktəblərlə işləyən psixoloqlardan ibarətdir. Ölkədə 40 min nəfər müəllim var. Onlar 360 məktəb, 15 kollec və 1,6 min özəl məktəbəqədər müəssisələrdə işləyirlər. Hazırda hökumət ayrıca Məktəbəqədər Təhsil Nazirliyini yaratmaq barədə düşünür.

**Nazirliyin sistemin bütün işçilərindən olduqca sərt tələbləri var və hamı onlara riayət etməlidir. Sistemin öz təsir agentləri var. Bunlar ilk növbədə məktəb direktorlarıdır. Onlar yüksək təhsil və mədəniyyətə sahib, dəyişikliklərin önündə dura biləcək, çoxmillətli Sinqapurun ənənələrinə hörmət edən və hər an öyrətməyə hazır olan liderlərdir. Nazirliyin siyasətinin əsas daşıyıcıları da məhz onlardır.**

Nazirliyin sistemin bütün işçilərindən olduqca sərt tələbləri var və hamı onlara riayət etməlidir. Sistemin öz təsir agentləri var. Bunlar ilk növbədə məktəb direktorlarıdır. Onlar yüksək təhsil və mədəniyyətə sahib, dəyişikliklərin önündə dura biləcək, çoxmillətli Sinqapurun ənənələrinə hörmət edən və hər an öyrətməyə hazır olan liderlərdir. Nazirliyin siyasətinin əsas daşıyıcıları da məhz onlardır.

İkinci xətdə müəllimlər gəlir. Dövlət müəllimin yetişdirilməsi və qayğısını xüsusi nəvazişlə həyata keçirir. Sinqapurda müəllim peşəsi böyük hörmətə malikdir, imtahanlarda iştirak edən müəllimlərin yalnız 30%-i təhsil ocaqlarında işləmək imkanı qazanır. Müəllimlərin karyera yüksəlişi 3 sadə qaydaya əsaslanır: pedaqoji, inzibati və metodiki. Hər il müəllim 100 saatlıq hazırlıq keçməli və sonda məcburi imtahan verməlidir. Nəticə onun gələcək aqibətini müəyyən edir.

### Valideyn: yaxında, amma kənarda

Valideynlər Sinqapur təhsil modelinin xüsusi kateqoriya təmsilçiləridirlər. Ekspertlər valideynləri "sistemdənkənar siyasi yardımçılar" kimi qiymətləndirirlər. Burada bir məqamı xüsusilə qeyd etmək lazımdır: Sinqapurda valideynlər həmişə məktəbin yanındadırlar, ancaq hər hansı müdaxilədən söhbət belə gedə bilməz. Yalnız dəstək və kömək! Etimad və məlumatlılıq! Hörmət və bərabərlik! Bir az konkretləşdirək: Sinqapur təhsil sistemi iştirakçıların ciddi riayət olunan iyerarxiyası və eyni zamanda tam bərabərliyinə əsaslanır. Şagirddən tutmuş nazirədək hamı özünü böyük təhsil layihəsinin tərkib hissəsi hesab edir və əmindir ki, "millətin və dövlətin həyatı"nda, uğurunda əvəzolunmaz xidmətlər göstərir.

*MƏKTƏB.* Sinqapurda məktəbəqədər təhsil 3-6 yaşlarını əhatə edir. Uşaq bağçalarında uşaqlara ünsiyyəti, ana dilini və hesabı, habelə ingilis dilini öyrədirlər. Bütün uşaq bağçaları özəldir, onlardan bəziləri dini icmalar və fondların himayəsindədirlər.

Edunews.ru-nun məlumatına görə, orta məktəb 6 yaşdan başlayır və iki mərhələyə bölünür: 1-4 cü (əsas) və 5-6-cı siniflər (təmayüllü). Orta təhsil almaq məcburi və pulsuzdur. Əsas mərhələnin proqramına ingilis və ana dili (tamil, malay və Çin dili), riyaziyyat, vətəndaşlığın əsasları, məcburi rəsm, bədən tərbiyəsi və musiqi dərsləri daxildir. 3-cü sinifdən texniki fənlərin keçilməsinə başlanılır. Təhsil başa çatdıqda növbəti mərhələyə keçmək üçün imtahan (PSLE) verilir.

Orta məktəb bir neçə istiqamətə bölünür: xüsusi, "ekspress", akademik və texniki. Uşaqlar məhz həmin PSLE imtahanlarının nəticələrindən asılı olaraq bu istiqamətlər üzrə paylaşdırılırlar. Orta məktəbdə təhsil adətən 4 il davam edir, ancaq onun akademik və inteqrə edilmiş profilliyi baxımından 5-6 il də çəkə bilər. Xüsusi və "ekspress" təhsili akademik və texnikidən fərqləndirən cəhətlər var. İlk iki istiqamət ana dilinin daha dərin tədrisini nəzərdə tutur. Bu istiqamətləri bitirən şagirdlər imtahan verib tam orta təhsil attestatını alırlar (O-Level). Akademik və texniki istiqaməti bitirənlər isə N-səviyyəli attestata (N-Level) yiyələnirlər. İkinci səviyyə birincidən aşağı hesab olunur. Ona görə də O-Level sahibləri kollec, institut və texnikumlara, N-Level alanlar isə texnoloji və mərkəzləşdirilmiş institutlara daxil olurlar.

Orta məktəbi bitirəndən sonra məzunlar təhsillərini məktəbdən sonrakı təhsil müəssisələrində davam etdirə bilərlər. Bunlara natamam kolleclər, texnikumlar və texniki təhsil institutları aiddir.

Natamam kolleclərdə oxumaq üçün O-Level attestatı kifayət edir və 2 il çəkir. Bitirdikdən sonra onlara A-Level attestatı verilir.

Texnikumlarda isə təhsil O-Level attestatı ilə 3 il çəkir. Aldıqları diplom onların universitetlərə girməsinə yetərli sayılmır, ancaq xüsusi istedadlılara belə imkanlar yaradılır.

Texniki təhsil institutları O-Level və N-Level attestatları olanları qəbul edirlər. Təhsil 1-2 il davam edir. Bitirdikdən sonra yaxşı oxumuş uşaqlara diplom almaq üçün texnikumlara daxil olmaq şansı verilir.

*ALİ TƏHSİL.* Universitetlərə daxil olmaq üçün natamam kollecləri bitirənlər qəbul imtahanları verməli, əlavə dərs və seksiyalarda iştiraklarını təsdiq edən sənədlər təqdim etməli, lazım gələrsə, xüsusi sınaqlardan - müsahibələrdən keçməlidirlər.

Texnikum məzunları O-Level attestatlarını və davamiyyət göstəricilərini təqdim etməli, müsahibə yolu ilə əlavə imtahan verməlidirlər.

Sinqapur universitetlərində bakalavr təhsili 3-4, magistr pilləsi 1-3 ili əhatə edir. Elmlər doktoru olmağa 2,5 il sərf olunur. Ölkədə 3 dövlət universiteti var: Nyanyanq şəhərinin Texnoloji Universiteti, Sinqapurun Milli Universiteti və Sinqapur Menecment Universiteti. Son zamanlar Qərb universitetlərinin filialları da fəaliyyət göstərməyə başlayıblar.

### Tənqidsiz islahat?

Sinqapurun təhsil sistemi həddindən ziyadə sərt və elitarlığa hesablanmış model kimi tənqid olunur. Bildirilir ki, Qərbdəki sistemlərdən fərqli olaraq Sinqapurda kreativliyə imkan verilmir. Hazırkı sistemin müdafiəçiləri deyirlər ki, nə qədər tənqid etsəniz də, bizim şagird və tələbələr hər il dünya üzrə yüksək göstəricilərə sahib olurlar. Tənqidçilər isə buna cavab olaraq bildirirlər ki, bu göstəricilər düşüncə səviyyəsi deyil, uşaqların və gənclərin konkret beynəlxalq yarışlara hazılandıqlarının məhsuludur.

Desək ki, Təhsil Nazirliyi bu tənqidləri qulaqardına vurur, yanlışlıq olar. Sinqapur modelinin özəlliyi budur ki, hökumət sərt xətti davam etdirir, ancaq tənqidləri nəzərə almaqla: şagird və tələbələrin yaradıcı və tənqidi dünyagörüşlərinin inkişaf etdirilməsi istiqamətində müxtəlif layihələr həyata keçirilir.

Təhsilin Sinqapur modelini çox vaxt Cənubi-Şərqi Asiya xalqlarının mətbəxinə bənzədirlər: eyni zamanda turşməzə, acı və şirin, hərdən çox acı, amma hədsiz dadlı. Həm unudulmaz, həm də tanış. Sinqapur təhsil sisteminin də inqrediyentləri bu mətbəx kimidir - dünyanın dörd bir yanından toplanıb Sinqapura cəlb edilən ənənələrə söykənərək elə həmin dünyaya ixrac edilən unikal mütəxəssislər yetişdirən müəssisə. Sinqapurun "sərhədsiz təhsil"ini bundan yaxşı necə tərif etmək olar?

**P.S.** *Sinqapur hökumətində dünyanın fərqli guşələrindən ağıllı adamları "oğurlayıb" onlardan yararlanmaq üçün ölkəyə cəlb edən xüsusi vəzifə də var...*

# ELAN

## ÜMUMİ VƏ TAM ORTA TƏHSİL SƏVİYYƏSİ ÜZRƏ DƏRSLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ SAHƏSİNDƏ EKSPERT XİDMƏTLƏRİ

**Xidmətlər haqqında qısa məlumat:** Dərsliklərin qiymətləndirilməsi “Dərslikləri qiymətləndirmə meyarları”na əsasən Azərbaycan Respublikası Təhsil Nazirliyinin yanında fəaliyyət göstərən Dərslikləri Qiymətləndirmə Şurası (bundan sonra Şura) tərəfindən həyata keçirilir. Şura müstəqil qurumdur və əsas funksiyası ümumtəhsil məktəblərində istifadə ediləcək dərslik komplektləri (DK) üzrə ekspert qrupları formalaşdırmaqla onların qiymətləndirilməsi prosesini təşkil etməkdən ibarətdir. Seçilmiş ekspertlər dərslik komplektlərinin dövlət standartlarına və təhsil proqramına (kurikuluma) uyğunluğunu, onların məzmununun elmi etibarlılığını və sosial həssaslığını, pedaqoji yanaşmalarını, bədii tərtibatını və dizaynını, dil və yazı üslubunu qiymətləndirəcəklər.

**Tələb olunan xidmətlər:** ***Ümumi və tam orta təhsil səviyyəsinin aşağıdakı fənləri üzrə ekspert xidmətləri:***

- Azərbaycan dili (tədris dili kimi)
- Azərbaycan dili (dövlət dili kimi)
- Ədəbiyyat
- İngilis dili (əsas xarici dil kimi)
- Alman dili (əsas xarici dil kimi)
- Riyaziyyat
- Coğrafiya
- Biologiya
- Texnologiya
- Həyat bilgisi
- Çağırışaqədərki hazırlıq
- Русский язык (как язык обучения)
- Литература
- Математика
- География
- Физическое воспитание
- Технология
- Познание мира
- Допризывная подготовка

**Xidmətlərin icra olunduğu yer:** Azərbaycan Respublikası Təhsil Nazirliyi
**Xidmətlərin icra müddəti:** 31.12.2017-ci il tarixə qədər olan müddət
**Namizədlərə verilən tələblər:**

1. *Təhsili:* Namizəd müraciət etdiyi xidmətlərin istiqamətinə uyğun ali təhsilə malik olmalıdır.
2. *Təcrübəsi:* Namizəd müraciət etdiyi fənnə uyğun ən azı 5 illik pedaqoji və ya elmi təcrübəyə malik olmalıdır.
3. *İKT-dən istifadə bacarıqları:* Namizəd Microsoft Word proqramından istifadə etməyi bacarmalıdır.

**Müraciət forması:** Müraciət edən şəxslər müraciət etdiyi fənni göstərmək şərti ilə elana əlavə olunmuş formada öz avtobioqrafiyasını (CV) 30.06.2017-ci il tarixədək **aynure.hesenova@edu.gov.az** elektron poçtuna göndərə bilərlər.

**Müraciətə baxılması:** Daxil olan CV-lər əsasında tələblərə cavab verən namizədlər seçilərək onlardan müraciət etdiyi fənn üzrə ən azı bir dərsliyi qiymətləndirmək istəniləcəkdir. Təqdim edilən sınaq qiymətləndirmə əsasında ən uğurlu namizədlər müəyyənləşdiriləcək və onlar müsahibəyə dəvət ediləcəkdir.

**Əlavə məlumatları iş günləri saat 09.00-dan 18.00-dək bu ünvandan almaq olar:**

AZ1008, Bakı şəhəri, Xətai prospekti, 49.
Azərbaycan Respublikası Təhsil Nazirliyi
Əlaqələndirici şəxs: Aynurə Novruz qızı Həsənova
Əlaqə telefonları: (+ 994 012) 599-11-55 (əlavə 5126)
E-poçt: **aynure.hesenova@edu.gov.az**

### Avtobioqrafiya (CV) formatı

**Müraciət edilmiş xidmətin təsviri:** ______________________

**Müraciət edənin:**

1. **Soyadı, adı, atasının adı**: ______________________
2. **Doğum tarixi:** ______________________
3. **Ünvanı:** ______________________

(şəkil üçün yer)

4. **Əlaqə telefonu:**______________ **Elektron poçt ünvanı:**______________
5. **Təhsili:** *[Təhsil aldığı müəssisələrin adları, təhsil müddəti və ixtisas dərəcələri göstərilməklə, təhsili barədə tam məlumat]*: ______________________
6. **Peşəkar cəmiyyətlərdə üzvlüyü**: ______________________
7. **Aldığı təlimlər:** [*5-ci bənddə qeyd olunmayan və tapşırığın yerinə yetirilməsi üçün uyğun bilinən əhəmiyyətli təlimlər*]: ______________________
8. **Bildiyi dillər**: *[Hər bir dildə danışıq, oxu və yazı üzrə bilik səviyyəsi: əla, yaxşı, kafi və ya qeyri-kafi]* ______________________
9. **İş yerləri**: *[Hazırkı iş yerindən başlayaraq, əks ardıcıllıqla bütün daimi iş yerləri: tarixlər, işəgötürənlərin adları, vəzifələrin adları göstərilməklə]*
   **[*İl*]-dən:** _____ **[*İL*]-dək:** _______
   İşəgötürən: ________________
   Vəzifə: ________________
10. **Aldığı tapşırıqların öhdəsindən gəlmək qabiliyyətini ən dəqiq şəkildə göstərən yerinə yetirilmiş layihələr:**

| № | Layihənin adı və təsviri | Sifarişçi | Tarixi və yeri | Layihədə vəzifəsi | Yerinə yetirdiyi tapşırıqlar |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |

__________Tarix: ____________İmza

# “Valideynlərimdən başqa bir də onun yanında həyat dərsi keçdim”

## *Emilya Səfərəliyeva:* “Uşaqların yaxşı nəticələr əldə etməsi üçün ailədaxili münasibətlərin düzgün qurulması vacib şərtdir”

**Jalə MÜTƏLLİMOVA**

“Atam Sumqayıt Polimer Zavodunda baş mühəndis idi. Hər gün nahar vaxtı evə özünü bizdən qabaq çatdırırdı. Uşaqları məktəbdən gələndə evdə olmalı idi. Bəlkə inanmayacaqsınız, beş uşaq hərəmizə əlində bir tikə yeməklə qapını mütləq üzümüzə o açırdı. Biz buna vərdiş eləmişdik. Ayaqqabımızı soyunmadan, əlimizi yeməyə toxundurmadan hərəyə bir tikə yedizdirirdi. Sonra da deyirdi ki, “di indi soyunun ayaqqabılarınızı!”.

O beş uşağın beşi də böyüdü. İkisi həkim, biri hüquqşünas, biri poliqlottərcüməçi, biri məktəb direktoru oldu. Həmsöhbətimiz sonuncudur, məktəb direktoru Emilya Səfərəliyeva.

### Kimdir Emilya Səfərəliyeva?

1980-ci ildə Sumqayıtda ziyalı ailəsində doğulub. Hər iki valideyni müəllimdir. BDU-nun biologiya fakültəsini qırmızı diplomla bitirib. Ailəlidir, iki övladı var. Hazırda Bakı şəhər 36 nömrəli tam orta məktəbin direktorudur.

**Haşiyə:** “Azərbaycan müəllimi” bu sayından etibarən “Məktəb illəri” rubrikası ilə qarşınızda olacaq. Bütün uğurlar məktəbdə qoyulan təməldən başlayır. O üzdən ilk qonağımız da elə təhsil adamıdır. Əslində isə məqsəd təkcə təhsil adamının deyil, müxtəlif tanınan peşə sahiblərinin karyeraya gedən yolunun başlanğıcı, məktəb illəri haqda təəssüratlarını sizlərə təqdim etməkdir.

Emilya Səfərəliyevaya gəlincə, söhbət boyu təkcə məktəb direktoru yox, atasının əlindən bir tikə yeməyi alan balaca qızı, ərköyün yeniyetməni, dərs əlaçısını, tələbə gənci, məmuru və ən əsası, yaxşı bir pedaqoqu da görə bildim. Oxusanız, siz də görəcəksiniz...

*- Atanızın ağır sahədə çalışan mühəndis olduğunu söylədiniz. Belə bir peşə sahibi üçün hər gün qoyduğu qaydaya əməl eləmək maraqlı olduğu qədər də qəribə və çətindir. Daha hansı qəribəliklər var idi, Emilya xanım?..*

- Bizim qəribə süfrə adətlərimiz var. Ata oturmayıbsa, kimsə süfrəyə yaxın getmir. Atam oturar, sonra biz əyləşərik. Atamgilə gedəndə indinin özündə də hərəmizin süfrədə öz yeri var. Başqa yerdə otura bilmərik. Dörd bacıya işi bölüşdürürdü anam. Süfrəni birimiz hazırlayır, sonra birimiz yığışdırardıq. O birimiz qabları yuyur, digərimiz yerləşdirirdik. Bu ənənəmiz hələ davam eləyir. Bircə qardaşım uzaqdadır bizdən, yeri görünür. Türkiyədə çalışır, cərrahdır.

### Atam kimi qayğıkeş kişilər azalır...

- Ya qız, ya oğul övladı olsun, fərq eləməz, həyat dərsini daha çox atadan alır adam. Adamlara fikir verirəm və bəzən atamla müqayisə edirəm. İnsanlarda qayğı və sevgi problemi var. Bu ikisini qarşılıqlı bir-birlərinə ötürə bilmirlər. İndi atam kimi qayğıkeş kişilər çox azdır. Bilirsinizmi, uşaqların yaxşı nəticələr əldə etməsi üçün ailədaxili münasibətlərin düzgün qurulması vacib şərtdir. Mənim atamla anam bu mühiti bizə qura bilmişdilər. Anamdan sevgi, diqqət və qayğı, atamdan bunların üzərinə bir də vicdanlı, ədalətli olmaq öyrəndik biz. Məsələn, bizə deyirdi ki, mənim qızım uduza bilməz, mənim balalarım pis oxuya bilməz, yalan danışa bilməz, vicdansızlıq edə bilməz, ədalətsiz ola bilməz, oğurluq əlindən gəlməz. Biz beş uşaq, hər birimiz eləməkdən çəkindiyimiz bütün səhvləri eləməmişiksə, bunu atama borcluyuq. İndi ailələrdə həm də bu məsələdə böyük problem var. Fikir verirəm, valideynlər uşaqlarını əyləncə mərkəzlərinə aparanda belə onlarla ünsiyyəti lazımi qədər qurmurlar. Oyun zallarında uşağın oyun üçün ödənişini edib nəzarətçiyə təhvil verirlər. Zamanı bitənə qədər telefonda sosial şəbəkədə olurlar. Bu, tam qadağan olunsun demirəm. Müasir dövrdə internet, sosial şəbəkəsiz mümkün deyil. Demək istədiyim odur ki, diqqətdən kənarda qalan uşaqları sonradan toparlamaq çətin olur.

Bizim dövrdə məktəb zamanı müəllimlər məktəbdə, valideynlər də evdə bir suala o qədər ətraflı cavab verirdilər ki, bəzən özümüz də az qala sualı verdiyimizə peşman olurduq.

*- Atanız indi hansı işlə məşğuldur?*

- Sumqayıt Dövlət Universitetində baş müəllimdir. Anam isə təqaüddə olan müəllimdir.

### Bəsirə müəllimin məktəbi...

*- Sumqayıtda hansı məktəbi bitirmisiniz?*

- Ailə vəziyyətimizə görə bir neçə məktəb dəyişmişəm. İbtidai sinfi Sumqayıtda 33 nömrəli məktəbdə oxudum. Sonra beş uşağı olduğu üçün atama dördotaqlı mənzil verdilər. Biz də 33-dən gedəsi olduq. Atamın qızıl qaydası var idi. Məktəb və bağça evə yaxın olmalıdır ki, anamız da çox əziyyət çəkməsin. İki il 35 nömrəli məktəbdə oxudum. Sonra həyatımda və bacarıqlarımın formalaşmasında böyük xidmətləri olan məktəbə gəldim. Sumqayıtın “Təfəkkür” liseyinə. Ora mənə təxminən ata-anamın öyrətdiklərinin davamını öyrədən təhsil ocağı oldu. Çox şeylər öyrənirdim. O qədər fərqli və maraqlı görüşlər, tədbirlər keçirilirdi, adam günü necə başa vurduğunu anlamırdı. O məktəbin ənənəsi var idi. Və öz təcrübəmə arxalanıb deyə bilərəm ki, ənənəsi olan bütün məktəblər öndə gedən və güclü məktəblər olub həmişə. Bura Sumqayıtda çox adam Bəsirə müəllimin məktəbi deyirdi. Bu barədə yenə danışarıq. İndi qoyun yadıma düşmüşkən sizə Sona müəllimdən danışım.

### Sona müəllimə borcluyam...

- Bilmirəm bu hər kəsdə belədir, ya yox? İş və şəxsi həyatımda mənə dərs deyən müəllimlərin rolu böyük olub. Orta məktəbdə rus bölməsində oxumuşam. Azərbaycan dili müəllimim vardı, Sona xanım. Hər dəfə onun haqqında danışanda qəribə oluram. O, izaholunmaz dərəcədə gözəl pedaqoq, insandır. Rus bölməsində oxuyan uşaqlara Azərbaycan dilini, ədəbiyyatını o qədər gözəl və ətraflı anladır, izah eləyirdi ki, adam dərsi oxumamağa utanırdı. Ona görə rus bölməsini bitirən biri üçün mən çox səlis Azərbaycan dili bilirəm. Mütaliə bacarığım, geniş söz bazam var. Bütün bunları Sona müəllimə borcluyam. O, indi də çalışır. Təhsil sahəsində əvəzolunmaz kadrlardandır.

### Valentina Alekseyevna...

- Tarix müəllimim idi Valentina Alekseyevna. Onun sayəsində həyatım kökündən dəyişib, deyə bilərəm. Çox cavan yaşımda Sumqayıt Dövlət Universitetində rektor köməkçisi vəzifəsinə təyin olundum. Detallara varmıram, amma olduğu yerlərdə haqqımda o qədər danışıb ki, ad və soyadımdan onun tələbəsi olduğumu anlamışdılar. Söylədilər ki, Valentina Alekseyevnanın təriflədiyi tələbə sıradan biri ola bilməz. Düzü, mən onda çox çəkindim. Bilmədiyim mühit, tanımadığım adamlar, rəsmi tədbirlər məni qorxudurdu. Amma onu da anlayırdım ki, bu mənim üçün cizilən həyat, karyeraya gedən yoldur. Daha doğrusu, o yolun başlanğıcıdır.

### Cəmi 19 yaşım vardı...

- Çox qısa zamanda universitet köməkçisi vəzifəsində çalışdım. Bir gün dedilər səni Sumqayıt Şəhər İcra Hakimiyyətinə çağırırlar. Az qaldım ağlayam. Düşündüm görəsən, neynəmişəm, belə bir çağırış gəlib? Cəmi 19 yaşım vardı. Ağlıma başqa nəsə gətirə bilmirdim. Evə xəbər edib getdim və daha universitetə qayıtmadım. Məni işə dəvət etmək üçün çağırırlarmış. O illər üçün 19 yaşlı qızın icra strukturunda işləməsi həm böyük olay sayılırdı, həm də ciddi məsuliyyət idi. Amma başladım və deyəsən, o qədər də pis alınmadı...

***

- Bayaq demişdim ki, sizə həyatımda xüsusi rolu olan bir müəllimdən danışacağam, Bəsirə müəllimdən. Bizim “Təfəkkür” liseyini Sumqayıtda çoxu indi də Bəsirə müəllimin məktəbi kimi tanıyır. Ola bilər liseyə gəlmək istəyən biri onun adını söyləyə tanımayalar, amma siz bir adamdan soruşsanız ki, “Bəsirə müəllimin məktəbi haradadır?”, o, mütləq sizə dəqiq ünvan bildirəcək. O qadının fövqəladə peşəkarlığı var idi. Uşaqlar, məktəb həyatının ayrılmaz hissəsi idi. Bayaq sizə dedim ki, atam ailəmizdə daha çox həkimlər görmək istəyirdi. O üzdən mən liseyi bitirəndən sonra sənədlərimi Sumqayıt Tibb Məktəbinə vermişdim. Amma görürdüm ki, mənlik deyil, alınmır. Daha doğrusu, atamın, elə mənim özümün də öyrəndiyim keyfiyyətdə deyil nəticələr. Yenə də atamın böyük arzusu olduğuna görə iki il oxudum. Sonra dəqiq anladım ki, bu peşə mənlik deyil. İndi bu yolu ortancıl bacım və kiçik qardaşım davam edir. Biri reanimatoloq, o biri çənə cərrahıdır. Mənsə sənədlərimi ikinci kursdan götürüb Bakı Dövlət Universitetinə verdim. Qəbul olundum.

### Prezident fərmanlarında gözüm onun adını gəzirdi...

- Ali məktəbdə oxuya-oxuya həm də müəllimlərimlə əlaqə saxlayırdım. Xüsusən Bəsirə müəllim ilə. Çox böyük arzularımdan idi ki, Bəsirə müəllim cənab Prezidentin fərmanlarından birində fəxri adla təltif olunsun. Necə gözlədiyimi bilə bilməzsiniz. Hər təltifdə, siyahıda onun adını axtarırdım. Günlərin birində rast gəldim və uşaq kimi sevindim. Çünki Bəsirə müəllim o ada layiqdir. Buna görə fürsətdən istifadə eləyib Azərbaycan Prezidenti İlham Əliyevə böyük təşəkkürümü bildirirəm.

O qadın məni ağlatdı da, incitdi də, işdən çıxmaq haqda dəfələrlə ərizə yazdım, onu cırıb kənara tulladı da, amma mənə bugünkü insan olmağı öyrətdi sonunda. Mənə işimi, işləməyi öyrətdi. Bugünkü karyeramı ona, Bəsirə müəlliməmə borcluyam.

Sizə bir söz də deyim, ali təhsilimi başa vuran kimi ilk iş yerini də mənə Bəsirə müəllim verdi. Çox sevinirəm ki, valideynlərimdən başqa, bir də onun yanında həyat dərsi keçdim. Müəllim kimi başladım, direktor müavinliyinə kimi yüksəldim. Sonra artıq direktor kimi çalışmağa başladım. İndi Bakının bir neçə məktəbində Bəsirə müəllimin yanında təcrübə keçən, onun məktəbini görən direktorlar çalışır. Hərdən öz aramızda zarafatla deyirik ki, “kim direktor olmaq istəyirsə, əvvəlcə getsin Bəsirə müəllimin yanında təcrübəyə”. Qəribəsi bu idi ki, o qadın yaxşı tələbələrini adbaad yadda saxlayır, sona, karyera qurana qədər izləyirdi. Onun müavini işləyib direktor olanların hamısına ondan bu keyfiyyət miras qalıb.

### Ana, qadın, xanım olduğumu unutmuram...

- Karyerasının ilkin mərhələsində olan çoxlu sayda gözəl gənclərimiz var. İnanıram ki, onlar daha böyük uğurlara imza atacaqlar. Amma onlara, xüsusən də xanımlara bir tövsiyəm var. Harada rəhbər işçi olurlar-olsunlar, heç vaxt köklərini, dövlət və millətini, ana, qadın, xanım olduqlarını unutmasınlar. Atam bizi həmişə yaxşı karyera qurmağa yönəldən adam olub. Anamsa, məsələn, bizə pəncərə şüşəsi silə-silə, yemək hazırlamağı, süfrə qurmağı, ailənin qulluğunda durmağı öyrədib. İndiki gənclərə uşaqlıqdan valideynlər bəzi şeyləri düzgün aşılamır, sonra da gənc nəsli qınayırıq. Qınamadan öncə düşünmək lazımdır ki, sən ona nə vermisən? O, bunu sənə niyə qaytara bilmədi? Bu suala ədalətli cavab tapanda, artıq növbəti mərhələlərdə valideyn səhv etmir və nəticə mütləq müsbət olur. Ümumiyyətlə, insanın bütün problemləri məsuliyyətsizlik, diqqətsizlikdən irəli gəlir. Hər şeyi cəmiyyətin, uşağın və məktəbin üzərinə atmaq olmaz. Anlayıram, indi valideynlər üçün dolanışığı, maddi təminatını düşünmək də vacib məsələdir. Amma bunun sevgi və diqqət ötürə bilmədiyin uşağa o qədər də faydası olmayacaq sonra. Yəni, maddiyyat çox şey ola bilər, amma hər şey deyil...

## “Məktəb illəri”









# Mirzə Ələkbər Sabirin 155 illik yubileyi qeyd edilib

Göygöl rayon Quşqara kənd tam orta məktəbində Mirzə Ələkbər Sabirin 155 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.

Tədbirin keçirilməsində məqsəd şagirdlərdə ədəbiyyat fənninə marağın artırılması, onlarda bədii qiraət bacarıqlarının təkmilləşdirilməsi olub.

Dövlət himni səsləndirilib. Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Şikar Şıxəliyev bildirib ki, Mirzə Ələkbər Sabir çoxəsrlik poeziyamızın parlaq ənənələrini layiqincə yaşatmaqla bərabər, ədəbiyyatımızı keyfiyyətcə yeni mərhələyə yüksəldərək onu ictimai məfkurə baxımından daha da zənginləşdirən söz ustası kimi geniş şöhrət tapmışdır. "Molla Nəsrəddin" jurnalı ətrafında formalaşmış ədəbi cərəyanın aparıcı simalarından olan mütəfəkkir şairin yüksək istedadla yaratdığı əsərlərin başlıca mövzusunu mənəvi saflığa, mədəni yüksəlişə və maariflənməyə çağırış təşkil etmişdir.

Təhsil şöbəsinin əməkdaşları və məktəb kollektivinin iştirak etdiyi tədbirdə şairin "Oxutmuram, əl çəkin", "Əkinçi", "Millət necə tarac olur-olsun, nə işim var", "Bilməm nə gördü bu oğlan oxumaqda", "Şairlərimizə nəzirə" və digər şeirləri söylənilib və müxtəlif səhnəciklər göstərilib.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




# "Həyatda öyrətməkdən gözəl nə var ki..."

*Bahadur İsmayılov: "Şagirdlərdə tarix fənninə, xüsusən, Azərbaycan tarixinə böyük maraq var"*



"Gənc müəllimlərimiz" layihəsinin növbəti qonağı 2016-cı tədris ilindən İmişli rayonunun Ağaməmmədli kənd tam orta məktəbində tarix müəllimi kimi fəaliyyətə başlayan Bahadur İsmayılovdur. Biz gənc müəllimlə görüşmək üçün məktəbdə olduq. Bahadur müəllim V sinifdə Azərbaycan tarixi fənnindən dərs keçirdi. Dərsdən sonra onunla həmsöhbət olduq. Öncə Bahadur müəllim özü haqqında məlumat verdi.

- Mən Hacıqabul rayonunda anadan olmuşam. Tam orta təhsilimi də orada almışam. 2012-ci ildə ADPU-nun tarix fakültəsinə daxil olaraq 2016-cı ildə ali təhsilimi başa vurmuşam. Elə həmin il də müəllimlərin işə qəbulu müsabiqəsində uğurlu nəticə göstərib, müəllim adını qazanmışam.

- *Siz nə üçün işləmək üçün İmişli rayonunu seçdiniz? Yaşadığınız yerdə ixtisasınız üzrə vakant yer olmadı?*

- Bildiyiniz kimi, müəllimlərin işə qəbulu prosesində müsbət yeniliklər var. Bu, çox təqdirəlayiq bir haldır. Savada, biliyə hər vaxt zaval yoxdur. Savadın varsa, buyur, müəllim işlə. Bəli, yaşadığım rayonda ixtisasım üzrə vakant yer olmadı. Mən də valideynlərimlə məsləhətləşib bu rayonu seçdim.

- *Müəllimlik fəaliyyətinizin ilk dövrü necə keçdi?*

- Aydındır ki, yaşayış yerini dəyişmək, tanımadığın bir məkana düşmək, müəyyən problemlər yarada bilər. Belə məqamlarda, təbii ki, çətinliklər istisna deyil. Bura gəlməmişdən öncə mənə çətin olacağını düşünürdüm. Amma ilk günlərdən məktəb rəhbərliyinin, kənd camaatının qayğısı nəticəsində çətinliklərim arxada qaldı. Qalacağım evin sahibi məndən kirayə pulunu almayacağını bildirdi və məni rahat şəraitlə təmin etdi. Bütün bunlar mənə əlavə güc, stimul verdi. Hazırda bu kəndi özümə doğma hesab edirəm.

- *Şagirdlərinizdə tarix fənninə qarşı həvəs nə dərəcədədir?*

- Yaxşı başa düşürdüm ki, başlanğıcdan çox şey asılıdır. İlk dərs günündən hiss etdim ki, şagirdlərdə tarix fənninə, xüsusən, Azərbaycan tarixinə böyük maraq var. Maraq varsa, deməli, müsbət nəticəyə nail olmaq olar. Bir də müəllimin keçdiyi dərsin keyfiyyəti əsas şərtdir. İnanıram ki, yaxın illərdə mənim də şagirdlərim tarix ixtisası üzrə ali məktəblərə daxil olacaq.

- *Məktəbdəki iş şəraiti sizi qane edirmi?*

- Bəli, qane edir. Məktəbimiz yeni tikilmiş binada yerləşir və tədris üçün müəyyən standartlara cavab verir. Qış mövsümündə otaqlarımız batareya sistemi ilə qızdırılır və infrastruktur lazımi səviyyədədir.

- *Müəllimlik peşəsindən ayrılmağınızı nə vaxtsa təsəvvürünüzə gətirirsinizmi?*

- Mən bu peşəni sevərək seçmişəm. Çünki müəllimlik ən uca peşələrdəndir. Ona görə hər gün məndə bu peşəyə sevgi daha da artır. Həyatda öyrətməkdən gözəl nə var ki...

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Şuşasız 25 il"

Abşeron rayonu Xırdalan şəhər 2 nömrəli tam orta məktəbdə Şuşa şəhərinin işğal olunmasının 25-ci ildönümünə həsr olunmuş "Şuşasız 25 il" adlı tədbir keçirilib. Tədbirdə rayon təhsil şöbəsinin əməkdaşları, məktəb rəhbərliyi, müəllim və şagirdlər iştirak ediblər.

Tədbir Dövlət himninin səslənməsi ilə başlayıb. Sonra Şuşanın işğalı zamanı həlak olan insanların xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Çıxış edən məktəbin direktoru Ədalət Camalova erməni vandallarının xalqımızın başına gətirdikləri tarixi müsibətlərdən bəhs edərək Şuşa şəhərinin ermənilər tərəfindən darmadağın edildiyini, tarixi abidələrin məhv olduğunu bildirib. Qeyd edilib ki, dövlət başçısı İlham Əliyevin Dağlıq Qarabağ probleminin həlli istiqamətində apardığı siyasət sayəsində təkcə Şuşa şəhəri deyil, digər işğal altında olan torpaqlar da qısa müddətdə azad ediləcək və elindən-obasından didərgin düşən məcburi köçkünlər öz doğma yurdlarına qayıdacaqlar.

Daha sonra tədbir iştirakçılarına Şuşa şəhəri haqqında videoçarx göstərilib. Şagirdlər vətənpərvərlik ruhunda şeir söyləyib, mahnı oxuyublar.

**Aysel TAHİROVA,**
*Abşeron Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Milli-mənəvi dəyərlər tariximizin yadigarıdır"

Qax şəhər 2 nömrəli məktəb-liseydə ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü ilə əlaqədar olaraq "Milli-mənəvi dəyərlər tariximizin yadigarıdır" mövzusunda tədbir keçirilib. Tədbirdə məktəb-liseyin şagird və müəllim kollektivi iştirak edib.

Şagirdlər tərəfindən milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz, milli geyimlərimiz, musiqimizlə bağlı maraqlı məlumatlar səsləndirilib, səhnəciklər nümayiş etdirilib.

Tədbirin sonunda məktəb-liseyin direktoru Şəkər Abdullayeva çıxış edərək bildirib ki, milli adət-ənənələr, onun əsasında formalaşdırılan dəyərlərdə biz öz mənəvi simamızı göstəririk. Bizim adət-ənənələrimiz keçmişimizlə bu günümüz arasında ən etibarlı körpüdür. Hər bir Azərbaycan vətəndaşı milli-mənəvi dəyərlərimizi qoruyaraq ulularımızın dəyərli mirasının gələcək nəsillərə çatdırılması uğrunda mübarizə aparmalıdır.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "İslam həmrəyliyi: reallıqlar və perspektivlər" mövzusunda konfrans

Mingəçevir Dövlət Universiteti iqtisadiyyat və idarəetmə fakültəsi Tələbə Elmi Cəmiyyətinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümü və 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi münasibətilə "İslam həmrəyliyi: reallıqlar və perspektivlər" mövzusunda elmi konfrans keçirilib.

Mətbuat xidmətindən bildirilib ki, konfransı giriş sözü ilə iqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent Nüşabə Qədimli açaraq Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin təminatçısı olan, bütün dövrlərdə onların qorunmasına çalışan görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin mədəniyyətimizin, elmimizin və təhsilimizin hərtərəfli inkişafı üçün gördüyü işlərin konkret nəticələr verdiyini vurğulayıb. O əlavə edib ki, ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin ən böyük amalı və məqsədi dövlətimizin müstəqilliyinin daimi, insan hüquqlarının qorunmasını rəhbər tutan vətəndaş cəmiyyətinin bərqərar olması idi.

N.Qədimli onu da əlavə edib ki, möhtərəm Prezidentimiz İlham Əliyev də dövlət-din münasibətlərində yaranmış ənənəni bu gün uğurla davam etdirir.

Sonra məruzələr təqdim olunub. MDU-nun tələbələri Elçin Ağamirzəyev "Azərbaycanda islam həmrəyliyinin genişləndirilməsində ümummilli lider Heydər Əliyevin rolu", Murad Nağıyev "Prezident İlham Əliyevin islam həmrəyliyinin möhkəmləndirilməsində möhtəşəm fəaliyyəti və onun mütərəqqi nəticələri" və digər tələbələrin müxtəlif mövzularda məruzələri dinlənilib.

Natiqlər bildiriblər ki, çoxmillətli və çoxkonfessiyalı dövlət kimi Azərbaycan Respublikası bu gün dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir. Azərbaycan hökumətinin din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də dövlət-din münasibətlərinin milli-mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkədə mövcud ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi və etnik-dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir.

# Şahmat festivalının rayon mərhələsi başa çatıb

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş Samux Rayon Təhsil Şöbəsinin tabeliyində şahmat fənni tədris edilən 7 ümumi təhsil məktəbində təhsil alan şagirdlərin iştirakı ilə şahmat yarışı keçirilib. Yarışın keçirilməsində məqsəd "şahmat" fənni tədris olunan pilot ümumi təhsil məktəblərinin şagirdləri arasında respublika şahmat festivalında iştirak edəcək komandanın tərkibini müəyyənləşdirməkdir.

Yarış şahmat fənni tədris olunan 7 təhsil müəssisəsinin (şəhər 1 nömrəli məktəb-lisey, şəhər 2 nömrəli tam orta məktəb, şəhər 3 nömrəli tam orta məktəb, Qarayeri 1 nömrəli məktəb-lisey, Sərkar kənd tam orta məktəbi və Poylu kənd tam orta məktəbi) II-IV sinif şagirdləri arasında keçirilib. Swiss-manager püşkatma proqramı vasitəsi ilə dairəvi komanda şəklində keçirilmiş yarışda 7 məktəb üzrə 42 şagird iştirak edib.

Yarışın sonunda Samux şəhər 3 nömrəli tam orta məktəbi 1, şəhər 2 nömrəli tam orta məktəbi 2 və şəhər 1 nömrəli məktəb-liseyin şagirdləri 3-cü yerə layiq görülərək RTŞ-ın müdiri Gülağa Hüseynov tərəfindən kubok və diplomlarla təltif olunublar.

**Nurəddin BABAYEV,**
*Samux Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# ATU-nun təşəbbüsü ilə Ağstafa məktəbliləri üçün fənn olimpiadası keçirilib

Azərbaycan Texnologiya Universitetinin təşəbbüsü ilə Ağstafada rayon məktəbliləri üçün fənn olimpiadası keçirilib. Olimpiadada rayonun ümumtəhsil məktəblərindən 138 nəfər şagirdin 3 fənn üzrə bilikləri yoxlanılıb. Bir saat davam edən bilik yarışında şagirdlər riyaziyyat, fizika və kimya fənləri üzrə 3 sualı cavablandırıblar. Olimpiadadan sonra şagirdlər universitet tərəfindən təşkil olunan sərgi ilə tanış olublar.

Əvvəlcə ATU-nun tədris şöbəsinin müdiri Piri Axundov şagirdlərə universitet haqqında geniş məlumat verib. O, gələcəyin tələbələrinə ATU-da ölkə iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edən mühəndislik ixtisaslarının vacibliyi və perspektivləri barədə danışıb.

Sonra rayon məktəbliləri sərgidə ATU-nun professor-müəllim heyətinin üzvləri tərəfindən aparılan təcrübələrlə, təbliğat materialları və tələbələrin əl işləri ilə tanış olublar. Universitetin əməkdaşları tərəfindən məktəbliləri maraqlandıran suallara ətraflı cavab və izahatlar verilib.

Sonda ATU-nun incəsənət dərnəklərinin üzvü olan tələbələr tərəfindən sərgi iştirakçıları üçün konsert proqramı təşkil edilib.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Təhsilin keyfiyyəti anlayışı barədə

**Məhbubə MƏMMƏDOVA,**
*“Tərəqqi” liseyinin direktoru, pedaqogika üzrə fəlsəfə doktoru, əməkdar müəllim*



Azərbaycanda aparılan təhsil quruculuğu humanist və demokratik psinsiplərə, söykənməklə daha çox cəmiyyətin ehtiyac və tələbatları əsasında həyata keçirilir. Burada inkişafın mərkəzində dayanan və onu özünün şəxsində daha çox ifadə edə bilməsi ilə fərqlənən vətəndaşdır və hər şeydən öncə, şəxsiyyətdir. Şəxsiyyət amili müasir Azərbaycan təhsilinin işgüzar və daim hamını düşündürən təhsil müstəvisində dayanmışdır. Doğrudur, şəxsiyyət özünün aparıcı roluna görə həmişə diqqət mərkəzində olmuşdur. Lakin bu gün təhsilin inkişaf etdiyi bir zamanda və alimlərin baxımında həmin inkişafın müxtəlif cür dövrləşdiyi bir vaxtda şəxsiyyət təhsil mexanizminin daha yeni bir həlledici amilinə çevrilmişdir. “İnsan ancaq subyekt kimi, şəxsiyyət kimi dialoqa girə bilər. Bu o deməkdir ki, dialoq məkanına daxil olmaq üçün 1) insan münasibətləri mənəvi ölçülərə söykənməlidir; 2) adamlar bir-birlərini şəxsiyyət kimi qavramalıdır; 3) dialoqda birgə əməkdaşlıq, birgə yaradıcılıq aləmi olmalıdır”. Göründüyü kimi, fəaliyyəti prosesində məhz özünü ifadə edən əməkdaşlıq, yaradıcılıq prosesində tərəfdaş olan insan məhz fəal bir subyekt kimi cəmiyyətin fonunda görünür. Özünün əxlaqi-mənəvi keyfiyyətləri, düşüncə tərzi cəmiyyət üçün vacib hesab edilən ünsiyyət bacarıqları ilə diqqəti cəlb edir. Belə olduğu təqdirdə şəxsiyyət özünün bütövlüyü ilə cəmiyyətin təhsil sisteminin məqsədinə çevrilməklə formalaşma tələb edir. O, artıq özünün vasitə olmaq missiyasını itirir. Başqa sözlə, “Yeni dövr mədəniyyəti üçün insan vasitə idi, müasir mədəniyyət üçün məqsəddir; şəxsiyyətin formalaşması və inkişafı onun üçün başlıca məqamdır” (Ə.Ə.Əlizadə).

Artıq müasir təhsil özünün şəxsiyyət kontekstində bir sıra məsələlərin həll olunmasında həlledici addımlar atmaqdadır. Müasir təhsil konsepsiyası şəxsiyyətin formalaşdırılmasını təhsil sisteminin başlıca vəzifəsi kimi dəyərləndirir. Bu vəzifənin yerinə yetirilməsi üçün yeni məzmun, texnologiya və digər vasitələrin olmasına ehtiyac yaranır. Ən başlıca şəxsiyyətdə formalaşması arzu olunanlara aydınlıq gətirilməsi, onların nələrdən ibarət olması və əldə olunmuş bu nəticələrin dəyər xarakteri daşıması və onun hansı mexanizmlərlə ölçülməsi indiki halda suallar doğurur.

“Təhsil keyfiyyəti” və ya “təhsilin keyfiyyəti” anlayışları barədə optimal fikrə gəlmək bilavasitə “keyfiyyət” anlayışının mahiyyəti ilə bağlıdır. Keyfiyyət cəmiyyətin tarixi boyu daim insanları düşündürən bir məsələ kimi müxtəlif fəaliyyətlərin yerinə yetirilməsi prosesini izləmişdir. İnsanlar gördükləri hər hansı bir işin müxtəlif parametrlərdə fərqlənməsini diqqət mərkəzində saxlamış və onunla özlərinin inkişafını nizamlamağa çalışmışlar. Nəticədə cəmiyyətin sosial anlayışı kimi keyfiyyət meydana gəlmişdir. Bütün hadisə və faktları izləyən “keyfiyyət” birmənalı şəkildə daha qabarıq görünmək üçün “kəmiyyət” anlayışı ilə birgə izah edilmişdir. Fəlsəfə lüğətində qeyd olunduğu kimi “keyfiyyət və kəmiyyət obyektin gerçəkliyinin mühüm tərəflərini əks etdirən fəlsəfi kateqoriyalardandır. Keyfiyyət predmetin elə bir müəyyənliyidir ki, bunun sayəsində predmet kimi çıxış edir və digər predmetlərdən fərqlənir, keyfiyyət bir tam kimi predmetlə bağlıdır, onu bütövlükdə əhatə edir və ondan ayrılmazdır”. Bu fəlsəfi yanaşmada keyfiyyətin bütövlük, tamlıq tələb etməsi xüsusi bir cəhət kimi nəzərə çarpır. Başqa sözlə, tam olmayan, yarımçıq təəssürat bağışlayan bir prosesdə keyfiyyətin axtarılması məntiqdən uzaq bir hal kimi görünür. Həm də keyfiyyət olan yerdə məhz heç bir əşyanın təkrarı olmayan özünəməxsus bir əşyanın mövcud olması mühüm xüsusiyyət kimi nəzərə çarpır.

Təhsil özlüyündə müasir dövrün təhsilşünaslıq elmində nəticə, proses, sistem və dəyər olmaqla yanaşı, həm də cəmiyyətin ümumi inkişafı kontekstində mədəniyyətin komponenti kimi təqdim olunur. Eyni zamanda müasir insanın formalaşması vasitəsi kimi izah edilir. Təhsil mədəniyyətin komponenti kimi insanın humanist mahiyyətinin inkişafının əsas vasitəsidir. İnsanın formalaşmasında həlledici rol oynayan bir sistemdir. Onun özünəməxsus məzmun və strukturu vardır. İnsanın formalaşması vasitəsi kimi çıxış edən bu vasitə, yaxud yuxarıda göstərildiyi kimi, nəticə, proses, sistem və ya dəyər məntiqi baxımdan müəyyən dəyişikliklərə və inkişafa malik olmaqla həm də özündə keyfiyyət atributunu daşıyır. Bu səbəbdən də təhsildən söhbət açılarkən onun dəyərlilik əmsalı kimi keyfiyyət göstəricilərinə istinad olunur, ondan danışılır. Belə olduğu təqdirdə təhsilin keyfiyyət anlayışının şərh olunması zərurəti yaranır.

Azərbaycan Respublikasının “Təhsil haqqında” Qanununda göstərilir ki, “Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət standartları əsasında beynəlxalq və ümumavropa təhsil sisteminin prinsiplərinə uyğunlaşdırılaraq təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə (təhsil proqramları), abituriyentlərin hazırlıq səviyyəsi, maddi-texniki baza, infrastruktur, informasiya resursları, təhsilverənlərin peşəkarlığı və elmi-pedaqoji səviyyəsi, mütərəqqi tədris texnologiyaları və s.) uyğun olaraq müəyyən edilir”.

Araşdırmalara əsasən belə qənaətə gəlmək mümkündür ki, insan şəxsiyyətinin formalaşmasında həlledici rol oynayan ümumi təhsil də daxil olmaqla, ümumilikdə təhsilin keyfiyyəti cəmiyyət hadisəsi kimi onun bütövlüyünü və durumunu ifadə etməsi ilə seçilir. Təhsil naziri Mikayıl Cabbarovun qeyd etdiyi kimi, “ümumi təhsildə keyfiyyət dəyişikliyi dedikdə həm şagirdin akademik nailiyyətləri, həm də müəllimlərin peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsi nəzərdə tutulur”.

Təhsilin keyfiyyəti müxtəlif zamanlarda həmişə cəmiyyəti düşündürmüş, onun yüksəldilməsi istiqamətində fəaliyyətlərə sövq edilmişdir. Əlbəttə, bu yanaşmalarda mövqe həmişə eyni olmuşdur. Aparılan təhsil siyasəti onun istiqamətlənməsində rol oynamışdır. Belə ki, təhsilin məzmunyönümlü prinsiplər əsasında qurulduğu dövrlərdə (XX əsrin sonlarına qədərki dövrdə) təhsilin keyfiyyət göstəricisi kimi “4” və “5” qiymət alan şagirdlərin sayı əsas götürülmüş və mahiyyətə varmadan keyfiyyətin səviyyəsi barədə qərarlar qəbul edilmişdir. Bu yanaşmalarda şagirdlərə yazılan qiymətlər əsas götürülmüşdür. Lakin şagirdlərin konkret səviyyəsini ifadə edən göstəricilər olmamışdır. Şagirdlərin müxtəlif pillə və səviyyələrdə inkişaf səviyyələrini göstərən tələblər hazırlanmadığından təhsilalanlara (şagirdlərə) verilən qiymətlər subyektiv xarakter daşımaqla qeyri-müəyyənliyi ifadə etmişdir. Belə yanaşma tərzi ilə müəyyənləşdirilmiş keyfiyyət göstəriciləri də əslində keyfiyyəti ifadə edə bilməmişdir.

Digər tərəfdən, şagirdlərin qiymətləndirilməsində daha çox biliklərin, məlumatların üstün hesab edilməsi və şagirdlərin fəaliyyətində ona geniş yer ayrılması və dəyərləndirilməsi keyfiyyətin dəyərlər əsasında deyil, məhz deklarativ bilik və bacarıqlar üzərində qurulmasını göstərir ki, bu da bütövlük və tamlıqla müşayiət olunan keyfiyyət anlayışının parametrlərinə ziddir.

Pedaqoji araşdırmalarda təhsilin keyfiyyəti anlayışı barədə söhbət açılarkən az və ya çox dərəcədə “bilik keyfiyyəti”, “təlim prosesinin keyfiyyəti”, “təlim keyfiyyəti” anlayışlarından istifadə olunması hallarına da rast gəlinir. Araşdırmalar onu göstərir ki, ümumiyyətlə, təhsillə bağlı keyfiyyət məsələlərinin həll olunmasında, yuxarıda göstərildiyi kimi, anlayışların qarışıq, bir-birinin dublikatı kimi işlənməsi hallarının baş verməsi islahatyönümlü fəaliyyət prosesinin xarakterik xüsusiyyətlərindən biridir və təkcə bu məsələlərdə deyil, pedaqogikanın bir sıra məzmun və texnologiyalarla bağlı digər məsələlərində də belə hallarla rastlaşmaq mümkündür. “Təhsilin keyfiyyəti”, “bilik keyfiyyəti”, “təlim prosesinin keyfiyyəti” və “təlimin keyfiyyəti” anlayışları sadəcə ifadə tərzinə görə eyni olmadığı kimi, mənasına və işlənmə məqamına görə də eyniyyət təşkil etmir. Onu qeyd etmək lazımdır ki, bu, birinci növbədə, həmin ifadələrdə işlənən “bilik”, “təhsil və təlim” leksik vahidlərinin pedaqoji termin olaraq eyniyyət təşkil etməməsi, tamamilə ayrı-ayrı mənalara malik olması ilə əlaqədardır.

“Təlim prosesinin keyfiyyəti” də özünəməxsus mənaya malik pedaqoji anlayışdır. O da konkret mənada bilavasitə öyrənmə prosesi ilə bağlı xüsusiyyətləri əhatə etməklə fərqlənir. Belə ki, təlim prosesinin keyfiyyətinə təhsilin müəyyən mərhələsindəki tələbata uyğun effektivliyi təmin edən təlimin xassələri, əlamətləri və xarakteriskası kimi baxılmalıdır.

Məlumdur ki, təlimin səmərəliliyində onun daha inteqrativ xarakteri ilə müəyyən olunan xassələri, eləcə də inkişafetdiriciliklə müşayiət edilən əlaməti, bütün bu cəhətlərlə birlikdə təqdim olunan və müasirliyi ilə fərqlənən xarakteristikası əsas rol oynayır. Təlimin bir proses kimi keyfiyyətinin formalaşmasında onlar əsas şərt hesab edilir. Lakin bu cəhətlər onu “təhsilin keyfiyyəti” anlayışı ilə eyniləşdirə bilmir.

Təcrübə göstərir ki, müasir dövrdə ümumtəhsil məktəblərinin fəaliyyəti xarakter etibarı ilə iki mühüm xüsusiyyətinə görə diqqəti cəlb edir. Onlardan birincisində daha çox məktəblərin fəaliyyət göstərməsinə üstünlük verilir. Burada normativlərin, əmr və sərəncamların yerinə yetirilməsi, ümumi prosedur qaydaların gözlənilməsi prioritet hesab edilir. Məktəbdə davamiyyətin olması, maddi-texniki və tədris-maddi bazanın möhkəmlənməsinə üstün cəhət kimi yanaşılır. Şagirdlərin deklorativ bilikləri mənimsəmələri fəaliyyətin leytmotivi hesab edilir. İkincisində isə öyrənmə prosesində şagirdlərin inkişafına üstünlük verilir. Onların daha çox dəyərlərə yiyələnməsi istiqamətində iş aparılır. Məntiqi, tənqidi və yaradıcı təfəkkürün inkişafını təmin edən pedaqoji texnologiyalardan istifadə olunur və nailiyyətlərin əldə olunmasında həmin dəyərlər əsas götürülür. Başlıca qənaət də ondan ibarətdir ki, təhsilin keyfiyyətini öyrənmənin keyfiyyəti ilə eyniləşdirmək olmaz. Hər bir təhsil müəssisəsində təlim prosesinin səmərəliliyinin obyektiv meyarı məhz təhsilin keyfiyyət göstəricisi hesab edilməlidir.

*“Təhsilin keyfiyyəti” anlayışı və onun digər anlayışlarla müqayisəsində əsas məqsəd onları ümumi pedaqoji kontekstdə dəyərləndirməklə ümumiləşdirmələr aparmaqdan ibarət olmuşdur. Heç şübhəsiz, təhsilin keyfiyyəti daha geniş kontekstdə başa düşülməklə təlim, tərbiyə, inkişaf məsələləri, onlarla bağlı səmərəliliyi təmin edən tələblər, standartlar nəzərə alınmaqla əldə olunan nəticələrdə öz əksini tapır.* Ümumi təhsilin keyfiyyət göstəricilərində də şagirdlərin inkişafına aid həmin tələblərin olması pedaqoji cəhətdən faydalı bilinir.

Araşdırmalar onu göstərir ki, ümumi təhsilin keyfiyyəti anlayışı təcrübədə də müxtəlif cür qəbul edilir. Müəllimlər öz təcrübələrində şagirdlərin təhsil almasına onun keyfiyyətini təlim proqramlarında müəyyən olunmuş materialların mənimsədilməsi, şagirdlərin əxlaqi-mənəvi cəhətdən inkişaf etdirilməsi kimi baxırlar. Şagirdlərin daha çox bilik qazanmasını üstün cəhət kimi qiymətləndirir, özlərinin təcrübəsində bu istiqamətdə aparılan işlərə daha geniş yer ayırırlar.

Yeni təhsil proqramlarının (kurikulumların) tətbiq olunduğu siniflərdə aparılan müşahidələr onu göstərir ki, müəllimlər bu siniflərdə, əvvəlki təcrübələrində olduğu kimi, yenə də daha çox təlim materiallarını mənimsətmək, deklorativ bilikləri öyrətmək istiqamətində iş aparırlar. Biliklərin mənimsədilməsinə son məqsəd kimi baxmaqla şagirdlərə həyati bacarıqların verilməsi, dəyərlərin aşılanması istiqamətində zəif fəaliyyət göstərirlər. Eyni zamanda müəllimlər təhsilin keyfiyyətini şagirdlərə verilən “4” və “5” qiymətlərlə izah edirlər.

Şagirdlər təhsilin keyfiyyətinə təlim nailiyyəti kimi yanaşırlar, onu təlim materiallarının öyrənilməsi baxımından izah edirlər. Proqram materiallarını daha yaxşı mənimsəməyə çalışır və onu öz fəaliyyətlərinin pioritet istiqaməti kimi qiymətləndirirlər. Valideynləri isə övladlarının ümumi təhsil biliklərini qazanması daha çox maraqlandırır.

Bütün deyilənlər ümumi təhsilin keyfiyyəti anlayışı barədə mülahizələri aşağıdakı kimi yekunlaşdırmağa imkan verir.

Ümumi təhsilin keyfiyyəti üçün zəruri olan komponentlərdən biri gözlənilən nəticələrin, ona uyğun təlim standartlarının müəyyən olunmasıdır. Ümumi təhsilin standartları şagird şəxsiyyətinin müxtəlif parametrlərdən inkişafına aid olmaqla onun səviyyəsini ifadə edir və bütöv bir şəxsiyyət kimi formalaşmasına imkan verir.

Ümumiyyətlə, təhsilin keyfiyyəti anlayışı müasir pedaqoji elmlərin aparıcı anlayışlarından biri olmaqla daha geniş istifadə olunmaqdadır. Onu bilavasitə məktəb təcrübəsi tələb edir. Bu gün başlıca vəzifə bu məsələni daha yaxından araşdırmaqdan, onun bütün parametrlərdə mexanizmlərini işləməkdən ibarətdir.

# Pedaqoqun şeirləri şagirdlərin ifasında




**Yusif ƏLİYEV**

Uşaq şeirləri yazmaq çətindir. Bunu bütün şairlər etiraf edir. Uşaq mahnıları üçün mətnlər yazmaq və ya elə şeirlər yazmaq ki, bəstəkarlar görən kimi ona mahnı bəstələmək həvəsinə düşsünlər, lap çətindir.

Bakıdakı 236 nömrəli tam orta məktəbdə tanınmış pedaqoq-alim, respublika Təhsil Şurasının sədri, professor Əjdər Ağayevlə keçirilən görüşdə bu məlum həqiqət bir daha təsdiqləndi. Bəlli oldu ki, Əjdər müəllim pedaqoji ictimaiyyət arasında şair kimi çox tanınmasa da və ya özünün dediyi kimi, şairlik iddiasında olmasa da yazdığı şeirlər uşaqlar tərəfindən sevilir. Onların xoşladığı çoxlu sayda mahnı da var ki, ifa üçün təqdim edilәndə “Sözləri Əjdər Ağayevindir” deyilir. Görüşdə bunun sirri də açıqlandı. Qeyd olundu ki, bu, Əjdər müəllimin pedaqoqluğundan, uşaq dünyasına, mühitinə, psixologiyasına yaxşı bələdliyindən irəli gəlir. Və bunun belə olduğunu təsdiqləyən nümunələr çoxdur. Elə görüşdə də qeyd olundu ki, uşaq şeirinin böyük ustaları olan Sabirin, Abdulla Şaiqin 100 il bundan öncə uşaqlar üçün yazdıqları əsərlərin indi də xoşa gəlib, zövq oxşaması təkcə onların yüksək istedadının deyil, həm də böyük pedaqoq olmalarının nəticəsidir.

Görünür, elə buna görə də pedaqoq alimlə görüş mahiyyəti etibarı ilə şair Əjdər Ağayevlə görüşə çevrildi. Məktəbin aşağı, orta, yuxarı siniflərindən olan istedadlı şagirdlər Ə.Ağayevin şeirlərini söylədilər, sözlərinə yazılmış mahnıları ifa etdilər, onun əsərləri əsasında hazırlanmış səhnəcik nümayiş etdirdilər. Hətta Əjdər müəllimə suallarını da poeziya, yaradıcılıqla bağlı ünvanladılar.

Ə.Ağayevin ailə üzvlərinin də iştirak etdiyi görüşün əvvəlində məktəbin direktoru Xanlar İmaməliyev tədbirin pedaqoqun bu il tamam olacaq 80 illiyinə həsr olunduğunu dedi, onun elmi, pedaqoji müəllimlik, jurnalist-publisistik fəaliyyətindən qısaca danışdı, rəhbərlik etdiyi Təhsil Şurasının səmərəli fəaliyyətini, təhsil işçiləri arasında populyarlığını Əjdər müəllimin xidməti kimi dəyərləndirdi.

Aparıcılar uşaqların şeir, mahnı təqdimatları ilə növbələşən çıxışlarında Ə.Ağayevin elmi-pedaqoji, publisistik fəaliyyəti, bədii-yaradıcılığı ilə yanaşı ömür yoluna da ayna tutdular.

Tədbirin qonaqları, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin sektor müdiri Sevinc Rəsulova, “Azərbaycan məktəbi” jurnalının baş redaktoru, əməkdar müəllim Nəcəf Nəcəfov və başqaları Əjdər Ağayev haqqında ürək sözlərini söylədilər, yubileyi münasibətilə onu təbrik etdilər. Çıxışlarda Ə.Ağayevin pedaqoq kimi peşəkarlığını, alim kimi səriştəsini, vətəndaş kimi təəssübkeşliyini, insan kimi daşıdığı yüksək mənəvi keyfiyyətləri səciyyələndirən misallar gətirildi, xatirələr söyləndi.

Şagirdlərin çıxışları zamanı onların söylədiyi bəzi şeirlərin yazılma səbəbləri və şəraitinə aydınlıq gətirən pedaqoq-şair tədbirin sonunda onun bədii yaradıcılığına bu qədər bələdlik nümayiş etdirən və şeirlərini məharətlə ifa edən şagirdlərə, görüşə dəvət üçün məktəbin rəhbərliyinə, ədəbi kompozisiya hazırlamaqda və təqdim etməkdə şagirdlərə kömək göstərmiş müəllimlərə, eləcə də haqqında səmimi sözlər deyən çıxışçılara minnətdarlığını bildirdi. Həyat və fəaliyyət yolundan bəzi epizodları xatırladaraq bugünkü görüşün əsas məzmununu təşkil edən bədii yaradıcılıqla, şeir yazmaqla ilk gəncliyindən məşğul olduğunu söylədi. Sonda yubilyarla kollektiv şəkil çəkdirildi.

# Azərbaycan Dövlət Pedaqoji Kollecində sərgi-konfrans



ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində Azərbaycan Milli Kitabxanası və BDU-nun kitabşünaslıq və nəşriyyat işi kafedrasının iştirakı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş “Ulu öndər Heydər Əliyevin Azərbaycan Milli Kitabxanasına hədiyyə etdiyi şəxsi kitabları” mövzusunda sərgi-konfrans keçirilib.

Konfransda Bakı Dövlət Universitetinin kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti, fəlsəfə doktoru Rasim Süleymanov, Yasamal Rayon İcra Hakimiyyətinin nümayəndəsi Zöhrab Cəfərov, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov qonaq qismində iştirak edib.

Əvvəlcə konfrans iştirakçıları ümummilli lider Heydər Əliyevə həsr olunmuş kitab sərgisi ilə tanış oldular. Sonra ulu öndər Heydər Əliyevin kitabxanada 3 iyun 1995-ci il tarixli çıxışına dair qısa videofilmin nümayişi olub.

Konfransı giriş sözü ilə açıq elan edən kollecin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov ulu öndərin həyat yolunun irsinin bugünkü gənclər tərəfindən dərindən öyrənilməsinin əhəmiyyətini vurğuladı.

Bakı Dövlət Universitetinin kitabşünaslıq və nəşriyyat işi kafedrasının dosenti, fəlsəfə doktoru Rasim Süleymanov “Ulu öndər Heydər Əliyevin zəngin irsinin öyrənilməsində kitabların əhəmiyyəti və rolu” mövzusunda məruzə edib.

Azərbaycan Millli Kitabxanasının direktoru, professor Kərim Tahirov “Ulu öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti” mövzusunda çıxış edib.

Konfransın sonunda Milli Kitabxana tərəfindən Azərbaycan Dövlət Pedaqoji Kollecinə qiymətli kitablar hədiyyə olunub.

# Layihələrin reallaşdırılması üzrə təlim keçirilib

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində olan ümumi təhsil müəssisələrində çalışan bir qrup müəllim layihələrin reallaşdırılması üzrə təlimdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun elan etdiyi X qrant müsabiqəsində ümumi təhsil məktəblərində fəaliyyət göstərən müəllimlərin daha fəal iştirakı üçün keçirilən təlimə təşkilati qabiliyyəti yüksək olan 40 müəllim cəlb olunub. Gənclər Fondu, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının peşəkar təlimçiləri tərəfindən keçirilən təlimlər zamanı müəllimlərə layihələrin yazılması və idarəolunması, büdcənin tutulması, qrant müsabiqəsinin mərhələləri və əsas şərtləri barədə geniş məlumat verilib. Layihə barədə müəllimlərin sualları cavablandırılıb, müxtəlif qrup işləri zamanı model layihələrin yazılması istiqamətində səmərəli fikir mübadiləsi aparılıb.

Bildirilib ki, X qrant müsabiqəsində iştirak etmək üçün gənclər təşkilatları və 16-29 yaş həddində olan fiziki şəxslər mayın 15-dək layihə təkliflərini təqdim edə bilər.

# YUNESKO-nun "Qlobal məqsədlər" dərsləri



## *II mövzu:* Ətraf mühitin çirklənməsinin planetimizə və həyatımıza təsiri

*Fənn:* Coğrafiya, təbiətşünaslıq, xarici dil

*Təlimin məqsədi:*

• Ətraf mühitin çirklənməsinin müxtəlif növləri ilə tanış olmaq.

• Ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün müxtəlif üsulları öyrənmək.

• Təsviri sözlərdən istifadə etməyi öyrənmək və tədqiqat vərdişlərinə yiyələnmək.

*Hazırlıq:*

• Müqayisə üçün şəkil hazırlayın.

• Şəkil çap edin və ya monitorda göstərin.

• Televizor və ya proyektoru video göstərmək üçün hazırlayın.

Televizor və ya proyektoru istifadə etmək imkanınız yoxdursa, əlavə 1-də verilmiş şəkli çap edin.

• Hər şagird qrupu üçün açar sözlər hazırlayın.

İnternetdən istifadə imkanınız varsa, əlavə 2-də qeyd olunan praktiki tapşırıqlardan istifadə edin.

• İnternetdən istifadə imkanınız yoxdursa, əlavə 3-dəki sadələşdirilmiş praktiki tapşırıqları çap və istifadə edin.

• Dünya xəritəsindən istifadəni təmin edin (əlavə 4).

• Qlobal məqsədlərə nəzər salın və çirklənmə probleminin onlarla necə əlaqəsi olduğunu izah edin (əlavə 5).

*Qeyd:* Bu dərsi internet olmadan keçmək mümkündür.

*Ümumi vaxt:* 60 dəq.

*Əlavə 1.*

*Təlim tapşırığı* - 5 dəq.

Şagirdlər çirklənmə haqqında qısa videoya baxırlar. www.xxxxxxxxxxx.com

Daha sonra şagirdlərdən videoda gördükləri çirklənmənin bütün növlərini və çirklənmənin ətraf mühitə təsirlərini yazmağı xahiş edin.

Şagirdlərdən doğma şəhərlərində və ya kəndlərində çirklənmənin hansı növünə rast gəldiklərini soruşun.

*Fərdi və alternativ tapşırıqlar:*

Əlavə 1-də çirklənməyə aid olan şəkillər toplusunu göstərin. Şagirdlərdən çirklənmə növünü və onun ətraf mühitə təsirini təsvir etməyi xahiş edin.

*Təlim tapşırığı* - 20 dəq.

Şagirdləri 4 nəfərlik qruplara ayırın. Qrupda olan şagirdlərin hər birində müəyyən çirklənmə növünün səbəblərini və nəticələrini təsvir edən müxtəlif praktiki tapşırıqlar olmalıdır (neft axıntısı, avtomobillərin qazı, polietilen torbalar, zibilliklər, yer altından çıxarılan yanacaqla işləyən elektrostansiyalar, avia uçuşlar, kənd təsərrüfatı üçün kimyəvi preparatlar və suyun sənaye ilə çirklənməsi). Onlar bu məlumatı əlavə 2-də verilmiş linklərdən sərbəst olaraq oxumalı və sözlərin izahını işarələməlidirlər.

Şagirdlər praktiki tapşırıqları yerinə yetirərkən onlara məlum olmayan bəzi anlayışların axtarışı və praktik tapşırıqlarda qeyd olunan çirklənmələrin dünya xəritəsində yerini müəyyənləşdirmək üçün bir neçə dəqiqə vaxt verin (əlavə 4, bax. www/tipii.edu.az/nodupload/editor/fites/Etral-muhit-AN(2)rdf). Bundan sonra şagirdlər növbə ilə öz qruplarına öyrəndikləri praktiki tapşırıqları izah edirlər. Şagirdlərə dinləmə zamanı qeydlər aparmağı təklif edin.

*Fərdi və alternativ tapşırıqlar:*

Şagirdlər internet olmadan əlavə 3-də verilmiş 4 praktiki tapşırıqdan istifadə edə bilərlər.

Azyaşlı və ya daha az hazırlıqlı şagirdlər üçün praktik tapşırıqlar haqqında suallar siyahısı hazırlamaq olar. Öz praktiki tapşırıqlarını izah etdikdən sonra hər bir şagird üçün müxtəlif suallar seçin.

Şagirdlərə dəstək olmaq üçün hər praktiki tapşırığa aid bir neçə "bəli/xeyr" cavabları tələb edən suallar hazırlayın. Şagirdlər bu sualların cavablarını digər şagirdlərin praktiki tapşırıqlarla bağlı izahına qulaq asarkən yazırlar.

*Təlim tapşırığı* -20 dəq.

Hər bir qrupdan oxuduqları çirklənmə növünün qarşısını necə almaq haqqında ideyalarını yazmağı xahiş edin. Daha yaxşı olar ki, şagirdlər çirklənmənin nəticələri ilə mübarizənin necə aparılması haqqında yox, daha çox çirklənmənin əmələ gəlmə səbəblərinin aradan qaldırılması ilə bağlı ideyaları yazsınlar. Şagirdlərə bu tapşırığa yaradıcı yanaşmağa icazə verin və ətraf mühitin çirklənməsinin qarşısının alınması ideyalarının formalaşması üçün onlara kömək etməyə hazır olun.

Şagirdlərdən ətraf mühitin çirklənməsinin qarşısını alan tədbirlərin nəticələrini əks etdirən diaqram qurmağı xahiş edin. Bu tapşırıqda şagirdlər sözlər, simvollar və ya şəkillərdən də istifadə edə bilərlər. Nümunə: Plastik torbalardan az istifadə; dənizə daha az plastik tullantıların atılması; dənizin flora və faunasının xilası.

*Fərdi və alternativ tapşırıqlar:*

Problemlərin həlli yolunu qısaca təsvir etməklə siz bu tapşırığı daha səmərəli planlaşdıra bilərsiniz. Şagirdlər bu qərarları problemlər və praktiki tapşırıqlar ilə düzgün uzlaşdırmalıdırlar.

*Təlim tapşırığı* - 5 dəq.

Qlobal məqsədləri (əlavə 5) təqdim edin və bu məqsədlərin istiqamətlərindən birinin ətraf mühitin yaxşılaşdırılması olduğunu izah edin. Şagirdlər Qlobal məqsədlər haqqında animasiya filminə baxmayıblarsa, dərsin planını bu filmi təqdim etmək üçün uyğunlaşdırın: www.globalgoals.org/worldslargestlesson

*Fərdi və alternativ tapşırıqlar:*

Şagirdlərin Qlobal məqsədlər kimi qlobal təşəbbüslərin üstünlüklərini müzakirə etməyi xahiş edin.

Hər qrup öz ərazisində ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün gündəlik edə biləcəkləri iki işi yazmalıdır. Dərsin əvvəlində doğma şəhər və ya kənddə ətraf mühitin çirklənməsi probleminə toxunan müzakirəni xatırladın. İdeyaları yazmaq və bir neçə gün və ya həftə ərzində sinifdə görünən yerdə yaddaş kimi saxlamaq olar.

*Qlobal məqsədlərə çatmaq üçün fəaliyyətə başlayın:*

Müəllim olaraq sizin şagirdlərin müsbət enerjisini düzgün istiqamətləndirmək və onları aciz olmadıqlarına, dəyişikliklərin mümkün olduğuna inandırmaq gücünüz var. "Design for Change" hərəkatı tərəfindən keçirilən "Mən bacarıram" məktəb müsabiqəsi uşaqları əməkdaşlığa çağıraraq öz mühitlərində dəyişikliklər etməyə və öz təcrübələrini bütün dünyadakı uşaqlarla bölüşməyə dəvət edir. Başlamaq üçün www.dfcworld.com saytına daxil olun. "Design for Change"in dərslər və ya şadirdlərə sərbəst fəaliyyətləri üçün sadə məsləhətlər toplumunu yükləmək məqsədilə www.globalgoals.org worldslargestlesson saytına daxil olun.

*Əlavə 2*

**Qruplarda istifadə etmək üçün praktiki tapşırıqlar:**

• Neft axıntısı

• BP şirkətinin Meksika körfəzinə neft axını: www.bbc.co.uk/schools/gcsebitesize/geography/wasting_ resources/waste_pollution_rev5.shtml

• Sea Empress tankerlərindən neft axını: www.ypte.org.uk/factsheets/oil-pollution-case-study/oilpollution

• İşləyən avtomobillərdən buraxılan qazlar

• Meksikada havanın çirklənməsinə qarşı mübarizə: www.idrc.ca/EN/Resources/Publications/Pages/ArticleDetails.aspx?PublicationID=567

• Nəqliyyat vasitəsi ilə havanın çirklənməsi (Praktiki yolla deyil, digər yollarla nəqliyyat vasitəsi ilə havanın çirklənməsini izah edin): www.ecofriendlykids.co.uk/transportairpollution.html

• Polietilen paketləri

• Plastik kütlələrin insan sağlamlığına və ətraf mühitə təsiri: www.journalistsresource.org/studies environment/pollution-environment/plastics-environmen talhealthliterature-review

• Okeanda plastik tullantılar: www.serc.carleton.edu/NAGTWorkshops/health/case_studies/plastics.html

• Zibilliklər

• Samoada zibillik: www.sprep.org/attachments/CaseStudy/Case_Study_-_Semi-aerobic_fukuoka_landfill_in_Samoa.pdf

• İllinoysda zibillik: www.epa.gov/superfund/programs/recycle/pdf/hodcase.pdf

• Yer altında çıxarılan yanacaqla işləyən elektrostansiyalar

• Yanar qazıntıların "lehinə" və "əlehinə" dəlillər: www. tes.co.uk/teaching-resource/fossilfuelsnuclear-power-pros-cons-case-study-6087890

• Elektrik stansiyaları üçün yanacaq: www.bbc.co.uk/ schools/gcsebitesize/science/ocr_gateway/energy_resources/ fuels_for_powerrev1.shtml

• Enerji gələcəyinin müzakirəsi DVD (dəyəri göstərilir): www.globaldimension.org.uk/resources/item/2208

• Aviauçuşlar

• Hitrou hava limanında çirklənmə: www.theguardian. com/environment/2012/oct/12/heathrowthirdrunway-air-pollution

• Təyyarə tullantıları: www.news.nationalgeographic.com/news/2010/10/101005-planespollutiondeaths-science-environment

• Kənd təsərrüfatında istifadə olunan kimyəvi maddələr

• Kimyəvi maddələrin istifadə olunmadığı əkinçilik: www. artofliving.org/environmental-carecasestudies/chemical- free-farming

• Vyetnamda pestisidlər: www1.american.edu/ted/vietpest.htm

• Suyun sənaye tullantıları ilə çirklənməsi

• Monqolustanda göl suyunun sənaye tullantıları ilə çirklənməsi: www.theguardian.com/environment/2012/aug/07/china-rare-earth-village-pollution

• Çində suyun çirklənməsi: www.bsr.org/en/our-insights/case-study-view/cleaning-upindustrial water-pollution-in-southern-china

• Qanq çayı Hindistan: www.who.int/water_sanitation_health/resourcesquality/wpccasestudy1.pdf

• Suyun çirklənməsinin gizli nəticələri: www.greenpeace.org/international/Global/ international/publications/toxics/Water%202011/Hidden%20Consequences.pdf

• Hindistanda ətraf mühitin çirklənməsinə dair müxtəlif praktiki tapşırıqlar: www.coolgeography.co.uk/GCSE/ AQA/Changing%20Urban/Urbanisation&environment/Urbanisation&environment.htm

*Əlavə 3a*

**Ətraf mühitə təsir edən amillərlə bağlı praktiki tapşırıqlar:**

Suyun çirklənməsi: BP şirkətinin Meksika körfəzinə neft axıntısı.

BBC Bitesize saytından götürülüb: www.bbc.co.uk/ schools/gcsebitesize/geography/wasting_resources/waste_pollution_rev5.shtml

2010-cu il aprelin 20-də Meksika körfəzində neft platformasında partlayış baş verib. Qəza 11 nəfərin ölümünə və 17 nəfərin yaralanmasına səbəb olub. Neft quyudan sürətlə axmağa başlayıb. Bəzi qiymətləndirmələrə görə, neft axını gün ərzində təxminən 40000 barel təşkil edib. Neft sızması ətraf mühit üçün risklər yaradıb və yerli sənayeyə ziyan vurub.

Neft sızmasının nəticələri Meksika körfəzi sahillərinin böyük hissəsinə toxunub. Vəhşi təbiətin mövsümi dəyişikliklərə görə itkiyə dəqiq qiymət vermək çətindir.

*İqtisadi nəticələri:*

• Hökumət BP şirkətindən 20 milyard dollar təzminat tələb edib, BP-nin səhmlərinin qiyməti aşağı düşüb.

• Balıqçılıq kimi yerli sənaye sahələrinə ziyan dəyib.

• Turizm zəifləyib.

*Ekoloji nəticələri:*

• Bitkilər və heyvanlar neftin altında qalıblar. Ölmüş dəniz tısbağaları, quşlar və delfinlər aşkar edilib.

• Neft su və bataqlıq ərazilərinə çatıb və bərpa prosesini ləngidib.

• Balıqların çoxalmasına ziyan dəyib.

Neftin yaratdığı zərərlərin izləri Amerika tarixində qeydə alınmış ən böyük zərərlərdən biridir. Lakin neft isti sulara axdığından orada yaşayan mikroorqanizmlər suyun neftdən təmizlənməsinə kömək ediblər. Ona görə bu ziyanın ümumi zərəri 1989-cu ildə soyuq sulardan Exxon Valdez tankerində baş verən neft axınının zərərindən az ola bilər.

*Əlavə 3b*

**Ətraf mühitə təsir edən amillərlə bağlı praktiki tapşırıqlar:**

Havanın çirklənməsi. Hitrou, Böyük Britaniya

Guardian saytından götürülüb: www.theguardian.com/environment/2012/oct/12/heathrow-thirdrunway-airpollution

Problem nədir?

"Hitrounun əsas problemi odur ki, o, əhalinin toplandığı böyük mərkəzin ortasında yerləşir", - Massaçusets Texnologiya İnstitutunun aviasiya və ətraf mühit laboratoriyasının rəhbəri və təqdimatın aparıcı müəllifi - professor Stiven Barret deyir. "Həmçinin, Böyük Britaniya əsən küləklərə görə bir qayda olaraq atmosfer tullantılarının təsiri bütün London üzərində yayılır".

Tədqiqatçılar 2005-ci ilin məlumatları əsasında belə nəticəyə gəlir ki, Böyük Britaniyanın hava limanları hər il ürək-damar xəstəlikləri və ağciyər xərçəngi xəstəliklərinin riskinin artırılmasına səbəb olur və nəticədə 110 vaxtsız ölümün baş verməsinə şərait yaradırlar. Alimlər bunlardan 50-sini Hitrou hava limanına aid edirlər.

Verilmiş proqnozlara əsasən növbəti iyirmi il ərzində təyyarə uçuşlarının 50%-dən çox artacağı gözlənilir, bu isə öz növbəsində insanların sağlamlığına mənfi təsirin artacağına təkan verir.

Nə etmək olar?

Barret hesab edir ki, bir çox ölüm hallarının qarşısını nisbətən sadə tədbirlərin köməyi ilə almaq mümkündür. Təyyarələr elektrik enerjisini bortda yerləşən kiçik reaktiv mühərrik bloklarından alırlar, təyyarələr dayanacaqda olan zaman onlar işlək vəziyyətdə qalır. Hava limanının şəbəkəsinə qoşulmaq tullantıları azaltmağa imkan verə bilərdi. Eləcə də hava limanında elektromobildən istifadə edilməsi sağlamlıq üçün yaranan riski 20% azaldardı. Ümumilikdə, qoruyucu tədbirlər hava limanlarının işləməsindən yaranan çirklənməni 2% azalda bilər.

*Əlavə 3 v*

*Əlavə 3 d*

**Ətraf mühitə təsir edən amillərlə bağlı praktiki tapşırıqlar:**

Suyun çirklənməsi. Qanq çayı, Hindistan

Vikipediya və Geography Coll saytından götürülüb: www.coolgeography.co.uk/GCSE/ AQA/Changing%20Urban/Urbanisation&environment.htm, www.en.wikipedia.org/wiki/Pollution_of_the_Ganges

Qanq - Hindistanda ən böyük və hindlilər üçün dini əhəmiyyət kəsb edən çaydır. Bu çay Hindistanın 11 ştatında əhalinin 40%-ni təxminən 500 milyon insanı su ilə təmin edir, bu isə öz növbəsində dünyanın bütün çayları arasında rekord sayılır. Eyni zamanda Qanq bu gün dünyanın ən çirklənmiş çayları arasında altıncı yeri tutur.

Qanq müqəddəs Hind çayı olub ölkənin şimalında axır. Qanq çayının çirklənməsi problemi o qədər ciddidir ki, artıq orada çimmək və onun sularından istifadə insan sağlamlığı üçün təhlükəlidir.

*Səbəbləri:*

• Qanq çayının çirklənməsinin əsas səbəbi onun məcrasında yerləşən dəri istehsalı sənayesində istifadə olunan və çaya axıdılan xrom və digər kimyəvi maddələrdir.

• Digər böyük çirklənmə mənbəyi hər gün təmizlənmədən çaya axıdılan təxminən 1 milyard litr çirkab sulardır.

• Düzgün həyata keçirilməyən bəzi prosedurlar tamam və ya qismən yanmış meyitlərin çayda üzməsinə gətirib çıxarır.

Təmizlənməsinə dair tədbirlər:

1985-ci ildə Hindistan hökuməti, Böyük Britaniya və Hollandiya dövlətlərinin dəstəyi ilə Qanq çayının təmizlənmə planı qəbul edilmişdir. Plan çərçivəsində bir sıra təmizləyici qurğuların tikilməsi nəzərdə tutulmuşdur. Plana əsasən qurğular çirkab suları təmizləməyə cəlb olunub, həmçinin bir neçə elektrik krematoriya tikilib. İndi layihə icrasına görə II fazadadır.

**Ətraf mühitə təsir edən amillərlə bağlı praktiki tapşırıqlar:**

Sənaye tullantıları. Monqolustanın daxilində:

Guardian saytından götürülüb: www.theguardian.com/environment/2012/aug/07/china-rare-earth-village-pollution

*Şəkil:* www.abcnews.go.com/Technology/toxic-lake-black-sludge-result-mining-create-tech/story?id=30122911

Monqolustanım daxilində yerləşən Baotou şəhəri smartfonların, GPSqəbuledicilərin, külək elektrik stansiyalarının və digər məhsulların istehsalında istifadə olunan faydalı qazıntı mənbəyidir. Faydalı qazıntılar 120 km şimalda Boyan Obada çıxarılır, sonra isə Baotauya emal üçün gətirilir.

*Problem:*

Havadan böyük göl kimi görsənir, ancaq yer üzündə bu balıqların və yosunların yaşaya bilmədikləri qaranlıq və boş su məkanıdır. Sahilləri qalın, qara qabıqla örtülüb. Sahəsi 10 $km^2$ olan su hovuzuna yaxınlıqdakı zavodlar zəhərli kimyəvi maddələr axıdırlar.

Çirklənmiş hovuzun suyunun tərkibində zəhərli kimyəvi maddələr və xərçəng yarada biləcək radioaktiv elementlər var.

*Nəticələr:*

Zavodlar tikilməmişdən əvvəl bu ərazidə çoxlu əkin sahələri var idi. 1985-ci ildə metallurgiya kombinatı Baotouda faydalı qazıntılara başladı, 1980-ci illərdə isə yerli sakinlər tərəvəzlərin pis yetişdiyini aşkar etdilər. Zaman keçdikcə kənd təsərrüfatı azaldı. Fermerlərin əksəriyyəti köçdü. Cəmi 10 il ərzində əhalisi 2000 nəfərdən 300 nəfərədək azaldı. Baotonunun sakinləri sulfat turşusu, kömür tozu və həlledici buxarları ilə nəfəs alırdılar.

Yerli sakinlərin sağlamlığı da kəskin pisləşmişdi.

# “Hamı Azərbaycan! - deyə qışqırırdı”

## *Fatimə Qasımova:* “Tamaşaçı alqışları məni təzədən səhnəyə qaytardı”



**Sifai SƏFƏROVA**

Rəqslər milyon illərdən bəri həyat tərzimizdə, mədəniyyətimizdə özünə layiqli yer tutan qədim incəsənət növüdür. O, insanın ruhunu canlandırır, emosional ağırlığı götürməyə, rahatlamağa kömək edir və sağlamlığı möhkəmləndirir, - deyə növbəti müsahibim olan Bakı şəhəri Nizami Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəqs dərnəyinin fəal üzvlərindən biri Fatimə Qasımova mənimlə söhbətə belə başladı. Ümumiyyətlə, mən uşaq yaşlarından rəqsə böyük həvəs göstərirəm. Elə ki, televiziya verilişlərindən birində rəqqasə görürdüm, mən də qoşulurdum ona və həmin rəqsi səhv etmədən ailə üzvlərimizin qarşısında təkrar nümayiş etdirirdim. Böyüdükcə rəqsə həvəsim daha da artdı. Milli rəqslərimizlə bərabər dünya xalqlarının milli rəqslərini də öyrənirdim. Sonralar başa düşdüm ki, rəqs bir əyləncə deyil, incəsənətin ən zərif növlərindən biri olmaqla yanaşı, əslində dərin məzmunlu fəlsəfi məna da daşıyır. Xüsusilə milli rəqslər millətin rəqs mədəniyyətinin ağır yükünün daşıyıcılarıdır. Bu qədim incəsənət növü rəqqas və rəqqasələrin daim gümrah görünmələrinə, sağlam olmalarına zəmin yaradır.

**Qısa arayış:** *Fatimə ibtidai təhsilini paytaxtdakı 27 nömrəli tam orta məktəbdə alıb. Dərs əlaçısıdır. Şəkli indi də “Şərəf lövhəsi”ni bəzəyir. IV sinifdə oxuyarkən yaşıdları arasında həmişə fərqlənib. Dərslərini əla qiymətlərlə oxuduğuna və “Heydərçi gənclər” sırasına daxil olduğuna görə fəxri diplomla, eyni zamanda 2014-2015-ci tədris ilində məktəbin ictimai həyatında fəal iştirakına və qazandığı uğurlara görə Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən fəxri fərmanla təltif olunub. Hazırda Bakıdakı 10 nömrəli tam orta məktəbin VI sinif şagirdidir.*

### “İlk uğuruma 2012-ci ildə imza atdım”

- 4 yaşımdan mərkəzdə rəqs dərnəyinin və “Çiçəyim” teatr studiyasının üzvü olmuşam. Müəllimim Samirə Musaimdən milli və dünya rəqslərinin incəliklərini sevə-sevə öyrənirəm. Hər kəs yaxşı bilir ki, Azərbaycan musiqi mədəniyyəti tək bir sahədən - muğamdan ibarət deyil, musiqi mədəniyyətimiz zəngin bir xəzinə, böyük bir kompleksdir. Bu kompleksin tərkibində milli rəqslərimizin öz yeri var. İlk uğuruma 2012-ci ildə imza atdım. Eşidəndə ki, İstanbulda keçirilən “23 Nisan” Beynəlxalq Uşaq Festivalında iştirak edəcək uşaqların arasında mənim də adım var, çox sevindim. Evə tələsirdim ki, bu mənim üçün olduqca şad olan xəbəri anamla bölüşüm. Yolboyu fikirləşirdim: görəsən, anam, atam bu tədbirə qatılmağa icazə verəcəklərmi?- Nəhayət, arzularım çin oldu. Valideynlərim razılıq verdi. Ertəsi gün mərkəzə necə gəldiyimi bilmədim. Sevincimi mərkəzin direktoru Lalə xanım və müavini Kəmalə xanımla da bölüşdüm. Onlar da bu festivalda iştirak edəcəyimi biləndə çox sevindilər. Ümumiyyətlə, mərkəzin müəllimləri hər uğurumuza sevinirlər və bizə xüsusi diqqət və qayğı ilə yanaşırlar. 20 nəfərdən çox heyətlə İstanbulda uşaq bayramında iştirak etdik, ən kiçiyi də mən idim. Mərkəzin “Çiçəyim” uşaq teatr studiyası üzvləri də bayrama qatılmışdılar. Orada olarkən türk ailəsi olan Belma Varol adlı xanım ilə tanış olduq. Onların ailəsi çox mehriban, çox qonaqpərvər idi. Mənə saygı ilə yanaşırdılar. 2013-cü ildə İstanbulda ailəvi dincəlirdik. Feysbukda yazdıq ki, şəhərdəyik. Onlar bizə yazdılar ki, Fatiməni bizə yetirin, onun üçün çox darıxmışıq. Biz onlarla görüşdük. Evlərinə getdik və ailəvi gəzintiyə çıxdıq. Vaxtımız az olduğundan onlarda az qaldıq. Biz onlardan ayrılanda məyus oldular. Ancaq söz verdik ki, yenə görüşəcəyik. İndi onlarla tez-tez zəngləşir, hal-əhval tutub və əlamətdar günlərdə bir-birimizi təbrik edirik.

### “Milli rəqslərimiz tamaşaçılarda xoş ovqat yaratdı”

2015-ci ildə mərkəzin “Azəri inciləri” mahnı və rəqs qrupunun tərkibində Hollandiyada keçirilən musiqi festivalına qatıldım. “Naz eləmə”, “Nəlbəki” rəqslərini özümə məxsus tərzdə ifa etdim. Tamaşaçı alqışları məni təzədən səhnəyə qaytarmağa məcbur etdi. Sanki alqış yağışına bürünmüşdüm. Həmin anlar özümü dünyanın ən xoşbəxt bəndəsi sayırdım. Təsəvvür edin ki, hamı “Azərbaycan!”, - deyə qışqırırdı. Mən də çox qürrələnirdim. 2016-cı ilin aprelində isə mərkəzin xətti ilə Bolqarıstanda keçirilən “Dostluq festivalı”nda “Suita” rəqs qrupunda iştirak etdim. Orada da Azərbaycanımızın incəsənət nümunəsi olan milli rəqslərimizi məharətlə ifa etdik. “Sarı gəlin”, “Tərəkəmə”, “Yallı” milli rəqslərimiz tamaşaçılarda xoş ovqat yaratdı. Hind, yunan, türk, türkmən, özbək, Avropa rəqslərini nümayiş etdirdik. Xüsusilə, qeyd etmək istəyirəm ki, dünya xalqlarının rəqsləri tamaşaçıları, münsiflər heyətini heyran etmişdi. 7 gün Bolqarıstanda qaldıq. Bütün ölkələrdən uşaqlar iştirak edirdilər. Orada özümə çoxlu dostlar qazandım. Onlardan ayrılmaq çox çətin idi. Biz vətənə dönəndə həm sevindik, həm də onlara qoşulub kövrəlmişdik, axı ayrılırdıq! Ünvanlarımızı bir-birimizə verdik. İndi də internet vasitəsilə yazışırıq.

### “Həm gürcü rəqsini, həm də “Sarı gəlin” mahnısını nümayiş etdirdim”

Gürcüstanın Borjomi şəhərində olarkən onların milli bayramlarında iştirak etdim. Tələsik olduğundan Bakıdan çıxanda milli geyim paltarlarımı götürməyi unutmuşdum. Konsertdə adi paltarda çıxış etmək məcburiyyətində qaldım. Həm gürcü rəqsini, həm də “Sarı gəlin” mahnısını nümayiş etdirməli idim. Yeri gəlmişkən onu da qeyd etməyə borcluyam ki, milli rəqslərimizin incəliklərinin qabarıq şəkildə tamaşaçılara çatdırılmasında, tamaşaçılarda xoş ovqat yaradılmasında rəqqasənin geyim tərzi də az rol oynamır. Və şübhəsiz, milli geyimlə nümayiş edilən rəqs daha effektli olur. Necə deyərlər, bu mənada forma məzmuna xüsusi ahəng qatır, onu tamamlayır. Xüsusi parçalardan hazırlanmış milli rəqs geyimləri rəqqasın mənsub olduğu xalqın, millətin ən kiçik elementlərini belə təcəssüm etdirir. Hər hansı bir folklor nümunəsi rəqsdə ifa olunanda geyim məzmunu tamamlayır. Rəqs etməyi öyrənməksə, deyim ki, heç vaxt gec deyil. Amma zərərli vərdişlərdən uzaq olmaq hər bir rəqqasın borcudur. Yetər ki, insanın buna istəyi olsun. Hər bir azərbaycanlı öz milli rəqslərinə bələd olmalıdır, onları bilməlidir. Azərbaycanın tanınmış rəqqasları olan Əminə Dilbazi, Afaq Məlikova, Roza Cəlilova, Böyükağa Məmmədovun və başqalarının milli rəqslərimizin ustalıqla ifa olunmasında, onların bayağılaşdırılmadan tamaşaçıya çatdırılmasında böyük əməkləri olub. İstərdim ki, mən də gələcəkdə ustad sənətkarların sənət dəryalarında bir damla olaraq tanınım və sevilim. Bir məsələni də xüsusilə vurğulamaq istəyirəm. Nədənsə milli rəqslərimizi hansısa bir xarici ölkədə ifa edərkən çox qəribə hisslər keçirirəm. Rəqs zamanı gözlərim tamaşaçıların baxışları ilə toqquşanda, onların razı qaldığını duyanda sanki rəqs eləmir, səhnənin bu başından o biri başına uçuram.

### “İtaliyada keçiriləcək beynəlxalq festivalda iştirak edəcəyəm”

İdmanın üzgüçülük növü ilə də məşğul olmuşam. 2013-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş üzgüçülük növü üzrə açıq birincilikdə brass üslubu üzrə II yerə layiq görülmüşəm. Heydər Əliyev Fondu tərəfindən “Buta” sarayında təşkil olunan Yeni il şənliklərində və Heydər Əliyev Sarayında keçirilən uşaqların bayram tədbirlərində mütəmadi olaraq iştirak edirəm. Qeyd edim ki, Bakıdakı 33 nömrəli musiqi məktəbində fortepiano sinfində təhsil alıram. Fortepianoda Azərbaycan və dünya bəstəkarlarının əsərlərini ifa edirəm. İ.S.Baxın, L.V.Bethovenin, V.A.Motsartın, V.Y.Haydnın əsərlərini ifa etməkdən zövq alıram. Sanki öz uşaqlıq dünyama qapılır, nağıllar aləminə qovuşuram. İyunun 18-də İtaliyada keçiriləcək beynəlxalq festivala ciddi hazırlaşıram. Çünki orada Azərbaycanın görkəmli bəstəkarı Tofiq Quliyevin “Arzular” əsərini ifa edəcəyəm. Fortepiano müəllimim Afət Kərimovanın tapşırıqlarını səylə yerinə yetirməyə çalışıram. İnanıram ki, müəllimimin etimadını doğruldub lider adını qazanacağam. Çünki özümə qarşı çox tələbkaram. Prinsipialam, qarşıma məqsəd qoydumsa, ona nail olmalıyam. Bütün sahələrdə lider olmağa çalışıram. Bütün fənləri çox sevirəm. Ən çox sevdiyim fənn isə riyaziyyatdır. Çalışıram sinifdə birinci olum. 2016-cı ildə Lütfi Zadə adına məktəblilərarası I məntiq olimpiadasının final mərhələsinin iştirakçısı olaraq sertifikatla mükafatlandırıldım. Qardaşım İlham da V sinifdə oxuyur və dərs əlaçısıdır. O da mərkəzdə “Çiçəyim” uşaq teatr studiyasının üzvüdür. Arzum isə Bakı Dövlət Universitetinin tələbəsi olmaqdır. Arzularıma çatmaq üçün çox çalışmalıyam, lap çox...

*...Artıq yeniyetməlik dövrünün ilk pilləsində addımlayan Fatimə Qasımova incəsənətin bu zərif növü haqqında o qədər səmimi və o qədər həssaslıqla danışdı ki, sözün tam mənasında, bu istedadlı qızın məharətinə, eyni zamanda məntiqinə çox vuruldum. Şirin və məzmunlu söhbəti mənim incəsənətin bu folklor növünə marağımı da birə-beş artırdı. Bir daha əmin oldum ki, səhnəmizdə gələcəyin gözəl rəqqasları və rəqqasələri yetişməkdədir. Bəlkə nə vaxtsa Fatimə özü də bu maraqlı sənətin sirlərinə dərindən yiyələndikdən sonra onu səsləyən zirvələrdən geri boylanan zaman bizim qəzetin xeyirdualarını da xoş bir xatirə kimi yada salacaq. Onda şübhəsiz biz də ümidlərimizin doğrulduğundan məmnun qalacağıq.*

# “İslam Həmrəyliyi oyunlarında qızıl medala sahib olacağam”

## *Hidayət Heydərov, beşqat Avropa çempionu:* “Zirvələrə qaldırdığım üçrəngli bayrağımıza qürurla baxanda kövrəlirəm”




**Rəşad ZİYADOV**

Heydərov Hidayət Minayət oğlu 1997-ci il iyulun 27-də Bakıda anadan olub. Uşaqlıqdan idmana böyük həvəsi olan Hidayət 5 yaşında Bakı şəhəri 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbinə gəlib və cüdo bölməsində təcrübəli məşqçi-müəllim Tərlan Həsənovdan bu idman növünün sirlərini öyrənməyə başlayıb. Bakı şəhər 277 nömrəli idman təmayüllü tam orta məktəbin məzunu olan Hidayət hazırda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının cüdo bölməsi üzrə III kurs tələbəsidir. Beşqat Avropa çempionu, dəfələrlə dünya çempionatının mükafatçısıdır. Hidayət Heydərov paytaxtımızda keçirilən “Bakı-2017” İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edir.

Hidayət Heydərovla təxminən 6 il əvvəl 13 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbində görüşmüşdük. O vaxt onun 14 yaşı var idi. 8 il idi ki, cüdo ilə məşğul olurdu. Yaşının az olmasına baxmayaraq, Hidayətin idmanda əldə etdiyi uğurlar da kifayət qədər çox idi. Eşitdik ki, Hidayət Heydərov bu yaxınlarda Polşanın paytaxtı Varşavada kişilər arasında cüdo üzrə Avropa çempionatında iştirak edib və 73 kq çəki dərəcəsində Avropa çempionu adına layiq görülüb. Qeyd edək ki, Varşavada bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxan Hidayət Heydərov qitənin ən mötəbər yarışında birinci yeri tutan ən gənc cüdoçu olub. İdmançımız bu uğuruna görə Avropa Cüdo Birliyi tərəfindən “ Avropanın ən yaxşı gənc cüdoçusu” mükafatına layiq görülüb. Çempionumuzla yenidən görüşmək qərarına gələrək onun milli komandanın tərkibində məşq etdiyi zala getdik. Səmimi, mədəni və güclü bir idmançı kimi yaddaşımda qalan Hidayətin 6 il müddətində dəyişilmədiyinə bir daha əmin olduq. Bu müddət ərzində dəyişilən ancaq onun uğurlarının sayıdır.

Hər bir idmançının idmana gəlişi müəyyən bir səbəb və ya hadisə ilə bağlı olur. Hidayətə ilk sualım da elə bu barədə oldu:

- *İdmanı sənə sevdirən nə olub?*

- Balaca vaxtlarımda həmişə nadinc uşaq olmuşam. Küçəyə çıxanda fikir vermədən güclü-gücsüz məhəllə uşaqları ilə döyüşürdüm. Gücüm çatmasa da, davadan qorxmurdum. Cüdo ilə bərabər futbola da marağım olub. Məhəllədə uşaqlarla futbol oynayardıq. Qohumlarımız atama deyirdi ki, bu uşağı idmana qoyun. Bu mənim də ürəyimcə idi. Çünki evimizin yaxınlığında cüdo zalı var idi, buna görə də mən çox vaxt evdəkilərdən xəbərsiz ora gedirdim. Məşq edən idmançılara baxırdım. Çox həvəsli idim. Böyük uşaqların idmanla məşğul olduğunu görəndə qəlbimdən belə bir hiss keçirdi ki, kaş mən də onlar kimi idman çantamı götürüb məşqlərə gedəydim. Həmişə arzu edirdim ki, güclü və tanınmış idmançı olum. Şükürlər olsun ki, indi artıq valideynlərimin və müəllimlərimin sayəsində mən də idmanda bir çox uğurlara imza atmışam. Bir vaxtlar idman mənim üçün məşğul olduğum sahə idisə, indi artıq bu, mənim işimdir.

- *Səncə, güclü idmançı olmaq üçün nə etmək lazımdır?*

- Güclü idmançı olmaq üçün həmin idman növünə olan həvəs böyük olmalıdır. Heç vaxt ruhdan düşməmək, həmişə inadla, yorulmadan çalışmaq lazımdır. Məqsədə, arzuya çatmaq üçün mübarizə aparmalısan. Güclü rəqiblərdən qorxmamalısan. Cüdo elə bir idman növüdür ki, sevirsən və ayrıla bilmirsən (gülür). Valideynlərimə qaldıqda isə ümumiyyətlə, bizim ailə, nəslin cavanları - hamısı idmanla məşğuldur. Buna görə də bizi dəstəklədilər

- *Cüdonu necə ifadə edə bilərsən?*

- Cüdo tərbiyədir, özünümüdafiədir və həyatdır.

- *Çox əksər hallarda olur ki, idmançının həm idmanda uğuru olsun, həm də təhsildə. Səndə necədir?*

- Mən yaxşı oxumuşam, amma bir müddətə kimi. Aşağı siniflərdə dərs əlaçısı olmuşam. Müəllimlərim məni gələcəkdə tarixçi kimi görürdülər. Çünki tarix fənnini digər fənlərdən daha çox sevirdim. Bir də ki, mənim aləmimdə istər idmançı, istərsə də başqa peşənin sahibi ol, ancaq dövlətinin, xalqının tarixini yaxşı bilməlisən. Mən bunu özüm üçün bir vətəndaşlıq borcu hesab edirəm. Bundan başqa, yaxşı oxuduğum dərslər “Riyaziyyat”, “Ana dili” və “Coğrafiya” olub. Tarixdən Ağqoyunlu və Qaraqoyunlu dövlətləri, Cahanşah dövrü, Qara Yusif dövrü yadımdadır.

- *İdmançı mütləq İdman Akademiyasını bitirməlidir, yoxsa fərq etmir?*

- Məncə bu, vacibdir, çünki idmandan anlayışın olmalıdır. Həm təcrübə, həm də savad - bunlar çox önəmlidir. Amma bu o demək deyil ki, idmançı başqa universitet, ya təhsil ocağında oxuya bilməz. İndi mən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının III kurs tələbəsiyəm.

- *İdmançı üçün karyerasında nəyi vacib hesab etmək olar?*

- Təbii ki, qalibiyyəti. Mənim üçün ən vacibi Olimpiya çempionu adıdır. Bu ad artıq bütün karyeram boyu öz sözünü deyir.

- *Olimpiya çempionu olmaq üçün təkcə güc bəs edirmi?*

- Həm güc, həm səbir, həm istək, həm həvəs, həm də şans - bunlar oldusa, deməli, alınar.

- *Bəyəndiyin idmançılarımız var?*

- Təbii ki, var. Məsələn: Vitali Rəhimov, Toğrul Əsgərov, Elxan Məmmədov, Elnur Məmmədli və başqaları - bunlar idmanda öz sözünü deyiblər.

- *Hansı ölkələrdə yarışlarda olmusan və sənə hansı millətin nümayəndəsi ilə döyüşmək, yarışmaq çətindir?*

- Rusiya, Avstriya, Çexiya, Almaniya, Yaponiya və s. Amma deyərdim ki, yaponlar idmanın yaradıcısı sayıldığına görə onlarla yarışmaq çətindir. Onların adi idman dərsində də cüdo keçirlər.

- *Bəs iştirak etdiyin yarışlar və əldə etdiyin uğurların barədə nə deyə bilərsən?*

- 2008-ci və 2009-cu illərdən uğurlarım artmağa başladı. 2008-ci ildə cəmiyyətlər arasında və Bakı çempionatında qələbə qazandım. 2009-cu ildə 60 kq çəki dərəcəsində Azərbaycan çempionu olaraq beynəlxalq turnirlərə vəsiqəni özümə təmin etdim. 2010-cu ildə Tbilisi şəhərində keçirilən beynəlxalq turnirdə II yerə çıxdım. 2011-ci ildə Türkiyənin Ankara şəhərində 8 ölkənin idmançılarının iştirakı ilə keçirilən Avropa kuboku uğrunda turnirdə I yeri tutdum. Yığma komandanın tərkibində 5 dəfə Avropa kuboku və beynəlxalq turnirlərdə iştirak etmişəm. Həmin yarışların üçündə I yerə çıxaraq qızıl medal əldə etdim, ikisində isə V yerlə kifayətlənməli oldum. Yarışlara bir müddət ara verdikdən sonra 2014-cü ildə Hollandiyada cüdo üzrə gənclər arasında keçirilən olimpiya festivalında 60 kq çəki dərəcəsində III yerin sahibi oldum. Həmin ilin ortalarında Yunanıstanın Afina şəhərində 45 ölkənin iştirakı ilə keçirilən yeniyetmələr arasında Avropa çempionatında 66 kq çəkidə çempion oldum. Sonra artıq gənclər arasında keçirilən dünya çemponatlarında iştirak etməyə başladım. Belə ki, 2015-ci ilin oktyabrında Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində 90 ölkənin iştirakı ilə baş tutan dünya çemponatında 66 kq çəkidə yarışlara qatıldım, III yeri tutdum. Sonra 2016-cı ildə Slovakiyada və İsraildə 23 yaşlı cüdoçular arasında 50-yə yaxın ölkədən cüdoçunun iştirak etdiyi Avropa çempionatında birində II, digərində isə I yerə sahib oldum. Bundan başqa, 2015 və 2017-ci illər arasında 15-ə yaxın ölkədə keçirilən beynəlxalq türnirlərdə iştirak edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxmışam. Ən nəhayət, bu yaxınlarda Polşanın Varşava şəhərində kişilər arasında cüdo üzrə Avropa çempionatında iştirak edərək I yeri tutdum.

- *Məndə olan məlumata görə, sən Avropa çempionatında himnimiz çalınarkən sevincindən ağlamısan. Keçirdiyin o hisslər bizim üçün çox maraqlıdır...*

- Bəli, doğru deyirsiniz. Bu çempionatın finalında mən çox güclü, təcrübəli və məndən yaşda çox böyük olan Rusiya təmsilçisi ilə qarşılaşdım. Doğrusu, ona qalib gəlməyim heç də asan olmadı. Güclü rəqiblə üz-üzə gəlmək çətindir. Amma öyrəndiyim və çalışdığım fəndlərin köməyi ilə buna nail oldum. Mən, ümumiyyətlə, zirvələrə qaldırdığım üçrəngli bayrağımıza qürurla baxanda kövrəlirəm. Himnimizi eşidəndə isə tam başqa oluram. Vallah o hissləri sözlə ifadə etmək çətindir. Bunu ancaq yaşayan bilər. Ən böyük arzum isə hər birimiz üçün müqəddəs olan üçrəngli bayrağımızı dünya və olimpiya yarışlarında zirvələrə qaldıraraq ölkəmizi layiqli təmsil etməkdir.

- *Bildiyimə görə, sən artıq paytaxtımızda keçirilən “Bakı-2017” İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edirsən. Yarışlara necə hazırlaşmısan?*

- Yarışlara hazırlıq çox yüksək səviyyədə gedib. Məşqlərimiz yığma komandanın tərkibində “Neftçi” Təlim və Məşq Mərkəzində olub. Özümü qələbəyə hazır hiss edirəm. Ən böyük arzularımdan birinə sayılı günlər qalıb. İnşallah, İslam Həmrəyliyi Oyunlarında qızıl medala sahib olacağam.

**Əməkdar məşqçi Tərlan Həsənov yetirməsi barədə:**

- Hər bir müəllim kimi mən də yetirməmin uğurlarına ürəkdən sevinirəm. Hidayət səkkiz ildir ki, cüdo ilə məşğul olur. Uşaq yaşlarından idmana böyük həvəs göstərir. O, bir dəfə də olsun məşq buraxmır. O, nizam-intizamı və təlim-tərbiyəsi ilə digərlərindən fərqlənən bir idmançıdır. Məşqlərə ciddi yanaşır. Yarışlarda çalışır ki, etdiyi səhvləri bir daha təkrarlamasın. Daim uğursuz fəndinin üzərində çalışır. Hidayəti digər idmançılardan fərqləndirən odur ki, o, çətin hallarda döşəkdə müqavimətini saxlaya bilir. Onun üçün güclü və gücsüz rəqib yoxdur. Heç bir rəqibdən çəkinmir. Onda psixoloji gərginlik olmur, yarışlarda çox sərbəst olur. Onu gələcəkdə olimpiya çempionu kimi görmək arzusundayam. Artıq bu günə kimi kifayət qədər beynəlxalq yarışlarda ölkəmizin idman şərəfini layiqli təmsil edib. İstəyir ki, erməni idmançısı ilə rəqib kimi döşəyə çıxsın. Deyir ki, erməni idmançısını yüksək ustalıqla məğlub etsəm, rahatlıq taparam.

## Superkompüterdə 45 kubitlik kvant hesablama sisteminin modeli hazırlanıb



**Yusif ƏLİYEV**

Kvant hesablama sistemlərinin iş prinsiplərinin çətinliyinə görə, bu kimi sistemlərin işlədiyi, modelləşdirilən kvant bitlərin (kubitlər) sayının artırılması hesablama gücünün yüksəldilməsini tələb edir. Buna görə də bu sistemləri yaratmaq çox çətindir.

İsveçrə tədqiqatçıları yaxın zamanda 49 kubitlik kvant kompüterinin riyazi modelinin hesablamalarını aparmağa hazırlaşırlar. Bu, indiyədək olan ən çətin quraşdırılan kvant sistemlərindən biridir.

Tədqiqatın müəllifləri İsveçrə Federal Texnologiya İnstitutundan Tomas Hener və Damian Staygerdir. Bu modelin hesablamalarının aparılması üçün bütün dünyada gücünə görə 5-ci yerdə duran Cori II superkompüterindən istifadə ediləcək. Cori II Berklidə Lourens adına Milli Laboratoriyada yerləşir. Kompüter hər biri 1,4 QHs takt tezlikli 68-nüvəli Intel Xeon Phi 7250 prosessorundan təşkil olunan 9034 hesablama qovşağından ibarətdir. Sistemin yaddaşının həcmi 1 petabayt, məhsuldarlığı isə 29,1 petaflops təşkil edir. Tədqiqatçılar Cori II-nin köməyilə artıq 30, 36, 42 və 45 kubitlik kvant sistemlərin modelini hazırlamağa müvəffəq olublar.

**www.hi-news.ru** saytının məlumatına görə, bu iş nəticəsində hazırkı kod ilk modellərdə istifadə edilmiş koddan daha sürətli işləyir.

Bu riyazi model ən mürəkkəb proseslərin hesablanması və kvant tərəddüdlərinin amplitudası üçün üzən vergüllü ədədlərdən istifadə edir. Mütəxəssislər əmindirlər ki, istifadə olunnan kodda onun sonradan daha da optimallaşdırması üçün 8192 qovşaq gücündən istifadə etməklə 49 kubitlik kompüterin modelinin hesablamalarını aparmaq üçün imkanlar mövcuddur.

## Uçan elektrik avtomobilinin sınaqları keçirilib



Almaniyanın "Lilium Aviation" şirkəti ilk şaquli uçan iki nəfərlik elektrik avtomobilinin sınaqlarını keçirib.

**www. hi-news.ru** saytının məlumatına görə, 40-dan çox dizayner, mühəndis və həvəskardan ibarət beynəlxalq komanda bir neçə il ərzində "The Lilium Jet" avtomobilinin yaradılması üzərində işləyib. Nəqliyyat vasitəsi hava ilə saatda 300 km-ə qədər sürətlə hərəkət etmək imkanına malikdir. Akkumulyatorların enerjisi 300 km-ə qədər məsafənin öhdəsindən gəlmək iqtidarındadır.

"The Lilium Jet" 36 hərəkətli reaktiv mühərriklərlə təchiz edilib. Avtomobil hazırlanarkən sərnişinlərin təhlükəsizliyi, həmçinin avtopilot sisteminin idarəetməsi altında avtonom uçuş imkanı kimi məsələlərə böyük əhəmiyyət verilib.

Avtomobili ilk vaxtlarda insanların idarəetməsi planlaşdırılır. Gələcəkdə isə onları pilotsuz taksilərə çevirmək mümkün olacaq. Şirkətin ən yaxın planlarına, həmçinin iki əvəzinə beş sərnişin daşımaq imkanına malik uçan elektrik avtomobilinin yaradılması daxildir.

Qeyd edək ki, "Lilium Aviation"ın bütün avtomobilləri paraşütlər və təhlükəsiz uçuş parametrlərindən kənara çıxmaların qarşısını alan "Flight Envelope Protection System"lə təchiz ediləcək.

## Ən təhlükəsiz smartfon təqdim edilib



Son zamanlar mobil qurğularda fərdi məlumatların mühafizəsi geniş müzakirə mövzusuna çevrilib. Buna görə də bəzi şirkətlər yüksək təhlükəsizlik səviyyəsinə malik qurğular istehsal edirlər. Tanınmış antivirus proqram təminatı istehsalçısı Con Makafi də belə qadcet təqdim edib. O, yeni qurğunun mövcud qurğular arasında ən təhlükəsiz smartfon olacağını iddia edir.

"Smartfonun aparat hissəsinə böyük investisiya yatırılıb. Qurğunun arxa panelinə quraşdırılmış bir sıra kommutatorlar istifadəçiyə akkumulyator, kamera, mikrofon, "Wi-Fi", "GPS" və "Bluetooth"u söndürməyə imkan verir. Bundan əlavə, smartfon anonim vebaxtarış funksiyasına malikdir", - deyə Con Makafi bildirib.

**www.4pda.ru** saytının məlumatına görə, "John McAfee Privacy Phone" adlı qurğu cari ilin sonunda satışa çıxarılacaq. Onun texniki xarakteristikaları barədə hələ ki, məlumat verilmir. Smartfonun qiyməti 1100 ABŞ dolları təşkil edəcək.

## Səsin köməyilə idarə olunan yeni qurğu




Amerikanın "Amazon" şirkəti sahibinin zahiri görünüşünü təhlil edən və hər gün onun üçün geyim seçə bilən yeni qurğu təqdim edib.

**www.vladtime.ru** saytının məlumatına görə, səsin köməyilə idarə olunan "Echo Look" şəkillər, hətta qısa videoçarxlar çəkə bilir ki, bu da dəb həvəskarlarına özlərinə bütün rakurslardan baxmağa imkan verəcək.

"Echo Look" maşın təlimi və peşəkar stilistlərin tərtib etdikləri məsləhətlərin köməyilə istifadəçilərin müxtəlif rakurslardan çəkilmiş şəkillərini qiymətləndirə bilir.

Hazırda qiyməti 200 dollar təşkil edən qurğunu yalnız ABŞ ərazisində almaq olar və onun digər bazarlarda yayılması hələ ki, planlaşdırılmır.

*İKT.az saytının materialları əsasında*

## Məktəbdə "rənglərin festivalı"



Bakı şəhəri 87 nömrəli tam orta məktəbdə ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Rənglərin festivalı" adlı tədbir keçirilib.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə "AyArt" studiyasının birgə təşkil etdiyi tədbirdə BŞTİ-nin, Azərbaycan Rəssamlar İttifaqının, Gənclər və İdman Nazirliyinin, Suraxanı Rayon Gənclər və İdman İdarəsinin nümayəndələri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimləri, 3 nömrəli Uşaq İncəsənət Məktəbinin pedaqoji və şagird kollektivi iştirak ediblər.

Tədbirdə çıxış edən BŞTİ-nin sektor müdiri Şahin İsgəndərov, məktəbin direktoru Elmira Ələkbərova, Azərbaycan Keramika Mərkəzinin rəhbəri Mirteymur Məmmədov, Azərbaycan Rəssamlar İttifaqının üzvləri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimləri ulu öndərin parlaq ideyalarının şagirdlər arasında təbliğinin əhəmiyyətindən və bu istiqamətdə görülən işlərdən söz açıblar.

Daha sonra gimnastların çıxışları, rəqs nömrələri təqdim olunub, ulu öndərə həsr olunmuş mahnı, ədəbi-bədii kompozisiya ifa edilib. Şagirdlər tərəfindən "Biz qalib olmalıyıq" adlı flashmob nümayiş olunub.

Festival iştirakçıları nümayiş etdirilən dekorativ-tətbiqi sənət növləri, qədim xalq sənəti olan dulusçuluq, keramika, xalçaçılıq, qobelen, taxta üzərində oyma və "AyArt" studiyasının üzvlərinin 100-dən çox rəsm əsəri ilə tanış olublar.

Festival S.Bəhlulzadə adına Mədəniyyət Sarayının xanəndə və müğənnilərinin çıxışları ilə yekunlaşıb.


### "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Baş redaktor** Nurəddin Heydərov — n.heydarov@media.edu.az 538-21-66

**Baş redaktor müavini** Sarvan İbrahimov — s.ibrahimov@muallim.edu.az 538-21-55

**Məsul katib** Elman Əbdülov — e.abdulov@muallim.edu.az 510-68-73

**Elm və təhsil şöbəsi** Yusif Əliyev — y.aliyev@muallim.edu.az 538-51-41

**Beynəlxalq əlaqələr şöbəsi** Oruc Mustafayev — o.mustafayev@muallim.edu.az 538-67-41

**İnformasiya şöbəsi** Niyazi Rəhimov — n.rahimov@muallim.edu.az 538-51-41

**Gənclik və yaradıcılıq şöbəsi** Samirə Kərimova — s.kerimova@muallim.edu.az 539-19-74

**Məktublar şöbəsi** Şakir Cəfərov — sh.cafarov@muallim.edu.az 539-64-00

**Mühasibatlıq** 539-67-74

**Kompüter mərkəzi** 539-07-98

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X
"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ12 IBAZ38060019443164986216
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6179, **Sifariş** 1350

**Məsul növbətçi:** Y.Əliyev



# Etibarsız sayılır

**Gəncə şəhər** "Avtomexanika" texnikumu tərəfindən 1994-cü ildə Alıyev Mahir Aqil oğluna verilmiş MT-I-297672 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 173 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş İsmayılov İsmayıl Rafiq oğluna verilmiş 048528 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dillər İnstitutu** tərəfindən 1995-ci ildə Əliyeva Samirə İman qızına verilmiş AB-I-030733 nömrəli diplom və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**"Elm və təhsil" Mərkəzi Təfəkkür Universiteti** tərəfindən 2002-ci ildə Əminova (Həsənova) Leyla Çingiz qızına verilmiş A-120380 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1996-cı ildə Bünyətova Səbinə Vaqif qızına verilmiş AB-I-014950 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 284 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Bayramova Zülfiyyə Arif qızına verilmiş A-556464 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı rayonu** Təzəkənd kənd tam orta məktəbini 1986-cı ildə bitirmiş Nemətova (Ələkbərova) Dilguşə Ağaverdi qızına verilmiş 250182 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 232 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Mustafayev Mübariz Zahid oğluna verilmiş A-426183 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 246 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əliyev Sahib Tumas oğluna verilmiş B-315112 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Hökməli qəsəbə tam orta məktəbini 1997-ci ildə bitirmiş Səlimov Samir Kərim oğluna verilmiş 080881 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri İnstitutu** tərəfindən 1990-cı ildə Dilbazi Əfrasiyab Fərhad oğluna verilmiş PB-030708 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 1 nömrəli tam orta məktəbi 1990-cı ildə bitirmiş Qaçayeva Fazilə Qurban qızına verilmiş 677142 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayonu** Qızılhacılı qəsəbə 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əliyeva Elnurə Məmməd qızına verilmiş A-419193 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayonu** Arıxdam kənd tam orta məktəbinin VIII sinfini 1988-ci ildə bitirmiş Alıyev Elman Fərman oğluna verilmiş 566932 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Vəliyev Məcid Rəfail oğluna verilmiş A-112573 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayonu** Fətəlikənd kənd tam orta məktəbini 2003-cü ildə bitirmiş Kəsimov Məhəmməd Mansur oğluna verilmiş A-270191 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2004-cü ildə Nəzərov Azər Alqış oğluna verilmiş B-002871 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 158 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Mehrəliyev Mübariz Əliş oğluna verilmiş A-657220 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayonu** Hacıməlik STQ 1 nömrəli tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Abdullayev Röyal Vüqar oğluna verilmiş A-351701 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayonu** Saloğlu qəsəbə tam orta məktəbini 2016-cı ildə bitirmiş İskəndərov Famil Dilqəm oğluna verilmiş 546971 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft və Kimya İnstitutu** tərəfindən 1987-ci ildə Quliyeva Nazilə İbrahim qızına verilmiş PB-025144 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağsu şəhər** 1 nömrəli məktəb-liseyi 1998-ci ildə bitirmiş Məhərrəmova İlhamə Gülmurad qızına verilmiş A-154184 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayonu** Alışar kənd tam orta məktəbini 2005-ci ildə bitirmiş Məmmədova Günel Səttar qızına verilmiş A-159324 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şərur rayonu** Sərxanlı kənd tam orta məktəbinin VIII sinfini 1989-cu ildə bitirmiş Quliyeva Xalidə İbrahim qızına verilmiş 492104 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı Neft Energetika Kolleci** tərəfindən 2013-cü ildə Cəlilov Vurğun Gəray oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayonu** Digah qəsəbə tam orta məktəbini 2014-cü ildə bitirmiş İskəndərov Miriskəndər Mehrəli oğluna verilmiş A-322244 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 1 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Sadıxov Azər Nadir oğluna verilmiş A-191163 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** (ADNSU) tərəfindən 2001-ci ildə Şahbazov Ruslan Rafiq oğluna verilmiş A-084248 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2015-ci ildə Hacızadə Gültəkin Dilqəm qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**İmişli rayonu** Otuziki kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Ağazadə Aytən Səfa qızına verilmiş B-506048 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 5 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Alməmmədov Əsəd Muxtar oğluna verilmiş B-009935 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 5 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Qasımova (Ağayeva) Gültəkin Əli qızına verilmiş A-393074 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayonu** Sığırlı kənd tam orta məktəbini 2012-ci ildə bitirmiş Qurbanov Ramil Famil oğluna verilmiş A-167193 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 1 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Şiraliyeva İradə Əlisəmid qızına verilmiş A-580590 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 1 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Şirinov Rövşən Qədəmşah oğluna verilmiş B-566933 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2008-ci ildə Məmmədov Vüsal Qafar oğluna verilmiş B-134098 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri Universiteti** tərəfindən 2000-ci ildə Aydın Tarık Halil İbrahim oğluna verilmiş A-012897 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** 6 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş İsayeva Nuranə Arzu qızına verilmiş A-793894 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayonu** 122 nömrəli köçkün tam orta məktəbini 2006-cı ildə bitirmiş Hüseynova Günay Tanırverdi qızına verilmiş B-321639 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texnologiya Universiteti** tərəfindən 2010-cu ildə Əmirov Firdovsi Vaqif oğluna verilmiş B-181574 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 228 nömrəli tam orta məktəbi 2010 -cu ildə bitirmiş Nəsrullayev Rafiq Mübariz oğluna verilmiş B-746181 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

# İngilis dilini öyrənənlər üçün dərs nümunələri

BRITISH COUNCIL

LearnEnglish

## Myths and legends – East Africa

by Russell Evans

You are going to read a story about Mulungu, the god who made the world, and a chameleon, which is a kind of lizard.

### Activity 1

Before you read, complete the sentences with words from the box.

| | | |
|---|---|---|
| **a.** buffalo | **b.** heaven | **c.** rope |
| **d.** creator | **e.** lizard | **f.** trap |

1. ………… is a beautiful place in the sky where nothing is wrong.
2. A ………… is something long and strong that you can tie things together with.
3. A ………… is a small animal that looks like a small snake with four legs.
4. A ………… is a very big animal that looks like a brown cow.
5. A ………… is like a net you can use to catch animals without hurting them.
6. A ………… is someone who makes something for the first time.

### Mulungu and the chameleon

In East Africa, many people don't like the chameleon lizard. This is the story why.

A long time ago, the creator of the world, Mulungu, lived alone on the Earth with all the animals. There were no people at all, and everything was peaceful.

One day, a chameleon went to the river to catch some fish. He put his traps in the water and returned to the forest. The next morning, he went back to the river to check them. Instead of fish, he found two small creatures that he had never seen before. They were tiny people.

He took the people to Mulungu. 'Mulungu, look what I found in my fish trap,' he said. Mulungu told the chameleon to let the people go, so that they could grow up and have children. The chameleon did as he was told.

Over the next few years, the people grew up. They discovered many things. They found out how to make fire, and how to hunt buffalo. They started burning the forest. They killed animals for food. The animals were scared of the people, and they learned to run away from them as fast as they could. The chameleon climbed a tree and stayed there.

As soon as Mulungu heard what was happening, he decided that the world was not a peaceful place any more. He asked a spider to make a strong rope up to heaven. When it was finished, he climbed up the rope. He cut the rope so that the bad people couldn't follow him. He has never come back down to Earth again.

After the chameleon found the tiny people, the world became a bad place. And that's why many people in East Africa still don't like the chameleon.

### Activity 2

Put these events from the story in the right order.

1. Mulungu climbed up to heaven.
2. Mulungu talked to the spider.
3. Mulungu told the chameleon to let the people go.
4. The chameleon climbed a tree and decided not to come down.
5. The chameleon found tiny people in his fish trap.
6. The chameleon showed the tiny people to Mulungu.
7. The people discovered how to make fire and kill animals for food.

### Activity 3

Match one animal or person with each statement.

| | | |
|---|---|---|
| A animals | C chameleon | M Mulungu |
| P people | S spider | |

1. burned a forest
2. gave people freedom
3. liked fishing
4. lived alone with animals
5. lived in a tree
6. made a rope to heaven
7. never came back to Earth
8. ran away from people
9. were found in a fish trap



© Hannah Eaton/British Council

### Activity 4

Look at these **phrases** from the story.

***One day,*** *a chameleon went to the river to catch some fish.*
***The next morning****, he went back to the river to check his traps.*
***Over the next few years****, the people grew up.*
***As soon as*** *Mulungu heard what was happening …*
***After*** *the chameleon found the tiny people …*

Why does the writer use these phrases?

(A) to make the story longer
(B) to help the reader follow what happened first, second, third, etc.

Complete this short story using the phrases in the box.

| | | | |
|---|---|---|---|
| as soon as | One day | The next night | Over the next few years |

(1) …………, a fisherman and a princess fell in love. (2) …………, they met secretly every night. They didn't want the King to know. But of course, the King found out. (3) …………, he asked his soldiers to follow the princess and catch her with the fisherman. But the princess saw them and ran down to the beach. As the soldiers got nearer, she decided to run into the sea. But (4) ………… her feet touched the water, it turned into sand! She ran as quickly as she could, but just as she was about to escape, one of the soldiers shot her with an arrow. The princess's blood mixed with the sea and the sand. And that is why the sand on this beach is pink today.

### Activity 5

What stories do people in your country tell each other about how the world began? Do you believe them?

### Answers

**Activity 1**
1. b; 2. c; 3. e; 4. a; 5. f; 6. d

**Activity 2**
5, 6, 3, 7, 4, 2, 1

**Activity 3**
1P; 2M; 3C; 4M; 5C; 6S; 7M; 8A; 9P

**Activity 4**
1. One day; 2. Over the next few years; 3. The next night; 4. as soon as

To find more English language activities visit www.britishcouncil.org/learnenglish

Send your feedback to learnenglishprint@britishcouncil.org

© British Council 2017